RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 246 (9701) 7 noyabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək

### Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Tramp!

Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə qazandığınız inamlı qələbə dost Amerika xalqının şəxsən Sizə, yürütdüyünüz siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir.

Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir.

Siz birinci prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığımızın davamlı və ardıcıl inkişafına böyük diqqət ayırırdınız. Məmnunluqla qeyd etmək istərdim ki, bu dövr ərzində qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlığımız, o cümlədən bir sıra mühüm sahələrdə, xüsusilə də qlobal çağırışlara və terrorizmə qarşı mübarizədə, beynəlxalq sülhün və təhlükəsizliyin gücləndirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində birgə fəaliyyətimiz dinamik və yüksələn xətt üzrə inkişafı ilə səciyyələnirdi. Azərbaycanın enerji strategiyasına Sizin daim qətiyyətli dəstəyinizi xüsusi qeyd etmək istərdim.

Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik. İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır.

Azərbaycan bundan sonra da Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

Əminəm ki, Azərbaycan-ABŞ dostluq münasibətlərinin güclənməsi, ölkələrimizin milli maraqları, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bir daha Sizə ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Amerika xalqının rifahı naminə qarşıdakı ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2024-cü il*

## Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini davam etdirəcək

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri




Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Həmin gün Prezident İlham Əliyev Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak edib.

Daha sonra Bişkekdə Macarıstanın Baş naziri Viktor Orbanın türk dünyasının Ali Ordeni ilə təltif olunması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri noyabrın 6-da başa çatıb.

→ 2-3

## Hamı qorxub susanda, yalnız İlham Əliyev danışırdı

### D.Trampa dəstəyini hələ aylar öncə rəsmən bildirən Azərbaycan Prezidenti həm də ona qarşı terrora etiraz edən azsaylı liderlərdən idi

Ağ Ev özünü "demokratiyanın beşiyi" adlandırır və azadlıq, insan hüquqları kimi dəyərləri bütün dünyada yaymağı əsas vəzifələrindən biri kimi elan edir. Rəsmi Vaşinqtonun özünü necə adlandırmasından asılı olmayaraq müasir reallıq, ən əsası isə "azadlıq ixracı" pərdəsi altında Şərq-müsəlman dünyasına gətirdiyi savaş və iflas ABŞ-nin demokratiyanın təməl prinsiplərindən tam uzaqlaşdığını, həmçinin xalqların suverenlik və seçim hüququna qənim kəsildiyini göstərir. "Demokratikləşmə dalğası"nın, əslində, yeni ekspansiya hərəkatı və müasir müstəmləkəçilik siyasəti olduğunu bilmək üçün hansısa xüsusi araşdırmalara da lüzum yoxdur.

Bütün Şərqin qana boyanması, hər addımda partlayan hər bir bomba, qətlə yetirilən hər bir insan məhz ABŞ "demokratiyasının" nəticəsidir, məhsuludur...

Son onilliklərdə postsovet məkanını, Şərq coğrafiyasını "azadlıq", "insan hüquqları" nağılı ilə nəzarətə götürməyə çalışan və buna əsasən də nail olan ABŞ-nin Avrasiya bölgəsinə bəxş etdiyi "demokratiya" nə qədər qanlı və faciəlidirsə, öz ölkəsində tətbiq etdiyi "demokratiya" rejimi bir o qədər nöqsanlı, problemlidir. Dünya xalqlarını öz müqəddəratını təyinetmə hüququndan zorakılıqla məhrum edən bu fövqəlgüc elə öz vətəndaşlarının da normal seçimetmə imkanını minimuma endirib.

→ 5

## Əbədi yaşayacaq ZƏFƏR

1992-ci ilin mayında təcavüzkar Ermənistan tərəfindən Şuşa şəhəri işğal edildikdən sonra uzun illər Azərbaycan xalqı belə bir həsrət və ümidlə yaşayırdı: Şuşa nə zaman təcavüzkar Ermənistanın işğalı altından azad ediləcək? Bu, mümkün olacaqmı? İllər ötdükcə insanlarda ümidlər azalırdı.

Nəhayət, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qərar verdi. 2020-ci il sentyabrın 27-dən başlayan və millətin yüksək əhvali-ruhiyyə ilə qoşulduğu Vətən müharibəsinin noyabrın 8-də Zəfərlə tamamlanması bu həsrətə son qoydu. Həmin gün Azərbaycan tarixi və mədəniyyətində özünəməxsus yeri olan Şuşa şəhəri düşmən işğalından xilas edildi.

Vətən müharibəsi günlərində Azərbaycan xalqı hər axşam televiziya ekranları qarşısında oturub Prezident İlham Əliyevin növbəti qələbə xəbərini eşitmək istəyir, Şuşanın azad edilməsi müjdəsinin verilməsini gözləyirdi. Nəhayət, həmin an gəldi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 8-də Fəxri xiyabanda və Şəhidlər xiyabanında oldular. Əvvəlcə, Fəxri xiyabanda Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsinə ehtiram bildirdilər, abidənin önünə əklil qoydular. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Dövlət başçısı və xanımı görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarları üzərinə çiçək dəstələri düzdülər.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanına gələrək Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etdilər, məzarlarına çiçək dəstələri düzdülər. Dövlət başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

→ 7

## "Neft Daşları əsl qəhrəmanlıq məktəbidir"

### Bu gün Neft Daşlarının 75 yaşı tamam olur



"Neft Daşlarında işləyən hər kəs ən böyük hörmətə layiq bir insandır. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz". Bu sözlər Ulu Öndər Heydər Əliyevə məxsusdur. Bəli, Neft Daşlarını gərək gözlərinlə görəsən. Onu təsəvvürdə canlandırmaq, təxəyyüldə yaratmaq çətindir.

→ 12

## Avropa Komissiyası Qərb imperializminin əlində alətə çevrilib

Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Brüsseldə baş verən siyasi hadisələr səbəbilə pərdələnərək Bakıda keçiriləcək COP29 sammitinə qatılmayacağı barədə qərar verməsi və gətirdiyi bəhanələrin ümumbəşəri niyyətlər qarşısında cılızlığı onu deməyə əsas verir ki, əslində, Avropa Komissiyasını iqlim dəyişiklikləri də daxil olmaqla, qlobal təhlükəsizlik və insan amili maraqlandırmır. Daha doğrusu, Avropa İttifaqının digər strukturları kimi Avropa Komissiyası da Qərb imperializminin əlində alətə çevrilib. "Azərbaycan hələ bu ilin aprel ayında Ursula fon der Lyayenə COP29-da iştirakla bağlı dəvəti rəsmən təqdim etmiş və qurum tərəfindən də bu dəvət məmnunluqla qarşılanmışdı. Lakin tədbirə sayılı günlər qaldığı bir zamanda Avropa Komissiyanın Mətbuat xidməti məlumat yayaraq Ursula fon der Lyayenin noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT İqlim Sammitinə gəlməyəcəyini bəyan etməsi çoxsaylı qaranlıq məqamlara işıq salır. İlk növbədə görünən odur ki, Avropa Komissiyası Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirləri ilə beynəlxalq hüququn aliliyini təmin edərək özünün suverenliyini və ərazi bütövlüyünü bərqərar etməsini Qərb imperializmin rakursundan qiymətləndirərək heç cür həzm etmək istəmir. Ani şəkildə verilən bu qərar da onu göstərir ki, xanım Ursula fon der Lyayen də ölkəmiz əleyhinə başlanan qarayaxma kampaniyasının dolayısı ilə iştirakçısına çevrilməkdədir. Baxmayaraq ki, iqlim dəyişiklikləri ilə mübarizə ayrıca heç bir dövlətin, xüsusən də Azərbaycanın daxili məsələsi deyil.

→ 14

## Bakı COP29-a hazırdır




Gələn həftə dünyanın nəzəri Azərbaycana yönələcək.

Əlbəttə ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi ölkəmizin üzərinə böyük məsuliyyət qoyur. Ancaq bu sahədəki təcrübə yetərlidir ki, bu beynəlxalq konfransı da ən yüksək səviyyədə keçirə bilək.

Ölkəmizin evsahibliyi edəcəyi bu beynəlxalq sammit öncəsi Bakıda və işğaldan azad edilmiş şəhərlərimizdə mühüm konfranslar, forumlar təşkil edilib. Bu toplantılar, görülən hazırlıq işləri onu deməyə əsas verir ki, gələn həftə Azərbaycanın COP29-a evsahibliyi etməsi fonunda dünyanın təmiz enerjiyə transformasiya nəbzi ölkəmizdə döyünəcək. Azərbaycanın isə tədbirə yüksəksəviyyəli təşkilatçılıq edəcəyi heç kimdə şübhə doğurmur.

→ 13

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri

# Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini davam etdirəcək

## Bişkekdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüş



**Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha qeyd olundu.

Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşünün türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi işinə xidmət etdiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyəti bir daha qeyd edildi. Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Bişkekdə Macarıstanın Baş nazirinin təltifolunma mərasimində iştirak edib



Noyabrın 6-da Bişkekdə Macarıstanın Baş naziri Viktor Orbanın türk dünyasının Ali Ordeni ilə təltif olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.





## Prezident İlham Əliyev Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak edib




**Noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmək üçün Prezident Administrasiyasına gəldi.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının iclası keçirildi.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Zirvə görüşünün işinə uğurlar arzuladı. S.Japarov çıxışında yaxın günlərdə Azərbaycanda keçiriləcək COP29 konfransına diqqət çəkərək dedi: "Tezliklə Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 keçiriləcək. Hörmətli Azərbaycan Prezidenti belə bir böyük Zirvə toplantısına evsahibliyi edəcək və biz Azərbaycan hökumətinə bu mövzu ilə bağlı hər cür dəstək göstərməyə hazırıq".

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Türk Dövlətləri Təşkilatının türk xalqlarını daha da yaxınlaşdırdığını bildirdi. Kasım-Jomart Tokayev ortaq türk əlifbasının yaradılması, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini vurğuladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi.



### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Sadır Nurqojoyeviç.

Hörmətli dövlət və hökumət başçıları.

İlk növbədə qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğız Respublikasının Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür edirəm.

Bu, mənim son iki ildə Qırğız Respublikasına üçüncü səfərimdir. Hər səfərimdə Sadır Nurqojoyeviçin rəhbərliyi ilə ölkədə inkişafın şahidi oluram. Əldə edilmiş bütün uğurlar münasibətilə qardaş Qırğızıstanı təbrik edirəm.

Həmçinin Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyinə görə Qazaxıstanı təbrik edirəm.

Bu il Türk Dövlətləri Təşkilatının əsasını qoymuş Naxçıvan Sazişinin 15-ci ildönümüdür. Təşkilatımız bu dövr ərzində uğurlu inkişaf yolu keçib. İyul ayında Şuşa şəhərində keçirilmiş Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir.

Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyduğumuz hədəflərin həyata keçirilməsi üçün yetərli deyil. Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək.

Hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib.

Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir.

Son dövrlər "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Mərkəzi Asiya ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycan öz sərmayələrini artırır.

2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edilir.

Hazırda Orta dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur. Bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək.

Ötən ilin sentyabr ayında Azərbaycan öz suverenliyini tam bərpa etdi. Ermənistan 30 il davam edən işğal dövründə bu ərazilərdə 9 şəhərimizi və yüzlərlə kəndimizi tamamilə məhv edib. İşğaldan azad olunan ərazilərdə indi genişmiqyaslı yenidənqurma və bərpa layihələri həyata keçirilir, eyni zamanda Böyük qayıdış proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər öz doğma yurdlarına geri dönürlər.

Fürsətdən istifadə edərək, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim.

Azərbaycan yaxın günlərdə COP29 iqlim konfransına evsahibliyi edəcəkdir. Keçən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini yekdilliklə dəstəkləmişdir. Bu, beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürüdür.

Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

Bax: səh. 3

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri

# Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini davam etdirəcək

## Prezident İlham Əliyev Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak edib





❖❖❖

Qırğızıstan dövlətinin başçısı **Sadır Japarov** çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

❖❖❖

Daha sonra çıxış edən Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğan** Cənubi Qafqazda yaranan sabitliyin pozulmaması üçün Ermənistanla Azərbaycan arasında sülh razılaşması istiqamətində danışıqların davam etdirilməsinin vacibliyinə toxundu. Türkiyə Prezidenti dedi: "Hörmətli qardaşlarım, Cənubi Qafqazda mövcud olmuş 30 illik münaqişə və qeyri-sabitlikdən sonra sülh və əmin-amanlığa gedən yolun qapıları açılmışdır. Can Azərbaycanın Vətən müharibəsində döyüş meydanında şəhidlər verərək əldə etdiyi tarixi uğurların ən yaxın zamanda sülh müqaviləsinin imzalanması ilə masada da əksini tapmasını ümid və arzu edirik".

Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** çıxışında Bakıda keçiriləcək COP29-la bağlı təbriklərini çatdıraraq dedi: "Gələn həftə Bakıda COP29 konfransının başlanması münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi bir daha səmimi-qəlbdən təbrik edir, ona böyük uğurlar arzulayıram".

Macarıstanın Baş naziri **Viktor Orban** çıxışında Azərbaycanın və Türkiyənin ölkəsinin enerji təhlükəsizliyinə töhfə verdiklərini vurğulayaraq dedi: "Biz qonşumuz olmayan Türkiyədən və Azərbaycandan təbii qaz alırıq. Bütün bunlara görə təşəkkürümü bildirirəm".

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** təşkilata üzv dövlətlər arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi istiqamətində görülən işlərdən danışdı. Eyni zamanda TDT qarşısında duran yeni hədəflərə diqqət çəkdi. Qeyd etdi ki, hazırda təşkilata üzv ölkələr arasında həyata keçirilən layihələrdə müasir texnologiyalardan istifadə, süni intellektin tətbiqi, təhlükəsizlik məsələləri, elektron ticarətin təşkili və reallaşdırılması prioritet istiqamətlərdir.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti **Ersin Tatar** dili və kökü bir olan türk xalqlarının daha da yaxınlaşması, ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafı, tarixi İpək yolunun yenidən canlanması, təhsil sahəsində yeni əməkdaşlıqların yaradılması, strateji layihələrin həyata keçirilməsi istiqamətində Türk Dövlətləri Təşkilatının rolunu xüsusi vurğuladı.

❖❖❖

Sonda sənədlər imzalandı.

## Prezident İlham Əliyevin Qırğızıstana səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri noyabrın 6-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Bişkek şəhərinin "Manas 2" Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər yola saldılar.

## Dünya dini liderlərinin qlobal Bakı Sammiti başa çatıb

*Prezident İlham Əliyevin təşəbbüsü və himayədarlığı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Müsəlman Ağsaqqallar Şurası, Qafqaz Müsəlmanları İdarəsi və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən "Dünya dinləri yaşıl planet uğrunda" mövzusunda Bakıda keçirilən Dünya dini liderlərinin qlobal Sammiti noyabrın 6-da başa çatıb.*




AZƏRTAC xəbər verir ki, açılış mərasimi noyabrın 5-də keçirilən sammit bu gün işini Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun moderatorluğu ilə keçirilən plenar iclasla davam etdirib.

Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan, Misir diyarının Baş müftisinin müşaviri İbrahim Neqm, "Mərmərə" Qrupu Fondunun prezidenti Akkan Suver, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Nuriddin Kholiknazar, Finlandiya Dinlərarası Əməkdaşlıq üzrə Milli Forumunun prezidenti Atik Ali, Türkiyənin cəfəri şiə icmasının başçısı Selahitdin Özgündüz, İordaniya Dinlərarası birgə yaşayış araşdırma Mərkəzinin direktoru Nəbil Həddad, Ümumafrika Kilsələr konfransının Baş katibi Fidon Mvombeki, Rumıniya Baş müftisi İyusuf Murat, Sloveniya Müsəlman İcmasının müftisi Nevzet Poriç, Tatarıstan Respublikası Müsəlmanları Ruhani İdarəsinin sədri Kamil Samigullin, Avropa-Türk-İslam Birliyinin prezidenti, Asiya Strateji Araşdırmalar Mərkəzinin baş direktoru Musa Serdar Çelebi, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev və digər çıxışçılar bütün yaradılanlara hörmət etməyin əhəmiyyəti, qlobal dəstəyi gücləndirmək, ətraf mühitin toxunulmazlığı, müqəddəsliyi, birgə fəaliyyətin vacibliyi barədə fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər.

Çıxışçılar həmçinin silahlı münaqişələrdən, terror aktlarından, dini və etnik zəmində baş verən zorakılıqlardan, ekoloji fəlakətlərdən, mədəni və dini irsin talan və məhv edilməsindən, ekosid və urbisid aktlarından, eyni zamanda onların ağır nəticələrindən, habelə iqlim dəyişikliyi ilə mübarizəyə etdiyi mənfi təsirlərdən dərin narahatlıqlarını ifadə ediblər.

Onlar sammitə yüksək səviyyədə evsahibliyi edən Azərbaycan dövlətinə təşəkkürlərini bildiriblər.

Tədbirin sonunda COP29 çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" mövzusunda keçirilən Dünya dini liderlərinin qlobal Bakı Sammitinin yekun sənədi - Bakı Bəyannaməsi və Dünya dini liderlərinin müraciəti qəbul edilib. Sammit iştirakçıları həmçinin Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlayıblar.

Daha sonra mətbuat konfransı keçirilib.

Qeyd edək ki, noyabrın 7-də sammit iştirakçılarının işğaldan azad olunmuş ərazilərə səfərləri nəzərdə tutulub.

# Baş nazir Əli Əsədov Müsəlman Ağsaqqalları Şurasının Baş katibi ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 6-da Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalam ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə COP29 çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında Bakıda keçirilən Dini Liderlərin Qlobal Sammitinin əhəmiyyəti vurğulanıb.

Qeyd edilib ki, Azərbaycanda dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafı ilə bağlı mühüm tədbirlər keçirilir.

Multikulturalizm və tolerantlığın Azərbaycan cəmiyyətinin həyat tərzi olduğu bildirilərək fərqli etnik dəyərlərə, mədəniyyətlərə və dinlərə malik xalqların əsrlər boyu ölkəmizdə davam edən mehriban birgəyaşayışının bunu təsdiq etdiyi vurğulanıb.

Müasir dövrdə Azərbaycanda multikulturalizm və tolerantlığın dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildiyi diqqətə çatdırılıb.

2020-ci ildə işğaldan azad edilmiş Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunması bütün islam dünyası tərəfindən Azərbaycana göstərilən böyük dəstəyin təzahürü kimi qiymətləndirilib. Müsəlman Ağsaqqalları Şurasının Azərbaycanın İslam həmrəyliyinə verdiyi mühüm töhfələri, həmçinin ölkəmizin iqlim dəyişiklikləri ilə mübarizə istiqamətində səylərini yüksək qiymətləndirdiyi bildirilib.

# Azərbaycanın Baş naziri KAICIID-in Baş katibi ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 6-da Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Baş katibi Zuhair Əlharti ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə COP29 çərçivəsində "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında Bakıda keçirilən Dini Liderlərin Qlobal Sammitinin dünyada dinlərarası dialoqun və körpülərin qurulmasına xidmət etdiyi bildirilib.

"Yaşıl gündəliy"in təşviqi və iqlim dəyişiklikləri ilə mübarizə, həmçinin dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi ilə bağlı Azərbaycanın ardıcıl səyləri barədə söhbət açılıb. Z.Əlharti KAICIID tərəfindən həyata keçirilən layihələr barədə məlumat verib.

Görüşdə Azərbaycanın təsisatları ilə KAICIID arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

# Gürcüstanın Baş naziri azərbaycanlı həmkarına minnətdarlığını bildirib

**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova məktub ünvanlayıb.**

AZƏRTAC xəbər verir ki, məktubda deyilir: "Gürcüstanda keçirilmiş parlament seçkilərində əldə olunmuş qələbə münasibətilə göndərdiyiniz təbrikə və xoş arzulara görə Sizə dərin minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək Gürcüstanla Azərbaycan arasında möhkəm tərəfdaşlıq əlaqələrini daha da gücləndirmək üçün hazır olduğumuzu bir daha təsdiqləmək istəyirəm. Ölkələrimiz arasındakı strateji münasibətlər regionda sülh və sabitlik üçün olduqca əhəmiyyətlidir və inanıram ki, birgə səylərimizlə bütün sahələrdə gələcək əməkdaşlığımız daha da möhkəmlənəcəkdir".

# Azərbaycanın xarici işlər naziri TDT XİN Şurasında COP29-a hazırlıq işlərindən danışıb

**Noyabrın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qırğız Respublikasının paytaxtı Bişkek şəhərinə işgüzar səfəri çərçivəsində Türk Dövlətləri Təşkilatı (TDT) Xarici İşlər Nazirləri Şurasının 11-ci iclasında iştirak və çıxış edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, çıxışda TDT çərçivəsində iqtisadi-ticarət, nəqliyyat və kommunikasiyalar, enerji təhlükəsizliyi, rəqəmsal texnologiyalar, mədəniyyət və digər sahələr üzrə əməkdaşlığın inkişaf perspektivləri, ölkəmizin təşkilatın gücləndirilməsi istiqamətində təşəbbüsləri və baxışı, habelə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyindən ətraflı bəhs olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin ailəmiz hesab etdiyi türk dünyası çərçivəsində əməkdaşlığa strateji baxışının əsasında ölkəmizin təşkilatın gücləndirilməsi istiqamətində səy və təşəbbüslərini davam etdirmək niyyəti diqqətə çatdırılıb, bu istiqamətdə TDT Katibliyinin heyət və büdcəsinin artırılmasının əhəmiyyəti qeyd olunub.

Beynəlxalq qurum və təsisatlara inamın azaldığı bir dövrdə tarixi Naxçıvan sazişi ilə əsası qoyulmuş TDT-nin yaradılmasından ötən 15 il ərzində təşkilatın bölgədə və dünyada etibarlı regional təşkilata çevrilməsinin məmnunluq doğurduğu qeyd edilib.

"Türk dünyasının gücləndirilməsi: iqtisadi inteqrasiya, davamlı inkişaf, rəqəmsal gələcək və hər kəs üçün təhlükəsizlik" mövzusunda keçiriləcək Zirvə görüşünün, habelə bu çərçivədə qəbul olunacaq bəyannamə və Türk Dünyasının Xartiyası da daxil olmaqla bütün sənədlərin təşkilatın inkişaf dinamikasına müsbət təsir göstərəcəyinə dair inam ifadə olunub.

Mövcud regional və beynəlxalq çağırışların fonunda bölgəmizdə birgə rifah və ümumi məqsədlərə nail olunması istiqamətində iqtisadi potensialın gücləndirilməsi, ticarət dövriyyəsinin daha da artırılması, nəqliyyat dəhlizlərinin şaxələndirilməsinin vacibliyi qeyd olunub.

Bu istiqamətdə iyulun 6-da Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü çərçivəsində qəbul olunmuş Qarabağ Bəyannaməsinin türk dövlətlərinin potensialının reallaşdırılması, əhəmiyyətli birgə təşəbbüs və layihələrin həyata keçirilməsinə vurğu etməsi baxımından əhəmiyyəti diqqətə çatdırılıb.

TDT ilə əlaqəli fəaliyyət göstərən TÜRKPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu və Türk İnvestisiya Fondunun fəaliyyəti, o cümlədən TDT-nin Macarıstandakı nümayəndəlik ofisinin işi təqdir olunub.

İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərindən bəhs edən nazir Ceyhun Bayramov ölkəmizin yenidənqurma fəaliyyətinin birgə əməkdaşlıq, o cümlədən Orta dəhlizin inkişafı üçün geniş imkanlar yaratdığını bildirib.

Çıxış zamanı həmçinin ölkəmizin COP29 sədrliyi, görülən hazırlıq işlərindən ətraflı bəhs olunub, türk dünyasında ilk dəfə keçiriləcək bu mötəbər tədbir çərçivəsində bir sıra birgə təşəbbüslərin həyata keçiriləcəyi diqqətə çatdırılıb.

İclasın sonunda xarici işlər nazirləri tərəfindən "Türk Dövlətləri Təşkilatı yanında Daimi Nümayəndələr haqqında Əsasnamənin təsdiq edilməsi haqqında Qərar" və "Türk dünyasının birliyinə töhfəyə görə Əlişir Nəvai Beynəlxalq Mükafatının Türk Dövlətləri Təşkilatına verilməsi haqqında Qərar" imzalanıb.

# Azərbaycan bütün dünyada tolerantlıq, multikulturalizm, qarşılıqlı anlaşma kimi humanist dəyərləri təbliğ edir

**Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 6-da Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonağı Bakıda salamlamaqdan məmnunluğunu bildirən Sahibə Qafarova, Dünya dini liderlərinin qlobal Bakı Sammitinin çox aktual məsələlərin müzakirə edildiyi mühüm bir platforma olduğunu söyləyib.

O, Qlobal Tolerantlıq və Sülh Şurasının dünyada sülh və tolerantlığı təşviq etdiyini, Azərbaycan xalqının da eyni dəyərləri bölüşdüyünü bildirib. Spiker diqqətə çatdırıb ki, Azərbaycanda multikulturalizmin, tolerantlığın və dinlərarası dialoqun təşviqi həmişə xalqımızın həyat tərzi və dövlət siyasəti olub. Milli Məclisin Sədri qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nəinki regionda, bütün dünyada tolerantlıq, multikulturalizm, qarşılıqlı anlaşma kimi humanist dəyərləri təbliğ edir.

Sahibə Qafarova ölkəmizin təşkilatçılığı ilə keçirilmiş və tolerantlıq, multikulturalizm, mədəniyyətlərarası dialoq, qarşılıqlı anlaşma mövzularına həsr olunmuş tədbirləri xatırladıb. Onun sözlərinə görə, dünyada baş verən münaqişələrin səbəblərindən biri də tolerantlığın, qarşılıqlı anlaşmanın olmamasıdır.

Görüşdə qeyd olunub ki, Azərbaycanın COP29-un ev sahibi kimi seçilməsi təkcə ölkəmizin "yaşıl enerji" gündəliyinə qlobal dəstəyi deyil, həm də onun müxtəlif qrupları birləşdirmək, dialoqu təşviq etmək və onlar arasında anlaşmaya nail olmaq qabiliyyətini əks etdirir. Dünya dinləri, tolerantlıq anlayışı dövrümüzün ən aktual problemi olan iqlim dəyişikliyi ilə mübarizədə böyük potensiala və imkanlara malikdirlər. Sammitin "Dünya dinləri yaşıl planet uğrunda" şüarı da bu aktuallığı əks etdirir.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, COP29 çərçivəsində Milli Məclis və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə parlament konfransı keçiriləcək. Bu konfransın da aktual məsələlərin müzakirəsi baxımından mühüm bir fürsət olacağına əminlik ifadə edilib.

Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan Dini Liderlərin Qlobal Sammitinin yüksək səviyyədə təşkilinə və onun Azərbaycana səfərinə yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O, Azərbaycanı çox sevdiyini, ölkəmizlə tanışlığın, xalqımızın mədəniyyətinin, multikultural dəyərlərinin qonaqlarda yüksək təəssürat yaratdığını deyib.

Qonaq Dünya dini liderlərinin qlobal Bakı Sammitinin sülh və tolerantlıq haqqında müzakirələr aparmaq üçün əlverişli bir imkan olduğunu qeyd edib. Qlobal Tolerantlıq və Sülh Şurasının sədri rəhbərlik etdiyi təşkilat haqqında məlumat verib.

Görüşdə tərəflər arasında əməkdaşlıq imkanları barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# YAP İdarə Heyətinin iclası keçirilib






**Noyabrın 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib.**

İclasda YAP Xətai və Nərimanov rayon təşkilatlarına sədr təyin olunması məsələsinə baxılıb, Ramil Kamil oğlu Mirzəyevin və Elçin Bəybala oğlu Quliyevin namizədliyi ətrafında müzakirələr aparılıb.

YAP İdarə Heyətinin üzvləri Musa Quliyev, Şahin İsmayılov, Mübariz Qurbanlı, Hikmət Məmmədov, Bahar Muradova, Elmar Qasımov, Azər Badamov, Kamal Cəfərov, Bayram Aslanov və Əfsun Sucayev çıxış edərək hər iki şəxsin namizədliyini dəstəklədiklərini bildirib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra Ramil Kamil oğlu Mirzəyevin YAP Xətai rayon təşkilatının, Elçin Bəybala oğlu Quliyevin isə Nərimanov rayon təşkilatının sədri vəzifəsinə təyin olunması haqqında qərar qəbul olunub.

Hər iki şəxs çıxış edərək partiya rəhbərliyinə təşəkkürlərini bildirib və göstərilən etimadı layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.

Ərazi bütövlüyü və suverenliyini bərpa edən ölkəmizin yeni dövrə qədəm qoyduğunu vurğulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu dönəmdə YAP yerli təşkilatlarının da üzərinə böyük məsuliyyət düşdüyünü, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müəyyənləşdirdiyi, eləcə də partiyanın nizamnamə və proqramından irəli gələn vəzifələrin günün tələbləri səviyyəsində mütəşəkkil və operativ yerinə yetirilməsinin qarşıda duran əsas məsələ olduğunu diqqətə çatdırıb.

YAP Mərkəzi Aparatının rəhbəri yeni təyin olunmuş sədrləri təbrik edərək onlara göstərilən yüksək etimadı doğruldacaqlarına inamını ifadə edib.

***Ü.XASPOLADOVA,***
*"Azərbaycan"*

# Milli Məclisdə şəhid övladı olan tələbələrlə görüş keçirilib

**Noyabrın 6-da Milli Məclisin Gənclər və idman komitəsi şəhid övladı olan tələbələrlə görüş keçirib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tələbələri salamlayan komitə sədri Şahin İsmayılov onları Milli Məclisdə görməkdən məmnun olduqlarını bildirib.**

Komitə sədri ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçılarına Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstərişlərinə əsasən dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərildiyini deyib. Qeyd olunub ki, bu dövlət siyasətinə uyğun olaraq Milli Məclis də şəhid ailələri və qazilərin qayğıları ilə yaxından maraqlanır. Diqqətə çatdırılıb ki, bu gün Azərbaycan parlamentində şəhid ailə üzvü və qazilər işlə təmin olunublar. Şanlı Zəfərdə şəhidlərin fədakarlığını vurğulayan çıxışçı onların milli hərb və qəhrəmanlıq tariximizə yazdıqları şanlı səhifələrin xalqımızın qürur mənbəyi olmasından danışıb.

Şahin İsmayılov söhbət əsnasında şəhid övladı olan tələbələrin təhsili, tədrisi, tələbəlik qayğıları ilə maraqlanıb, onlara karyera planları ilə bağlı tövsiyələrini bildirib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə komitə sədrinin müavini Könül Nurullayeva, komitə üzvləri Ülvi Quliyev, Asif Əsgərov, Müşfiq Cəfərov, Anar Məmmədov və Mircəlil Qasımlı çıxış ediblər. Onlar bildiriblər ki, Vətən müharibəsində şanlı Zəfər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz iradəsi və sərkərdəlik məharəti, əsgər və zabitlərimizin döyüş əzmi və fədakarlıqları, xalqımızın "dəmir yumruğ"a çevrilmiş milli birliyi nəticəsində qazanılıb. Vurğulanıb ki, torpaqlarımızın işğaldan azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması naminə canından keçmiş şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyi və fədakarlığı heç zaman unudulmayacaq.

Sonra şəhid övladı olan tələbələr parlamentin inzibati binası ilə tanış olublar.

Milli Məclisin foyesində spiker Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış Zəfər Guşəsi ilə tanış olan tələbələrə bildirilib ki, guşədə Vətən müharibəsində canlarından keçərək şəhidlik zirvəsinə ucalan əsgər və zabitlərimizin adları həkk olunub.

Heydər Əliyev xatirə zalı ilə tanışlıq zamanı Ümummilli Liderimizin gələcək nəsillərə örnək olan həyat yolunu, siyasi, dövlətçilik fəaliyyətini əks etdirən eksponatlar haqqında gənclərə məlumat verilib. Plenar iclas zalında isə tələbələrə Milli Məclisin iclaslarının keçirilməsindən, deputatların fəaliyyəti üçün yaradılmış iş şəraitindən bəhs edilib.

Sonda tələbələrlə xatirə şəkli çəkilib.

*"Azərbaycan"*

# Hamı qorxub susanda, yalnız İlham Əliyev danışırdı

## D.Trampa dəstəyini hələ aylar öncə rəsmən bildirən Azərbaycan Prezidenti həm də ona qarşı terrora etiraz edən azsaylı liderlərdən idi



**ABŞ-də prezident seçkiləri hər dörd ildən bir dünyanın diqqət mərkəzində olan əsas hadisəyə çevrilir, mühüm qlobal siyasi proses kimi, qəbul olunur. Hər dəfə dövlətdəki nöqsanların, demokratiyanın kobud pozuntularının, siyasi korrupsiya hallarının bariz göstəricisi olan seçkilər 8 il öncəki kimi bu dəfə də sistemin planlarından kənar nəticələndi.**

Və bu dəfə də planı - sistemin dünya üçün hazırladığı yeni idarəçilik konfiqurasiyasını Tramp pozdu…

Özü də Azərbaycanda yaxşı tanınan və Azərbaycanı yaxşı tanıyan Tramp…

### D.Trampa olan etimad ABŞ-nin xarici və daxili siyasətinə amerikalıların duyduğu etimadsızlıqdır

Ağ Ev özünü "demokratiyanın beşiyi" adlandırır və azadlıq, insan hüquqları kimi dəyərləri bütün dünyada yaymağı əsas vəzifələrindən biri kimi elan edir. Rəsmi Vaşinqtonun özünü necə adlandırmasından asılı olmayaraq müasir reallıq, ən əsası isə "azadlıq ixracı" pərdəsi altında Şərq-müsəlman dünyasına gətirdiyi savaş və iflas ABŞ-nin demokratiyanın təməl prinsiplərindən tam uzaqlaşdığını, həmçinin xalqların suverenlik və seçim hüququna qənim kəsildiyini göstərir. "Demokratikləşmə dalğası"nın, əslində, yeni ekspansiya hərəkatı və müasir müstəmləkəçilik siyasəti olduğunu bilmək üçün hansısa xüsusi araşdırmalara da lüzum yoxdur.

Bütün Şərqin qana boyanması, hər addımda partlayan hər bir bomba, qətlə yetirilən hər bir insan məhz ABŞ "demokratiyasının" nəticəsidir, məhsuludur...

Son onilliklərdə postsovet məkanını, Şərq coğrafiyasını "azadlıq", "insan hüquqları" nağılı ilə nəzarətə götürməyə çalışan və buna əsasən də nail olan ABŞ-nin Avrasiya bölgəsinə bəxş etdiyi "demokratiya" nə qədər qanlı və faciəlidirsə, öz ölkəsində tətbiq etdiyi "demokratiya" rejimi bir o qədər nöqsanlı, problemlidir. Dünya xalqlarını öz müqəddəratını təyinetmə hüququndan zorakılıqla məhrum edən bu fövqəlgüc elə öz vətəndaşlarının da normal seçimetmə imkanını minimuma endirib.

Və bu real fikri səsləndirən, konkret faktları təqdim edən insanlar artıq okeanın bu tayında yaşayanlar deyillər. ABŞ-nin seçki sistemini ifşa edən, bu ölkədə demokratiya elementlərinin tam olaraq iflasa uğradığını təsdiqləyənlər elə ABŞ-nin milyonlarla vətəndaşı və onların mövqeyinin tərənnümçüsü olan Donald Trampdır.

ABŞ siyasi sistemi bu şəxsin son 8 ildə qeyri-ciddi obrazını yaratmağa çalışsa da, D.Tramp özünün ciddi siyasi liderlik keyfiyyətlərini, birləşdiricilik xüsusiyyətlərini, Amerika üçün yeni ümid ola bilmək ehtimalını dördillik prezidentliyi ərzində dönə-dönə sübut etdi. O, "mafiyalaşmış dövlət aparatı" dediyi siyasi sistemə qarşı mübarizə apardı. D.Trampın 8 il öncəki qələbəsini dünənki revanşı ilə uğurla təkrarlaması və belə möhtəşəm rəğbət qazanması elə Amerika cəmiyyətinin öz hakimiyyətlərinin siyasətindən, Ağ Evin transmilli korporasiyaların lobbi mərkəzinə çevrilməsindən duyduqları narahatlıqdır. Yəni D.Trampa olan etimad əslində ABŞ-nin xarici və daxili siyasətinə amerikalıların duyduğu etimadsızlıqdır!

Donald Tramp artıq faktiki olaraq ABŞ-nin 47-ci Prezidentidir və gələn ilin 20 yanvarında rəsmən fəaliyyətə başlayacaq. Bəs onun prezidentliyi dünyaya nə vəd edir?

Ağ Ev və onun kimi digər fövqəldövlətlərin təsirlərindən yaxa qurtarmağa çalışan, bu təsirlərə etiraz edən dövlətlərdə və xalqlarda D.Trampa qarşı açıq rəğbət var. Şübhəsiz ki, bunun səbəbi onun öncəki prezidentliyi dönəmində ABŞ-nin bu ölkələrə nisbətən loyal yanaşması, aşkar müstəmləkəçi siyasət yürütməməsi idi.

Əlbəttə, D.Trampın öncəki rəhbərlik vaxtında da ABŞ müstəqil ölkələrdə çaxnaşmalar yaradır, iqtisadi təzyiqlər göstərirdi. Lakin bunlar onun sələfləri və xələfi ilə müqayisədə o qədər az oldu ki, Trampa dünyada indi az qala Azadlıq abidəsinin prototipi kimi yanaşırlar.

### *D.TRAMP:* "Prezident İlham Əliyev haqqında çox xoş sözlər eşitmişəm"

Bəs D.Trampın prezidentliyinin Azərbaycana nə kimi təsiri ola bilər?

Öncə onu qeyd edək ki, onun əvvəlki idarəçilik dönəmində Azərbaycan ikiəsrlik problemini və 30 illik münaqişəni zəfərlə həll etdi. İlham Əliyevin tarixi ədaləti bərpa etməsində xarici faktorlar sırasında D.Trampın tutduğu obyektiv mövqeyi də xüsusi qeyd etməliyik.

Prezident İlham Əliyevin hələ müharibənin gedişində - 2020-ci ilin 25 oktyabrında ABŞ-nin "Fox News" televiziya kanalına müsahibəsində söylədiyi - *"Trampın münaqişənin həlli ilə bağlı gördüyü işlər beynəlxalq münasibətlərə tam uyğundur. Biz bununla bağlı onun mövqeyini, şəxsi fikirlərini tam dəstəkləyirik"* fikirləri həmin dövrdəki gərgin diplomatik situasiyada Ağ Ev rəhbərinin tutduğu ədalətli mövqeyi isbatlayır. *"Biz görürük ki, ABŞ-nin mövqeyi balanslaşdırılmışdır və bu, belə də olmalıdır. Çünki ABŞ vasitəçidir. ABŞ tərəf tutmur. Eləcə də digər həmsədrlər tərəf tutmamalıdırlar. Biz çox böyük erməni icmasının təkcə Amerikada deyil, həmçinin Fransa və Rusiyada daxili siyasətə təsirinin olduğunu, çoxlu lobbiçilik fəaliyyəti ilə məşğul olduğunu, indi Azərbaycan əleyhinə var gücü ilə fəaliyyət göstərdiyini və onların göstərə biləcəyi təzyiqin səviyyəsini başa düşürük. Lakin, eyni zamanda Prezident Trampın açıq siyasəti burada - Azərbaycanda təkcə mənim tərəfimdən deyil, xalqımız tərəfindən də dəstəklənir"*, - deyə Azərbaycan Prezidenti bildirib.

Xalqımız bu mövqeyi ötən illərdə əsla unutmadı və D.Trampın Azərbaycanda daha yüksək nüfuza sahib olması da məhz bundan qaynaqlanır. Lakin bu dövrədək də D.Trampın Azərbaycana və Prezident İlham Əliyevə düzgün dostluq münasibətləri dəfələrlə nümayiş olunmuşdu.

İlk ünsiyyət 2016-cı il noyabrın 17-də Prezident İlham Əliyevin ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Trampa zəngi ilə başladı. Dövlət başçımız Donald Trampı prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ona ali dövlətçilik fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin müxtəlif, o cümlədən siyasi, iqtisadi, təhlükəsizlik, enerji təhlükəsizliyi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün çox böyük potensialın mövcud olduğunu qeyd etdi.

ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev haqqında çox xoş sözlər eşitdiyini söyləyən Tramp dövlət başçımıza fəaliyyətində uğurlar arzuladı, Azərbaycan xalqına salamlarını və ən xoş arzularını çatdırmağı xahiş etdi.

### *Donald Trampdan İlham Əliyevə məktub:* "Sizinlə birgə işləmək əzmindəyəm"

2017-ci ilin may ayında isə D.Tramp yeni siyasi kursuna uyğun olaraq bəzi müsəlman liderləri ilə tanışlıq görüşü təşkil etmək üçün Ər-Riyadda Ərəb-İslam-Amerika Sammiti təşkil etdi. ABŞ Prezidentinin təşəbbüskarı olduğu tədbirə, əslində, islam ölkələrinin yarısından da az liderləri dəvət olunmuşdu. Ancaq dəvətlilər sırasında Azərbaycan Prezidenti İlham Əliyev də var idi.

İki Prezidentin birbaşa görüşü isə 10 ay sonra - 2017-ci ilin sentyabrında baş tutdu. Donald Trampın təşkil etdiyi rəsmi qəbulda Prezident İlham Əliyevlə Mehriban Əliyeva xüsusi qonaqlar statusunda iştirak etdilər.

Münasibətlərin xoş ovqatını göstərən amillərdən biri də prezidentlər arasındakı məktublaşmalar idi. Onlardan bəzilərini xatırlayaq.

Məsələn, 2018-ci ilin 27 aprelində Donald Tramp Azərbaycan İlham Əliyevə məktub göndərir. *"Hörmətli cənab Prezident, Mən Amerika və Azərbaycan xalqları üçün qarşılıqlı maraq doğuran bir çox sahələrdə Sizinlə birgə işləmək əzmindəyəm"* - deyə yazan D.Tramp ardınca qeyd edir: *"Biz Sizinlə birlikdə terrorçuluğun məğlub edilməsində, yeni iş yerlərinin yaradılmasında və Avropanın enerji təhlükəsizliyinin yaxşılaşdırılmasında tərəqqi əldə edə bilərik"*.

Bu məktubun lakonik mətninin mahiyyətində isə həqiqətən də böyük mətləb var idi. Belə ki, ABŞ Prezidenti azərbaycanlı həmkarına açıq dəstəyini bildirir və onunla birgə qlobal problemlərin həllində əməkdaşlığını daha da gücləndirməyə çalışırdı.

### D.Trampdan İlham Əliyevin islahatlarına tam dəstək

Bir ay sonra D.Trampdan yeni məktub gəldi. 2018-ci il mayın 30-da göndərilən məktubda ABŞ Prezidenti hər bir vətəndaşımızda böyük məmnunluq yaradan fikirlər bəyan etdi: *"Azərbaycan indi daha firavan və qlobal iqtisadiyyata bağlı bir ölkədir. Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir. Sizin qaz hasilatınız isə Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəkdir. Enerji layihələrinizin uğurunu möhkəmləndirəcək iqtisadi və hüquqi islahatları davam etdirməyinizi dəstəkləyirəm. Böyük dövlətlərimizin və Qafqaz regionunun daha firavan, dinc və təhlükəsiz olması naminə Sizinlə əməkdaşlıq etmək əzmindəyəm"*.

Bəli, D.Tramp İlham Əliyevə rəğbətini ifadə etdi!

D.Tramp İlham Əliyevin islahatlarını dəstəklədi!

D.Tramp İlham Əliyevin liderliyindəki Azərbaycanı firavan və güclü ölkə kimi səciyyələndirdi!

D.Tramp İlham Əliyevin qlobal enerji təhlükəsizliyi siyasətinə etimadını bildirdi!

D.Tramp Qafqazın gələcəyini İlham Əliyevlə əməkdaşlıqla gördüyünü bəyan etdi!

### *Donald TRAMP:* "İlham Əliyevin liderliyini dəyərləndirirəm"

Azərbaycanla ABŞ, İlham Əliyevlə D.Tramp arasında münasibətlər artıq daha da səmimi və sıx xarakter daşıyır, qarşılıqlı etimad yüksəlirdi.

2019-cu ilin may ayının 24-də dünyanın əsas fövqəlgücü sayılan Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp *"Dövlətlərimiz arasında ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və "Cənub qaz dəhlizi" təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm"*, - deyə İlham Əliyevə yüksək münasibətini ifadə edirdi.

Ardınca isə İlham Əliyevin islahatlar kursuna tam dəstəyini bir daha ifadə edirdi: *"Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayırıq"*.

ABŞ Prezidentinin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində İlham Əliyevin iştirakını təqdir etməsi də mühüm münasibət idi: *"Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik"*.

Maraqlı məqam odur ki, ABŞ Prezidenti Donald Tramp İlham Əliyevlə əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirsə də, bunu yetərli saymır və "tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayıram" diləklərini çatdırırdı.

### *D.TRAMP:* "Azərbaycanın suverenliyini güclü şəkildə dəstəkləyirik"

5 gün sonra yeni məktub gəldi. D.Tramp İlham Əliyevə xitabən *"ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm"* - yazaraq, qeyd etdi ki: *"Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. "Cənub qaz dəhlizi" daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir. Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir. Mən birgə səylərimizlə Cənubi Qafqazın daha da dinc, demokratik və firavan olması üçün əməkdaşlığımızın davamlı olmasını arzulayıram"*.

Göründüyü kimi, Donald Tramp Azərbaycanın və İlham Əliyevin böyük liderlik rolunu qəbul edir, dövlət başçımızın islahatlar kursuna dəstəyini bildirir, ölkəmizin bütün region üçün meyar olduğunu söyləyirdi.

Bu məktublar silsiləsində ən əhəmiyyətlilərindən biri isə heç şübhəsiz ki, Donald Trampın 2020-ci ilin may ayında İlham Əliyevə yazdığı məktubdur.

*"Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir"* - bu cümlə 1991-ci ildən - Azərbaycan müstəqillik əldə etdikdən etibarən ABŞ prezidentlərinin ölkəmizin suverenliyi, yəni ərazi bütövlüyü barədə verdiyi ilk və hələki son rəsmi bəyanat idi!

Bu, mühüm nailiyyət idi və 4 ay sonra baş verəcək savaşda D.Trampın nümayiş etdirdiyi ədalətli mövqenin ilk işartıları oldu.

Birləşmiş Ştatların və Azərbaycanın beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq etdiyini xatırladan D.Tramp bu sahələrdə Azərbaycanın mühüm töhfələrini yüksək dəyərləndirdi.

### Hamı susanda D.Trampa açıq dəstək məhz İlham Əliyevdən gəldi

2020-ci ilin noyabr seçkilərində ABŞ siyasi sistemi D.Trampın timsalında dünya ölkələrinə dost və tərəfdaşlıq təklif edən yeni siyasi kursu "məğlub" etdi. Vətəndaşlarının "sarsaq qoca" adlandırdığı, özündən, danışığından, hərəkətindən xəbərsiz bir başbəlası marioneti prezident kürsüsünə oturtdu.

Beləliklə, dünyanın daha təlatümlü, daha qan-qadalı dövrü başladı, yeni müharibələr alovlandı. Belə təlatümlər fonunda isə D.Tramp əsla unudulmadı və əslində, onun yenidən hakimiyyətə qayıdışı məhz ABŞ ekspansiyasının hədəfi olan xalqların sosial sifarişi, birmənalı istəyi idi.

D.Trampı Azərbaycanda da unutmadılar. Prezident İlham Əliyev də bu qlobal nüfuzlu lider barədə daim ehtiramla danışdı. Faktlara nəzər salaq.

Bu ilin 21 iyulunda Şuşada keçirilən 2-ci Qlobal Media Forumunda dünyada geniş tüğyan edən dezinformasiya, böhtan və yalan informasiyalar bəlasından danışan Prezident İlham Əliyev sabiq amerikalı həmkarını xatırladı: *"President Tramp "Vaşinqton Post"u və "Nyu-York Tayms"ı feyknyus, yəni yalan xəbər mənbəyi adlandırıb. Mən tamamilə onunla razıyam. Mən təkcə bu məsələdə deyil, onun bir çox bəyanatları ilə razıyam. Bu gün ABŞ Prezidenti məhz media tərəfindən hücumların qurbanıdır, ictimai rəyin manipulyasiyasının qurbanıdır"*.

Bu fikirlərinin ardınca Prezident İlham Əliyevə qarşıdakı seçkilərdə hansı namizədin qalib gəlməsini arzuladığı barədə sual gəldi. *"Mən çalışıram, əlimdən gələni edirəm ki, maksimum dərəcədə fikirlərimi səmimi ifadə edim. İstənilən auditoriya qarşısında, istər mətbuat qarşısında və yaxud da Azərbaycan ictimaiyyəti qarşısında keçirilən tədbirlərdə mən heç bir halda yanlış məlumat paylaşmıram. Lakin siyasi mədəniyyət anlayışı var və bu anlayış sizin sualınıza birbaşa cavab verməyə imkan yaratmır. Ancaq sizin sualınız başa düşürəm ki, tamamilə ritorikdir. Biz bir-birimizi onilliklərdir tanıyırıq və tamamilə əminəm, siz də yaxşı bilirsiniz ki, mən kimə üstünlük verərdim. Düşünürəm ki, Azərbaycanda mən bu məsələdə, bu mövqedə yeganə deyiləm"* - əslində, elə bu cümlələrdən İlham Əliyevin D.Trampa dəstəyi məlum oldu.

Prezident sonra daha konkret danışdı: *"Qərarı Amerika xalqı verəcək. Bu, onların prezidentidir. Lakin, eyni zamanda bu, bütün dünya üçün xüsusi əhəmiyyətə malikdir. Çünki bir çox xalqların və ölkələrin taleyi böyük dərəcədə Birləşmiş Ştatların birinci şəxsinin verəcəyi qərarlardan asılı olacaq. Mənim fikrimcə, Prezident Trampın hələ də davam edən kampaniya zamanı səsləndirdiyi mühüm tezislərdən biri də odur ki, onun vaxtında heç bir müharibə olmayacaq. Onun hakimiyyəti dövründə Amerika müharibələrə başlamadı, Vyetnam, Koreya, Yuqoslaviya, Əfqanıstan, Liviya, İraq, Suriya və necə deyərlər, onların davamı olmadı. Bax bu müddət ərzində onların heç biri baş vermədi. Ancaq buna, yəqin ki, böyük hörmətlə yanaşmağa dəyər"*.

Bəli, bütün Avropa liderləri D.Trampın məğlubiyyətini arzuladıqlarını açıq etiraf edəndə, hətta Fransa Prezidenti Makron onu məsxərəyə qoyanda, MDB və digər Asiya, Afrika ölkələrinin rəhbərləri Bayden-Harris cütlüyünə dəstəyini aşkar bildirəndə, fərqli mövqeyi cəmi 3-4 lider bildirdi.

Bütün dünyada D.Trampa açıq dəstəyini bildirən 3-4 prezident sırasında İlham Əliyev də var idi!

Yaxud ABŞ siyasi sistemi D.Trampa qarşı terror təşkil edəndə yenə də dünya liderləri arasında ilk etirazını bildirən məhz İlham Əliyev oldu. Azərbaycan Prezidenti "X" platformasında öz rəsmi səhifəsində kəskin mövqeyini ifadə etdi: *"Prezident Trampa qarşı edilən hücum şok və dəhşət doğurur. Biz bu siyasi zorakılıq aktını şiddətlə qınayırıq. Prezident Trampın tezliklə sağalmasını arzu edirik"*.

D.Tramp haqsızlığa uğrayanda, hamı ondan üz döndərdi, ancaq İlham Əliyev dəstək oldu!

D.Tramp terrora məruz qalanda, hamı susdu, yalnız İlham Əliyev danışdı!

### D.Trampa ən səmimi təbrik İlham Əliyevdəndir

İndi bütün dünya liderləri D.Trampı təbrik üçün sıraya düzülüblər. Dünənədək onu "qlobal bəla", "qeyri-ciddi adam", "təlxək" adlandıran böyüklü-kiçikli az qala 150 dövlətin rəhbəri artıq ritorikalarını dəyişiblər.

Və Tramp yenə oldu "dost", "tərəfdaş", "müttəfiq"…

D.Trampa göndərilən təbrik məktubları sırasında ən səmimisi isə heç şübhəsiz ki, Prezident İlham Əliyevə məxsusdur: *"Siz birinci prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığımızın davamlı və ardıcıl inkişafına böyük diqqət ayırırdınız. Məmnunluqla qeyd etmək istərdim ki, bu dövr ərzində qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlığımız, o cümlədən bir sıra mühüm sahələrdə, xüsusilə də qlobal çağırışlara və terrorizmə qarşı mübarizədə, beynəlxalq sülhün və təhlükəsizliyin gücləndirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində birgə fəaliyyətimiz dinamik və yüksələn xətt üzrə inkişafı ilə səciyyələnirdi. Azərbaycanın enerji strategiyasına Sizin daim qətiyyətli dəstəyinizi xüsusi qeyd etmək istərdim"*.

İlham Əliyev Ağ Evin məkrli, rəzil siyasəti sayəsində son 4 ildə tam korlanan ABŞ-Azərbaycan münasibətlərinin yeni dövrdə əvvəlki yüksək səviyyəsinə qayıdacağına inamlıdır: *"Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, "yaşıl" və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik. İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır. Azərbaycan bundan sonra da Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir. Əminəm ki, Azərbaycan-ABŞ dostluq münasibətlərinin güclənməsi, ölkələrimizin milli maraqları, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda bundan sonra da birgə səylər göstərəcəyik"*.

Ümid edirik ki, ABŞ-Azərbaycan münasibətləri yanvar ayından yeni səhifədən yazılmağa başlayacaq…

Bunun üçün tarixi təcrübə və hər iki liderin qətiyyəti var!

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 474 **QƏRAR** Bakı şəhəri, 6 noyabr 2024-cü il

## "Naftalan" Kurortu haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında

"Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 308 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Naftalan" Kurortu haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 475 **QƏRAR** Bakı şəhəri, 6 noyabr 2024-cü il

## "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1170-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1170-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli 115 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 315 (Cild I); 2024, № 1, maddə 73; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) 1-ci hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1000 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları"nın 10.1.8-ci və 11.1.7-ci yarımbəndlərinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 10.1.9-cu və 11.1.8-ci yarımbəndləri ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Baş prokuror Çin nümayəndə heyəti ilə görüşüb



**Noyabrın 6-da baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Çin Xalq Respublikasının Kommunist Partiyasının İntizam Təftişi üzrə Mərkəzi Komissiyası Katibinin müavini və Milli Nəzarət Komissiyasının sədr müavini Lyu Suesinlə görüşüb.**

Qonağı salamlayan baş prokuror dövlətlər arasında dostluq və əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edərək, müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyevin, hazırda isə Prezident cənab İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyini vurğulayıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinin tarixi əhəmiyyətini vurğulayan Kamran Əliyev noyabrın 15-də Baş Prokurorluq tərəfindən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksəksəviyyəli plenar iclasın təşkil olunacağı barədə qonağa məlumat verib.

Lyu Suesin səmimi qəbula görə minnətdarlığını ifadə edərək korrupsiya ilə mübarizə sahəsində ölkəmizdə həyata keçirilən islahatları yüksək qiymətləndirib, bu sahədə prokurorluğun rolunu xüsusilə qeyd edib. Qonaq Azərbaycan Respublikasının Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəklədiyini vurğulayaraq təşəkkürünü bildirib.

Daha sonra tərəflər qurumlar arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri, eləcə də əməkdaşlıq haqqında anlaşma memorandumunun imzalanması barədə fikir mübadiləsi aparıblar.

# ESG üzrə vahid platformanın və milli standartın təqdimatı ilə bağlı konfrans keçirilib

**Bakıda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, ABB və "Azercell Telecom" MMC-nin dəstəyi ilə ekoloji, sosial və korporativ idarəetmə (ESG) üzrə vahid platformanın və milli standartın təqdimatı ilə bağlı konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransda dövlət qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri və sahibkarlar iştirak ediblər.

Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, KOBİA-nın İdarə Heyətinin sədri, komissiyada ESG üzrə altqrupun da təmsil olunduğu "Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət" işçi qrupunun rəhbəri Orxan Məmmədov, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva ESG-nin əhəmiyyəti, ətraf mühitə təsiri, ESG-nin sosial tərəfləri, bu prinsiplərin tətbiqinin dayanıqlı və davamlı inkişafa təsiri, özəl sektor üçün faydası və bu sahədə beynəlxalq təcrübə barədə fikirlərini bölüşüblər.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin baş məsləhətçisi Gülnaz Cavadova ESG üzrə vahid platformaya (https://esg-hub.az/) və Azərbaycan Standartlaşdırma İnstitutunun Baş direktoru İlham Bayramov ESG üzrə milli standarta dair təqdimatlarla çıxış edib, BMT Azərbaycanın Tərəfdaşlıq və inkişaf məsələləri üzrə məsul şəxsi Ülviyyə Əkbər "29 iqlim söhbətləri: COP29-a gedən yol və ESG platformasının ideyası" barədə məlumat verib.

Vurğulanıb ki, ESG üzrə vahid platforma daim yenilənən və ESG ilə əlaqəli hərtərəfli məlumat və materialları birləşdirən resurs mərkəzi rolunu oynayacaq. Platforma bizneslərin cari vəziyyəti, dayanıqlılığı, ESG hesabatlılığı üzrə indikator və məlumatları təmin etməklə xarici investorların cəlb edilməsinə xidmət edəcək. Tərəfdaşlar ESG ilə əlaqəli xidmətlərini bu platforma üzərindən biznes subyektlərinə, bizneslər isə ESG üzrə təcrübəli mütəxəssis və peşəkar şirkətlərə çıxış imkanı əldə edəcəklər. Platforma ətraf mühit və dayanıqlı inkişaf məsələlərinə, beynəlxalq reytinqlərdə ekoloji performansla bağlı göstəricilərə müsbət töhfə verəcək. Azərbaycanın COP29-a evsahibliyi etməyə hazırlaşdığı ərəfədə istifadəyə verilən ESG üzrə vahid platforma həm də ölkənin ekoloji dayanıqlılığa sadiqliyini bir daha nümayiş etdirir.

Konfransda qeyd olunub ki, ESG üzrə milli standart KOBİA-nın təşəbbüsü ilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya çərçivəsində Beynəlxalq Standartlaşdırma Təşkilatının tövsiyələrinə əsasən hazırlanıb və bu yaxınlarda Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən qəbul olunub. "AZS IWA 48:2024 "Ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqi üzrə çərçivə" dövlət standartı müvafiq sahədə qəbul olunmuş ilk təcrübələrdən hesab edilir. Yeni dövlət standartı müəssisə və təşkilatlarda ESG prinsiplərini tətbiq etməklə müasir biznes mühitində dayanıqlı inkişafı dəstəkləmək və sosial məsuliyyəti təşviq etmək üçün çərçivə təqdim edir. Standartın məqsədi müəssisə və təşkilatlara ESG strategiyalarını formalaşdırmaqda və həyata keçirməkdə kömək etməkdir. Bu standartın tətbiqi dövlət və özəl sektorda dayanıqlı inkişafı dəstəkləməklə yanaşı, müştəri məmnuniyyətini artırmaq, riskləri azaltmaq və sosial məsuliyyətin artırılması baxımından müsbət təsir göstərəcəkdir. Standartın tətbiqi könüllü xarakter daşıyır.

Tədbir öz işini "Daha yaşıl gələcəyin qurulması: ESG platforması və prinsiplərinin effektiv həyata keçirilməsi üçün strategiyalar" mövzusunda panel müzakirələrlə davam etdirib, iştirakçıların sualları cavablandırılıb.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



**Məzahir Pənahovun sədrliyi ilə noyabrın 6-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Seçki Məcəlləsinin tələblərinə uyğun qaydada noyabrın sonunadək elan olunması nəzərdə tutulan bələdiyyə seçkilərinə hazırlıqlar barədə məlumat verilib. Sonra komissiyanın oktyabrın 3-də keçirilən iclasının protokolu təsdiq edilib.

İclasda daha sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunması məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsinin ardınca 5 saylı Babək-Naxçıvan-Culfa, 21 saylı Nəsimi-Binəqədi, 41 saylı Gəncə-Samux-Goranboy, 78 saylı Lənkəran kənd, 83 saylı Beyləqan və 103 saylı Şəmkir kənd seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişikliklər edilib.

Media subyektləri nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin cari məsələlərə də baxılıb.

# Gəncədə Zəfər Gününə həsr edilmiş elmi-praktik konfrans keçirilmişdir

**Azərbaycan Texnologiya Universitetində keçirilən konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Azərbaycan Texnologiya Universitetinin rektoru Yaşar Ömərov, Elm və Təhsil Nazirliyinin şöbə müdiri Turxan Süleyman, "AzerGold" QSC-nin İdarə Heyəti sədrinin müavini Anar Abdullayev və universitetin müəllim-tələbə heyəti iştirak etmişlər.**



Konfrans universitetin ərazisində yerləşən Şəhidlər abidəsinin və universitetin foyesində Ümummilli Lider Heydər Əliyevin büstünün ziyarəti ilə başlamışdır. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş və Ulu Öndər Heydər Əliyevin, o cümlədən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Konfransda ŞİH-in başçısı Niyazi Bayramov çıxış edərək 30 ildən çox işğal altında qalan torpaqlarımızın Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin və rəşadətli Azərbaycan Ordusunun gücü ilə cəmi 44 gün ərzində azad edildiyini diqqətə çatdırmış və bildirmişdir ki, 2023-cü ilin sentyabr ayında keçirilən antiterror əməliyyatında suverenliyimiz tamamilə bərpa olunmuşdur. Azərbaycan Texnologiya Universitetində təşkil olunmuş tədbirin Zəfər tariximizə həsr edildiyini vurğulayan ŞİH-in başçısı konfransın işinə uğurlar arzulamışdır.

Sonra universitetin rektoru Yaşar Ömərov çıxış edərək zəfərin qazanılmasında xalq-dövlət-ordu birliyi ilə bərabər, yüksək texnologiyaların rolundan danışmış, işğaldan azad olunmuş ərazilərdə "ağıllı kənd" və şəhər konsepsiyası əsasında aparılan quruculuq işlərində əks olunan müasir texnoloji trendləri vurğulayaraq konfransın mövzusunun aktuallığına diqqət çəkmişdir.

İki gün davam edən elmi-praktik konfransda qida mühəndisliyi və texnologiyaları, süni intellekt, elektronika və informasiya texnologiyaları, tekstil və yüngül sənaye, dizaynda innovativ texnologiyalar, maşınqayırma, nəqliyyat və logistika, metallurgiya mühəndisliyi, rəqəmsal iqtisadiyyat və idarəetmə, turizm sənayesinin təşkili, ətraf mühit, təhlükəsizlik və dayanıqlı inkişaf, fundamental elmlər və innovativ texnologiyalar, multikultural təhsildə innovativ texnologiyalar mövzularında məruzələr dinlənilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## QƏRAR № 47/231

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 3 oktyabr tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 3 oktyabr tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*06.11.2024*

## QƏRAR № 47/232

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Təbəssüm Dağlar qızı Zamanova 21 saylı Nəsimi - Binəqədi, Əmrah Eldəniz oğlu Cəfərov 41 saylı Gəncə - Samux - Goranboy, Məzahir Xanağa oğlu Əliyev 78 saylı Lənkəran kənd, Rövşən İsa oğlu Vəliyev 103 saylı Şəmkir kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Cahangir Əkbər oğlu Seyidov 5 saylı Babək - Naxçıvan - Culfa, Akif Qüdrət oğlu Abbasov 21 saylı Nəsimi - Binəqədi, Rövşən İsa oğlu Vəliyev 41 saylı Gəncə - Samux - Goranboy, Cavid Hüseyn oğlu Binnətov 83 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*06.11.2024*



# Əbədi yaşayacaq ZƏFƏR

**Şuşa şəhərinin düşmən işğalından azad edildiyi 2020-ci il 8 noyabr tarixindən dörd il keçir. İllər ötsə, nəsillər dəyişsə də, Şuşa zəfəri haqqında daha çox yazılacaq, çünki insanlar şahidi olduqları, gördükləri böyük tarixi əhəmiyyətli hadisə və proseslərin miqyasını və əhəmiyyətini bəzən bütün dərinliyi ilə zamanında dərk edə bilmirlər. Hər il 8 Noyabr qeyd edildikcə onun millətin həyatındakı yeri daha çox qiymətləndiriləcək.**

## Qətiyyət və nəticəsi

1992-ci ilin mayında təcavüzkar Ermənistan tərəfindən Şuşa şəhəri işğal edildikdən sonra uzun illər Azərbaycan xalqı belə bir həsrət və ümidlə yaşayırdı: Şuşa nə zaman təcavüzkar Ermənistanın işğalı altından azad ediləcək? Bu, mümkün olacaqmı? İllər ötdükcə insanlarda ümidlər azalırdı.

Nəhayət, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qərar verdi. 2020-ci il sentyabrın 27-dən başlayan və millətin yüksək əhvali-ruhiyyə ilə qoşulduğu Vətən müharibəsinin noyabrın 8-də Zəfərlə tamamlanması bu həsrətə son qoydu. Həmin gün Azərbaycan tarixi və mədəniyyətində özünəməxsus yeri olan Şuşa şəhəri düşmən işğalından xilas edildi.

## Müzəffər Ali Baş Komandanın qələbə xəbəri və millətin sevinc göz yaşları

Vətən müharibəsi günlərində Azərbaycan xalqı hər axşam televiziya ekranları qarşısında oturub Prezident İlham Əliyevin növbəti qələbə xəbərini eşitmək istəyir, Şuşanın azad edilməsi müjdəsinin verilməsini gözləyirdi. Nəhayət, həmin an gəldi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 8-də Fəxri xiyabanda və Şəhidlər xiyabanında oldular. Əvvəlcə, Fəxri xiyabanda Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsinə ehtiram bildirdilər, abidənin önünə əklil qoydular. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Dövlət başçısı və xanımı görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarları üzərinə çiçək dəstələri düzdülər.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanına gələrək Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etdilər, məzarlarına çiçək dəstələri düzdülər. Dövlət başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət edərək millətin uzun illər boyu həsrətində olduğu şad xəbəri verdi, Şuşa şəhərinin işğaldan azad edildiyini bəyan etdi:

*"Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!*

*Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.*

*İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".*

Dövlət başçısı uzun illər boyu davam edən danışıqların heç bir nəticə vermədiyini, əzəli tarixi torpaqlarımızın işğal altında qaldığını, danışıqlar prosesində Ermənistanın vaxt udmaq, status-kvonu möhkəmləndirmək və əbədi etmək istədiyini dedi. Bu illər ərzində dəfələrlə müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar vəziyyətlə barışmağa təhrik etmək istəsə də, Azərbaycan dövləti qətiyyət, cəsarət, siyasi iradə göstərərək milli maraqlara cavab verməyən heç bir razılaşmaya getmədi. Azərbaycanın başlıca məqsədi ərazi bütövlüyünü təmin etmək idi. Qələbənin Azərbaycan hərbçisinin qanı və canı bahasına qazanıldığı barədə Prezident dedi: "Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! ...Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!"

Azərbaycan xalqının tarixində müstəsna yeri olan Şuşa şəhəri 28 ildən çox işğal



altında qalmışdı. Azərbaycanlılar əsrlər boyu Şuşada yaşamış, bu şəhəri qurmuş və yaratmışdılar. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisi idi. Ancaq düşmən Şuşanı işğal altında saxlamaqla Azərbaycanın maddi və mənəvi irsinə böyük zərbə vurmuş, tarixi abidələri, məscidləri dağıtmış və təhqir etmişdi. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev bildirdi: "Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır".

Dövlət başçısının qələbə xəbəri millət sevinc göz yaşlarına qərq etdi. İnsanlar əllərində bayraq küçələrə axışdılar, tanıyan da, tanımayan da bir-birini təbrik etdilər. Millət sanki xoşbəxtlik dənizində üzürdü.

## 8 Noyabr Zəfərinin başlıca səbəbləri və ya gələcəyimizin düsturu

Prezident İlham Əliyev çıxışında qələbəyə gətirən və gənc nəsillərin bilməsi vacib olan başlıca amillərin üzərində dayandı. Birincisi, qələbədə iqtisadi güc müstəsna rol oynamışdı: "Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqillik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda ordumuzu gücləndirək. Biz ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik?"

İkincisi, qələbənin qazanılmasında milli birlik və siyasi iradə başlıca rol oynamışdı. Ölkə daxilində uğurlu siyasətin aparılması nəticəsində Azərbaycan dünya üçün nadir inkişaf modelini yaratmışdı. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşmək əlavə güc yaratmış, bəzi mənfur xarici dairələrin çirkin planlarının Azərbaycanda həyata keçirilməsinin qarşısı alınmışdı. Qusardan Astaraya, Naxçıvandan Ağstafaya qədər bütün şəhər, rayon, qəsəbə və kəndlərdən vətəndaşlar tək bayraq altında tək millət kimi birləşərək dövlət, vətən uğrunda azadlıq müharibəsinə çiyin-çiyinə getmişdilər. Dövlət başçısı bu barədə danışaraq bildirdi: "Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi".

Üçüncüsü, qələbənin qazanılmasında səmərəli xarici siyasət xüsusi yer tutmuşdu. Azərbaycan diplomatiyası və digər qurumlar dövlət başçısının müəyyənləşdirdiyi xətti uğurla həyata keçirmişdi. Ermənistanın işğal altında saxladığı ərazilərin Azərbaycanın tarixi torpağı olduğu, ermənilərin bu ərazilərə sonradan gəlmələri rəsmi fakt və sənədlərin əsasında dünyada sübut edilmiş və beynəlxalq təşkilatlar tərəfindən müvafiq qətnamələr qəbul edilmişdi. Dövlət başçısının ardıcıllıqla həyata keçirilən səmərəli xarici siyasəti milləti qələbəyə çatdırmışdı. Prezident bununla əlaqədar olaraq dedi: "Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır".

Qonşu dövlətlərlə mehriban və səmimi münasibətlərin qurulması qələbənin qazanılmasına müsbət təsir etmişdi. Bunu dövlət başçısı belə bəyan etdi: "Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi".

Azərbaycan dövlətinin yürütdüyü uğurlu xarici siyasət fəaliyyəti nəticəsində işğalçı Ermənistan dalana dirənmişdi. Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın rəhbərliyi altında Bakıda keçirilən dinlərarası, sivilizasiyalararası dialoq forumları, İtaliya, Fransa, Vatikan və başqa ölkələrdə kilsələrin təmiri Ermənistanın uydurma təbliğatını puça çıxarmışdı. Həyata keçirilən beynəlxalq layihələr Azərbaycanın mövqelərini möhkəmləndirmiş, Ermənistanı təcrid vəziyyətinə salmışdı. Prezident dedi: "...biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi".

Dördüncüsü, qələbənin qazanılmasının mühüm amillərindən biri güclü ordunun qurulması və müdafiə sənayesinin yaradılması olmuşdu. Azərbaycan dövləti hərbçisinə xüsusi qayğı göstərmişdi.

Tarixə qısa nəzər yetirən Prezident İlham Əliyev 1992-ci ildə Şuşa şəhərinin təcavüzkar Ermənistanın işğalı altına düşməsinin səbəblərini belə izah etdi: "Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz demək olar ki, təcrid edilmiş vəziyyətdə idik".

Heç də asan olmayan bu proseslərdən danışan dövlət başçısı vurğuladı: "Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar... Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı... Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik".

Beşincisi, Azərbaycan hərbçisinin qəhrəmanlığı sayəsində Şuşa şəhəri düşmən tapdağından qurtulmuşdu. Dağlardan, sıldırım qayalardan keçən və ağır texnikadan istifadə etməyən Azərbaycan əsgəri əlbəyaxa savaşda Şuşa şəhərini azad etmişdi. Döyüş meydanında Azərbaycan əsgəri qəhrəmanlıq göstərmişdi. Bununla əlaqədar olaraq ölkə rəhbəri bildirdi: "Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir".

Altıncısı, qələbənin qazanılmasında Prezident, Ali Baş Komandan İlham Əliyevin şəxsiyyət amili, qəti iradəsi, prinsipial mövqeyi, mahir diplomatiyası, üstün zəkası və sərkərdəlik məharəti başlıca rol oynamışdı. Şuşa şəhərini işğaldan azad edən əsgər dünyanın ən güclü əsgəri, həmin orduya rəhbərlik edən Ali Baş Komandan isə dünyanın ən qüdrətli sərkərdəsidir. Dövlət başçısı dediyi bütün sözlərinin üstündə dayanmışdı. Qətiyyətlilik zəfərə gətirmişdi. Prezident bildirdi: "...işğalçılara deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki gec deyil... Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin - düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik".

İşğal illərində düşmən hər yeri dağıtmış və xarabalığa çevirmişdi. Ölkə rəhbəri müharibənin gedişi və işğaldan azad edilmiş ərazilərdəki mövcud vəziyyət barədə dedi: "Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri".

Prezident İlham Əliyev bütün anti-Azərbaycan qüvvələrin fövqündə dayanaraq milləti toparlayaraq, ondan güc alaraq qələbənin memarı oldu. Nəhayət, qələbənin qazanılmasında millətin dövlət rəhbərinə böyük inam və etimadı mühüm rol oynamışdı. Millətin dövlət rəhbərinə inam və etibarı isə öz-özündən deyil, liderinin gördüyü işlərdən, millət sevgisindən yaranır. Dövlət başçısı gücünü millətdən alırdı. Prezident müraciətinin sonunda vurğuladı: "Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim... Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, "dəmir yumruq"dur. Bu "dəmir yumruq"la düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

## Ata vəsiyyətinin yerinə yetirilməsi, şəhidlərin ruhunun şad edilməsi

Şuşa şəhərinin azad edilməsi ilə şəhidlərin ruhu şad oldu. Onları ehtiramla yad edən Prezident İlham Əliyev vurğuladı ki, şəhidlərin, erməni vəhşiliyinin, Xocalı qurbanlarının qanı yerdə qalmadı, intiqam döyüş meydanında alındı.

Dövlət başçısı atası Heydər Əliyevin ona etdiyi vəsiyyəti yerinə yetirdiyini də millətə çatdırdı: "Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

## Şuşa şəhərinin qurtuluşunun əhəmiyyəti

Şuşa şəhərinin azad edilməsi böyük tarixi əhəmiyyət daşıyırdı. Şəhər dünya mədəniyyəti yaradan Azərbaycan milləti üçün təkcə ərazi, torpaq məsələsi deyil, xüsusi məna kəsb edirdi. Hər şeydən əvvəl, Azərbaycan mədəniyyətinin beşiklərindən biri, dünyaya görkəmli mədəniyyət xadimləri bəxş etmiş Şuşa şəhərinin azad edilməsinin milli-mənəvi əhəmiyyəti var idi. 9 Noyabr Dövlət Bayrağı Günü ərəfəsində şəhərin azad edilməsi qürurvericiydi. Şuşanın işğaldan qurtarılmasının strateji və siyasi əhəmiyyəti də var idi. Mühüm strateji mövqedə yerləşən Şuşa şəhəri Qarabağın açarı və tacıdır. Şuşanın azad edilməsi işğalçı ölkənin belinin qırılması, Azərbaycan qarşısında diz çökməsi və üçtərəfli Bəyanatı imzalaması oldu. 8 noyabrda millətin ümidləri, xəyalları gerçəkləşdi, üstündəki ləkə silindi, qaməti düzəldi, digər ərazilərin də azad ediləcəyinə inamı artdı.

Azərbaycan Ordusunun Şuşa şəhərini işğaldan azad etdikdən sonra müvəqqəti dayanması gələcək qələbələrə hazırlıq idi. Azərbaycan Ordusunun bundan sonrakı fəaliyyəti barədə danışan Prezident vurğuladı: "Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edəedə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq - mənəvi ruh, güc hesabına, birlik hesabına!

...İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu, bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir".

## İbrət dərsləri

1992-ci ildə Şuşanın təcavüzkar Ermənistan tərəfindən işğal edilməsi, 2020-ci ildə isə şanlı Azərbaycan Ordusu tərəfindən azad olunması bir sıra ibrət dərsləri verir. Şuşa şəhəri ölkəmizdə xaos, anarxiya, dövlət hakimiyyətinin qanadları arasında intriqalar, ölkəyə rəhbərlik edənlərin zəif, səriştəsiz olduğu zaman işğal edilmişdi.

*Şuşa şəhəri ölkəmizdə sabitlik, ciddi qayda-qanun, güclü dövlət, qüdrətli dövlət rəhbəri olanda, millət tək bayraq altında birləşəndə işğaldan xilas edildi. Deməli, Azərbaycan millətinin bundan sonrakı bütün inkişafının və qarşıya qoyduğu hədəflərə çatmasının təməlində məhz bu amillər dayanır.*

**Musa QASIMLI,**
***Milli Məclisin Sədr müavini***



**Tariximizin ən şanlı səhifəsi olan Böyük Qələbəmizin dördüncü ildönümünün qürurunu, fəxarətini yaşamaqdayıq...**

**Bu, elə sevincdir ki, elə iftixardır ki, bəlkə də hər xalqa tarixində bu hissləri yaşamaq nəsib olmur...**

**Tarixi qələbədən illər ötdükcə isə onun böyüklüyü, əzəməti daha aydın görünür.**

# Qalibiyyət salnaməsi

Hazırda Azərbaycan xalqı məhz bu mərhələnin içərisindədir və geriyə boylanıb 4 il öncə yaşananları nəzərdən keçirəndə heyrətlənməyə bilmirsən...

Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı qüdrətli ordu cəmi dörd il əvvəl Zəfər yürüşü ilə 44 günə 200 illik münaqişəyə, 30 illik işğala son qoyub, "böyük Ermənistan" xülyasının üstündən birdəfəlik xətt çəkib.

Məhz buna görə İkinci Qarabağ müharibəsindəki böyük Qələbə Azərbaycan tarixinin ən şanlı səhifəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin şah əsəri kimi qiymətləndirilməlidir.

## 17 illik zəhmətin bəhrəsi

Bugünkü tariximizdən dünənimizə boylananda nə qədər böyük və qətiyyətli yol keçdiyimizi indi daha da aydın görürük.

Deyirlər ki, keçmişini unudan xalqın gələcəyi olmaz və ya keçmişini unudan xalqlar gələcəkdə böyük faciələr yaşayıblar. Azərbaycan xalqı ona görə qələbəyə nail oldu ki, keçmişini heç zaman unutmadı, yaşadığı məşəqqətləri yaddan çıxarmadı. 30 il işğala, təzyiqə, təhdidə məruz qalaraq dözdü, səbir etdi...

Tarixi Qələbə Azərbaycan xalqının milli dəyərlərə söykənən böyük potensialını üzə çıxardı. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil iki əsrdə yoluna qoyulması mümkün olmayan münaqişəni "dəmir yumruğ"un zərbəsi ilə cəmi 44 günün içində həll etdi. BMT tarixində bu, ilk haldır ki, belə mötəbər beynəlxalq qurumun qətnamələrini işğala məruz qalan tərəf özü hərbi yolla icra etdi.

Bunun üçün isə Azərbaycanı Zəfərə aparan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə cəmi 17 il kifayət etdi.

2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamçısı cənab İlham Əliyevə etimad mandatı verərək onu Azərbaycan Respublikasının Prezidenti seçdi.

Prezident İlham Əliyev əlini Qurani-Kərimə basaraq and içəndə dedi ki, Azərbaycan torpaqları işğal altından azad ediləcək. Bu xalq işğalla heç vaxt barışmayacaq.

Fəaliyyətə başladığı andan bu müqəddəs amal uğrunda - işğal altında qalan torpaqlarımızı azad etmək üçün yorulmadan, usanmadan çalışdı. Dövlət başçısının gərgin əməyinin, güclü və düşünülmüş siyasətinin nəticəsində Azərbaycan ilk növbədə müstəqil siyasət yürütməyə başladı. Sözü imzası qədər keçərli olan cənab İlham Əliyev Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıtdı. Enerji sektorundan gələn gəlirləri insan kapitalına çevirdi. Vaxtilə əhalisinin tələbatını ödəmək üçün xaricdən enerji idxal edən ölkədən ixracatçısına çevirdi. Bütün bunlarla yanaşı, Azərbaycan həqiqətlərini dünyaya tanıtdı, Ermənistanın işğalçı dövlət olduğunu faktlarla, sübutlarla dünyaya çatdırdı.

Bütün sahələrdə aparılan islahatlar Silahlı Qüvvələrdə də reallaşdırıldı. Azərbaycan Ordusunun arsenalı get-gedə modernləşdirildi. Azərbaycan Silahlı Qüvvələri dünyanın ən müasir silahları ilə təchiz edildi.

Azərbaycan münaqişə dövründə bütün nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq etdi və münaqişənin həlli üçün hüquqi baza yaratdı. BMT-nin beynəlxalq təşkilatlarla Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və bir sıra beynəlxalq qurumlarda qətnamələr qəbul edildi.

Mütləq qələbəyə nail olunması üçün isə cənab İlham Əliyevə cəmi 17 il lazım oldu. 17 il ərzində Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq, özünün hər addımı ilə bizi qalibiyyətə - 8 noyabr Zəfərinə apardı və 2020-ci ildə çoxlarının inanmadığı, xəyalına belə gətirmədiyi tarixi hadisələr yaşandı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli ordusu Azərbaycan xalqının 30 illik həsrətinə son qoydu. Azərbaycan xalqı öz liderinin, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında sıx birləşərək bütün dünyaya öz gücünü, mübarizliyini nümayiş etdirdi. 44 gün ərzində Azərbaycan Ordusunun əsgər və zabitləri böyük şücaət və qəhrəmanlıq göstərdi, döyüşlər zamanı bir addım belə geri çəkilmədi. Əsgərlərimiz və zabitlərimiz torpaqlarımız və dövlətimiz naminə canlarını, qanlarını əsirgəmədilər. Azərbaycan xalqı həmişə olduğu kimi, müharibə zamanı da öz Prezidentinə inandı. Xalqımız cənab İlham Əliyevin ətrafında sıx birləşdi və bu vəhdət "dəmir yumruğ"a çevrildi. Elə bir yumruğa çevrildi ki, onu açmağa kiminsə nə gücü, nə də qüdrəti çatdı...



Prezident İlham Əliyevin hərb meydanında Müzəffər sərkərdə olması ilə yanaşı, diplomatik cəbhədə də böyük diplomat və güclü siyasətçi olması öz təsdiqini tapdı. Dövlət başçımız 44 gün ərzində informasiya sahəsində Azərbaycan xalqının haqq səsi cəsarətlə, qətiyyətlə bütün xarici təzyiqlərə sinə gərdi və mübarizlik rəmzinə çevrildi. 2020-ci il noyabrın 8-də Şuşada bayrağımızın dalğalanması isə Zəfərimizin nidası oldu.

## Şanlı Zəfər antiterror tədbirləri üçün mayak oldu

Şuşanın azadlığından sonra Ermənistan yalvararaq ağ bayraq qaldırdı. Hansı ki iki ay öncə "Qarabağ Ermənistandır və nöqtə" deyən Nikol Paşinyan cənab İlham Əliyevə etdiyi yalvarışdan sonra savaş dayandı.

Noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan arasında üçtərəfli Bəyanat imzalandı. Bu sənədə əsasən, tərəflər üzərilərinə öhdəliklər götürdü. Hər zamankı kimi bəlli idi ki, Ermənistan yenə də heç bir öhdəliyi yerinə yetirməyəcək. Elə bu faktın özü Azərbaycana istədiyini reallaşdırmağa real imkan yaratdı.

Çünki öhdəliklərin yerinə yetirilməsi tələb idi. Əlbəttə ki, regionda yaranan yeni reallıqlara uyğun siyasət yürüdən Prezident İlham Əliyev Azərbaycanın öz öhdəliklərinə sadiq qaldığını əməlləri ilə bir daha nümayiş etdirdi. Həmçinin savaşda qalib olmasına baxmayaraq, yenə də humanist siyasətini nümayiş etdirməklə məğlub Ermənistana qurtuluş yolu göstərdi. Bu, iki tərəf arasında sülh müqaviləsinin imzalanması idi...

Özünü dünyaya hər zaman məzlum xalq kimi göstərib altdan-altdan əsl erməni xislətini yürüdən məğlub ölkə bu prosesdə də öz xeyrinə işlər çevirməyə cəhd etdi.

Belə ki, Hayastan rəhbərliyi öncə sülh müqaviləsini imzalamağa hazır olduğunu, hətta Qarabağı Azərbaycan torpağı kimi tanıdığını etiraf etməklə gözdən pərdə asmağa çalışdı. Bütün bunların da bir səbəbi vardı - vaxt qazanmaq, yenidən toparlanıb Azərbaycanla savaşa başlamaq.

Amma hər zaman uzaqgörən siyasətçi kimi Prezident İlham Əliyev Ermənistana bu xülyasını da gerçəkləşdirməyə imkan vermədi. Azərbaycan Prezidenti çox yaxşı bilirdi ki, Ermənistan yalnız sözdə sülh müqaviləsini bağlamağa hazır olduğunu deməklə hansı işlər çevirməyi planlaşdırır. Ona görə də savaşdan ötən müddət ərzində cənab İlham Əliyev etdiyi bütün çıxışlarda Ermənistana, Qarabağdakı qondarma separatçılara və bu qüvvələrə dəstək verməyə çalışan havadarlarına xəbərdarlıqlar ünvanlayırdı. Dəfələrlə bu xəbərdarlıqlar edilməsinə baxmayaraq, qondarma rejim müxtəlif yollarla xaricdən pulsuz verilən silah-sursatları Qarabağa daşımaqda davam etdi. Dəfələrlə hərbi təxribatlar törətdi. Amma hər dəfə layiqli cavabını alaraq geri çəkildi.

Azərbaycan Ordusunun həyata keçirdiyi "Qisas", "qətiyyətli cavab əməliyyatı" nəticəsində hər iki tərəf itki versə də ən ağır zərbəni yenə Ermənistan aldı. Bütün bunlar Azərbaycanı öz sərhədlərini daha da möhkəmləndirməyə və ərazi bütövlüyünü təmin etməyə sövq etdi.

2023-cü il aprelin 23-də daha bir tarixi hadisə yaşandı. Azərbaycan Laçın rayonunda sərhəd-buraxılış məntəqəsi yaratmaqla sərhəd və ərazi bütövlüyünü təmin etdi.

Əlbəttə ki, bu proses Ermənistanın böyük havadarlarını narahat etməyə bilməzdi. Elə buna görə də ölkəmizə qarşı böyük kampaniyaya start verildi. Azərbaycana qarşı müxtəlif fitnələr ortaya atdılar. Ölkəmizi Qarabağda qalan ermənilər üçün "humanitar fəlakət" yaratmaqda ittiham etməyə çalışdılar. Lakin ortaya tutarlı faktlar qoya bilmədilər və heç bir təzyiq Azərbaycanı yolundan döndərmədi.

Prezident İlham Əliyev bir daha dünyaya sübut etdi ki, Azərbaycan dövləti yalnız sərhədlərini, ərazi bütövlüyünü təmin edib. Sadə erməni vətəndaşları ölkəmizdə yaşamaq istəyirlərsə, Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər.

Amma dəyişməyən erməni xisləti buna da imkan vermədi. Dəfələrlə ordumuza qarşı təxribatların həyata keçirilməsi, ölkəmizin ərazisində terror təhlükəsinin yaranması, əlbəttə ki, Azərbaycanı narahat etməyə bilməzdi. Dəfələrlə xəbərdarlıqlara baxmayaraq, proses davam etdi.

Nəhayət, 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətdilər. Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldu və yaralandı. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralandı. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak oldu. Qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edildi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Cəmi 23 saat 43 dəqiqə ərzində separatçılar ağ bayraq qaldırmalı oldular və bununla da separatizmin kökü kəsildi. Bu müddətdə Azərbaycan Ordusu antiterror tədbirləri zamanı yüksək peşəkarlıq nümayiş etdirərək yalnız hərbi hədəfləri zərərsizləşdirdi. Heç bir mülki şəxs xəsarət almadı, həmçinin heç bir mülki obyektə ziyan dəymədi.

Separatçı rejimin rəhbəri Samvel Şahramanyan sentyabrın 28-də qondarma rejimin ləğvi ilə bağlı sənəd imzaladı. Qarabağdakı xunta rejimi, bu rejimə rəhbərlik edən və imkan düşən kimi xalqımıza qarşı hədə-qorxular səsləndirən, müharibə olacağı təqdirdə Bakıya qədər gələcəklərini deyən sözdə "prezident"lər", "nazir"lər və "general"lar bir-bir həbs edildi.

Üçrəngli bayrağımız Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda da ucaldıldı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən, qətiyyətli siyasəti nəticəsində ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam təmin edildi.

Tarixi torpaqlarda bayrağımızın ucaldılması əhəmiyyətinə görə 44 günlük müharibə və 8 Noyabr Zəfər Gününə bərabər növbəti parlaq Qələbə oldu. 2023-cü il sentyabrın 20-də əldə olunan Qələbə siyasi və mənəvi əhəmiyyətinə görə Zəfər Gününə bərabər və onu tamamlayan tarixi hadisə kimi yaddaşlara yazıldı.

Həm Zəfər yürüşümüzdə, həm antiterror tədbirləri zamanı igid Azərbaycan oğulları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Onlar canları bahasına Azərbaycanın suverenliyini tam təmin edən qəhrəmanlar kimi adlarını tarixə yazdırdılar.

Sirr deyil ki, Azərbaycan xalqı və dövləti Vətən uğrunda şəhid olan qəhrəman övladlarının işıqlı xatirəsini hər zaman əziz tutur, onları daim xüsusi ehtiramla yad edir, qazilərin əməyini yüksək qiymətləndirir və onlarla qürur duyur.

Bu yolda canlarını belə əsirgəməmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün ölkəmizdə Anım Günü kimi qeyd olunması ilə bağlı sərəncam imzalayıb. Bu, şəhid ruhlarına, onların doğmalarına ən ali ehtiramın əlamətidir. Cəmiyyətimizdə şəhidlərin yeri ən ali məqamdadır. Həm dövlətimiz, həm də cəmiyyətimiz onlara layiq olduqları qiyməti verir. İstər şəhid ailələri, istərsə də qazilər və veteranlar hərtərəfli dövlət qayğıları ilə əhatə olunublar.

Hələ müharibənin gedişi zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ata-ana qayğısı ilə hospitala baş çəkərək yaralı əsgərlərimizlə görüşür, onlarla söhbətləşir, müalicə şəraitləri ilə maraqlanırdılar.

Prezident və Mehriban xanım Əliyevanın çağırışı ilə şəhid ailələri və qazilərimizə layiqli xidmətlərin göstərilməsi prosesi bu gün də davam etdirilir.

## Zəfər yürüşündən Dövlət Suverenlik Gününədək...

Prezident İlham Əliyev bu il sentyabrın 19-da sərəncam imzalayaraq 20 sentyabr təqvim gününü Dövlət Suverenliyi Günü kimi təsdiqlədi. Bu, tariximizin ən möhtəşəm bayram təqviminə çevrildi.

Bu ilin sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edən dövlət başçısı tələbə heyəti ilə görüşdə Şanlı Zəfərimiz və antiterror tədbirlərinin yaratdığı reallığı dəyərləndirərkən qarşıya qoyulan məqsədin nəticəsini belə qiymətləndirdi: "8 Noyabr - Zəfər Günümüzdür, Şuşanın azad olunması, Ermənistanın kapitulyasiyası və ondan sonrakı tarix artıq göz qabağındadır. Əgər 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər bizim bütün addımlarımızı və gördüyümüz işləri təhlil etsəniz görərsiniz ki, hər bir addım əvvəlki addımın məntiqi davamı idi və hər bir addımın son məqsədi 20 Sentyabr Dövlət Suverenliyi Günü idi".

Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdı. Ona görə də Azərbaycan dövlətinin və xalqının yalnız öz gücünə qazandığı bu hərbi və siyasi qələbə unikallığı ilə tarixə yazıldı.

Təbii ki, möhtərəm Prezidentimizin 20 sentyabrın Dövlət Suverenliyi Günü elan olunması ilə bağlı verdiyi qərar da Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpası ilə başlayan hadisələrin kulminasiya nöqtəsi olan ərazi bütövlüyü, müstəqillik uğrunda onilliklər boyu davam edən mübarizənin rəmzi sonunu əks etdirmiş oldu.

Hazırda 30 il işğal və separatizmin əsarətində qalan torpaqlar cənnətə çevrilməkdə, həmin ərazilərimizin potensialı ölkə iqtisadiyyatına uzun fasilədən sonra reinteqrasiya olunmaqda, təhlükəsiz şəkildə böyük qayıdış baş tutmaqdadır.

## Qarabağ və Şərqi Zəngəzurda yeni həyat qaynayır

Son 4 illik tarixə nəzər yetirsək, görərik ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən tikinti-quruculuq işləri həyata keçirir. Özü də yalnız Azərbaycanın öz iqtisadi qüdrəti hesabına. Yəni heç bir beynəlxalq maliyyə qurumu, heç bir dövlətdən yardım almadan işğaldan azad edilmiş torpaqlarımızda möhtəşəm layihələr reallaşdırır.

Hazırda azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə geniş inşaat işləri gedir. Doğma yurdun hər qarışında tikinti bumu yaşanır. Yeni-yeni infrastrukturlar - xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, avtomobil və dəmir yolları, körpülər, tunellər tikilir.

Bir sözlə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası uğurla reallaşmaqdadır. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə, həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

Prezident İlham Əliyev 2021-ci ilin fevral ayında təsdiq etdiyi növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 milli prioritetdən biri işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış proqramının icrası idi. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

Böyük qayıdış proqramı yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin indi böyük dövlət xadimi və Azərbaycan xalqının lideri kimi əsas missiyası dövlətin və xalqın gücü ilə düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması idi. Bu gün həmin missiya da uğurla reallaşmaqdadır.

İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitin həcmi ildən-ilə artırılır. 2020-ci ildən başlayaraq, 2024-cü il də daxil olmaqla, dövlət büdcəsindən işğaldan azad edilmiş torpaqlarda bərpa-quruculuq məqsədləri üçün 17,5 milyard manata yaxın vəsait ayrılıb. 2025-ci ildə 4 milyard manat məbləğində vəsait ayrılması nəzərdə tutulur.

Hər gün demək olar ölkəmizin müxtəlif istiqamətlərindən köç karvanı Qarabağa, Şərqi Zəngəzura yola salınır. Həyata keçirilən böyük layihələrin nəticəsi olaraq Qarabağda və Şərqi Zəngəzurda bərpa edilmiş yaşayış məntəqələrinin və daimi yaşamaq üçün bu yerlərə qayıdanların statistikası gündən-günə artır. Cəmi 4 ilə Azərbaycan dövləti öz iqtisadi gücü hesabına möhtəşəm qayıdış proqramı icra edir. Böyük qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq.

## Heydər Əliyev Fondunun böyük töhfəsi

Bu gün həm də Qarabağ və Şərqi Zəngəzurda tarixi-dini və mədəni abidələrimizin bərpası prosesləri də davam etdirilir. Bu prosesdə məxsusi olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əvəzedilməz layihələri - mədəni-dini irsimizi xalqa yenidən qaytarmaq missiyasını xüsusi vurğulamaq lazımdır. Mehriban xanım Əliyevanın göstərişi ilə 30 ilə yaxın düşmən tapdağında qalan, dağıdılan, məhv edilən, təhqir olunan dini abidələrimiz, məscidlərimiz yenidən həyata qaytarıldı və bu istiqamətdə proseslər indi də davam etdirilir.

Fondun təşəbbüsü ilə bu torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi və Zəngilan şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilib. Eyni zamanda Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir.

Şuşada fond tərəfindən bəzi obyektlərdə aparılan bərpa işləri cəmi bir neçə aya başa çatdırılıb. 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Vaqifin muzey-məqbərə kompleksinin yenidənqurma işlərindən sonra açılışı olub. Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşada həyata keçirilən layihələrdən biri də görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışıdır. Üzeyir bəy Hacıbəylinin Şuşadakı heykəli 1985-ci ildə 100 illik yubileyi münasibətilə ucaldılmışdı. Heykəltaraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilib. Fondun dəstəyi ilə Üzeyir bəy Hacıbəylinin bürüncdən hazırlanan heykəli Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb.

Hazırda tarixinin ən qüdrətli Azərbaycanının ictimai-siyasi həyatında, daxili və xarici siyasətində yeni dövr başlayıb. Ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Azərbaycanın yeni inkişaf konsepsiyası, modern yüksəlişin istiqamətləri və hədəfləri də artıq bəllidir. İndi əsas hədəflər dövlətçiliyimizin, suverenliyimizin, milli təhlükəsizliyimizin, daxili və xarici siyasətimizin, mütərəqqi yüksəlişimizin daha da güclənməsi istiqamətində mühüm addımların atılmasıdır.

VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında Prezident İlham Əliyevin proqram xarakterli nitqi bizlər üçün ilk növbədə yol xəritəsi oldu. Möhtərəm Prezidentimizin də vurğuladığı kimi, artıq Azərbaycan suverenliyini tam təmin edib. Bu səbəbdən də qarşımızda önəmli vəzifələr durur.

Azərbaycanla hələ də sülh müqaviləsi imzalamaqdan yayınan Ermənistan və onun havadarları yaxşı bilməlidirlər ki, ölkəmizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Prezident İlham Əliyevin sülh gündəliyində göstərdiyi kimi, Ermənistanın konstitusiyasına dəyişiklik edilməli, keçmiş Minsk qrupu rəsmən ləğv olunmalıdır.

*Ermənistanın konstitusiyasında məlum dəyişiklik olmasa, bu ölkə ilə sülh bağlanmayacaq. Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin birnömrəli şərtidir. Azərbaycana qarşı həyata keçirilən istənilən təzyiq, böhtan kampaniyası hər zamankı kimi iflasa məhkum olacaq.*

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı*

**Dünyaya səs salan, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasına gedən yolun başlanğıcı olan 44 günlük İkinci Qarabağ müharibəsində şanlı Qələbəmizin dörd ili tamam olur. Bu günlər 4 il əvvəl olduğu kimi, yenə də hamımız bir-birimizi dünya hərb tarixində bənzəri olmayan tarixi Zəfərimiz münasibətilə ürəkdən təbrik edir və uca səslə deyirik: Zəfərin mübarək, Azərbaycan! Zəfərin mübarək, Azərbaycan xalqı!**



# Zəfərin Azərbaycanı

## Biz bu Qələbəyə layiqik

Məhz 4 il bundan əvvəl, 2020-ci ilin 44 günlük İkinci Qarabağ müharibəsində dünya Azərbaycan xalqının timsalında yenilməzliyin, məğrurluğun, tarixinə sahib çıxmağın şahidinə çevrildi. Son 4 ildə tarixi Zəfərinin sevincini yaşayan, daim xoşbəxt xalqlar arasında ön cərgədə dayanan Azərbaycan xalqı bu gün daha xoşbəxt, daha qürurlu, daha məğrurdur. Çünki Ermənistanın işğalının davam etdiyi 30 ildə həsrətlə azadlığına qovuşacağı, özünün tarixi sahibinə qucaq açacağı günü səbirsizliklə gözləyən doğma torpaqlarımızda xalqımızın qalibiyyət rəmzi olan üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Dövlət başçısı İlham Əliyev 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçildikdən sonra andiçmə mərasimində Ümummilli Liderə müraciətlə bildirmişdi ki, əsəriniz olan müasir, müstəqil Azərbaycanı inkişaf etdirəcəyik, möhkəmləndirəcəyik, zəfərlərə doğru aparacağıq.

Təbii ki, hər bir vəd, hər bir hədəf möhkəm təməl, liderlik keyfiyyətləri, prinsipial mövqe, dövlətə, xalqa bağlılıq və sair kimi amillərə əsaslananda uğur qazanmaq o qədər də çətin olmur. Məsələyə bu kontekstdən yanaşsaq, tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin şah əsəri olan çağdaş müstəqil Azərbaycanı dahi rəhbərin yaratdığı möhkəm təməl üzərində yeniliyi, müasirliyi, dövrün çağırışlarını özündə ehtiva edən təkmil siyasəti ilə inkişaf etdirir, zənginləşdirir, hər sahədə təcrübəsinin nümunə olmasına çalışır. 2003-cü ildə qarşıya qoyulan əsas hədəf dahi şəxsiyyət Heydər Əliyevin həmin ilin 1 oktyabr tarixli müraciətində göstərdiyi *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"* etimadını doğrultmaq oldu. İşğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması bütün dövrlərdə dövlət siyasətinin mütləq prioritetinə və strateji hədəfinə çevrildi.

Bugünkü uğurlarımız, zəfərlərimiz, onların əsasında yeni hədəflərin, prioritetlərin müəyyənləşdirilməsi böyük qətiyyətin, iradənin, düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Prezident kimi fəaliyyətinin 17 ili işğal altında olan torpaqlarımızın azadlığa qovuşmasına hazırlığa həsr edildi. Ümummilli Lider Heydər Əliyevin *"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"* çağırışı bu müddətdə dövlətimizin həyata keçirdiyi siyasətin əsası oldu. Dahi şəxsiyyətin müəllifi olduğu neft strategiyasının uğurlu icrası Azərbaycanın dayanıqlı iqtisadi inkişafında əhəmiyyətli rol oynadı. Prezident İlham Əliyev iqtisadiyyatın inkişafında neft-qaz sektorunun rolunu önə çəkməklə yanaşı, bu çağırışı da etdi ki, iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır. Bu məqsəd regionların sosial-iqtisadi inkişafını sürətləndirməyi əsas hədəflərdən birinə çevirdi. Regional inkişaf proqramlarının uğurlu icrası bölgələrdə yeni iş yerlərinin açılması və bunun nəticəsi olaraq məşğulluq probleminin həlli, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün geniş imkanlar yaratdı. Artan iqtisadi və maliyyə imkanlarımız digər sahələrdə də uğurlu addımların atılmasını şərtləndirdi. Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu qlobal enerji nəinki ölkəmizin, eyni zamanda iştirakçı dövlətlərin dayanıqlı iqtisadi inkişafını təmin etdi və bu uğurlu tendensiya hazırda da davam etməkdədir. Bütün regional layihələrdən təcrid olunmuş Ermənistandan fərqli olaraq Azərbaycan transmilli layihələri ilə regionda tamamilə yeni mənzərə yaratdı. Azərbaycan regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdi. Azərbaycanın təşəbbüsləri təkcə xalqımızın deyil, bir çox ölkələrin, o cümlədən region ölkələrinin maraqlarını təmin etdi.

Azərbaycanda hərbi sənaye kompleksinin yaradılması ölkənin qüdrətini artırdı. Respublikamızda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye kompleksi hesabına müxtəlif növ texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Bu gün Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində ölkəmizin hərbi məhsulları nümayiş olunur. Bu cür nailiyyətlər ordumuzu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaratdı. Tarixi Zəfərimizə qədər 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt əməliyyatı ordumuzun gücünün, qüdrətinin təqdimatı oldu.

## Zəfərə doğru

Vətən müharibəsinə qədər və 44 günlük savaşın davam etdiyi dövrdə Azərbaycanın diplomatik mübarizədə də uğurları bir-birini əvəzlədi. Beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq tərəfdaş ölkələrin sayının artmasına səbəb oldu. Azərbaycan bütün aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıq etdi və münaqişənin həlli üçün hüquqi bazanı möhkəmləndirdi. Həmin müddətdə BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər beynəlxalq təşkilatlar Ermənistan silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı qətnamələr qəbul etdilər. Avropa İttifaqı ilə paraflanmış sənəddə sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərildi.

Ümummilli Lider Heydər Əliyev bu gün artıq tarixin arxivinə atılmış Qarabağ münaqişəsinin həllində vacib amillər sırasında dövlətin qətiyyətini, xalqın iradəsini önə çəkməklə yanaşı, beynəlxalq dəstəyi də xüsusi qeyd edirdi. Azərbaycanın tarixi ədalətə, real faktlara əsaslanan siyasətinin nəticəsi olaraq dünya Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlərdən xəbərdar oldu. Lakin təəssüf ki, bəzi dünya güclərinin ikili standartlara əsaslanan siyasətinin şahidi olduq. Təəssüf ki, postmünaqişə dövründə də bu yanaşmalar davam etməkdədir. Münaqişənin həllində maraqların ədaləti, beynəlxalq hüququ üstələməsi 44 günlük İkinci Qarabağ müharibəsinin baş verməsini şərtləndirən amil idi. Ermənistandan maraqlarının həyata keçirilməsində bir vasitə kimi istifadə edən bəzi dünya gücləri bəyanatlarında münaqişənin həllinə, Azərbaycanın mövqeyinə dəstəklərini ifadə etsələr də, reallıqda işğalçını müdafiə edir, münaqişənin nizamlanması istiqamətində danışıqlar prosesinin uzanmasına, təcavüzkarın yeni planlar hazırlamasına açıq-aşkar çalışırdılar.

Bunu sübut etmək üçün 1992-ci ildə münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə yaradılan və artıq tarixin arxivinə atılmış ATƏT-in Minsk qrupunun 28 illik fəaliyyəti dövrünə nəzər salmaq kifayətdir. Minsk qrupu, xüsusilə onun həmsədrləri işğalçını adı ilə çağırmadılar, münaqişənin ədalətli həlli istiqamətində heç bir yaddaqalan addım atmadılar. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənildi. Beynəlxalq qətnamələr kağız üzərində qaldı.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin iqtisadiyyatına və mə-



dəni irsinə də ağır zərbə vurmuşdur. Bir milyondan çox azərbaycanlı 30 il ərzində qaçqın və məcburi köçkün həyatı sürməyə məcbur olmuşdur. Ermənistan bu müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərini acınacaqlı vəziyyətə salmış, şəhər və kəndlərdə infrastrukturu tamamilə məhv etmiş, ölkəmizə milyardlarla dollar dəyərində maddi ziyan vurmuşdur.

Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti təxribatlar dövlətimizin, xalqımızın səbir kasasını doldurdu. Həmin gün Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutuldu. Tərtər rayonunun həmin vaxt işğal altında olan Çiləbürt, Ağdam rayonunun Sarıcalı kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutuldu. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə əmr verildi. Azərbaycan xalqı 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın bu əmrini gözləyirdi.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda xalqımız səfərbər və həmrəy oldu. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Rəşadətli Azərbaycan Ordusu irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər. Torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, Vətən yolunda ən ali məqama ucalan şəhidlərimizin qanı və canı bahasına azad edildi. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi.

Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanat ölkəmizin hərbi-siyasi Qələbəsinin, Ermənistanın isə kapitulyasiyasının təsdiqi oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsinin gedişi dövründə xalqımıza hər bir müraciəti hansısa şəhərin, kəndlərin, qəsəbələrin, strateji yüksəkliyin azad edilməsi müjdəsi kimi xalqımıza sonsuz sevinc, qürur hissi bəxş etdi.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xarici mətbuata 30-dan artıq müsahibəsinin hər biri xalqımızın qəlbində Zəfərə əminlik yaratdı. Bu müsahibələrin hər biri çağdaş tariximizə Azərbaycanın diplomatik uğurlarının təqdimatı kimi yazıldı. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr mediamızın fəaliyyətinə yeni istiqamət verdi. Həmin müsahibələrin hər biri XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası hesab edilə bilər. Vətən müharibəsinin davam etdiyi günlərdə müsahibələrini düşmənə və onun havadarlarına qarşı real mübarizə, silah üsuluna çevirən Azərbaycan Prezidenti informasiya cəbhəsində də bədxahlarımıza qalib gəldi. Həmin müsahibələrdə gerçəklikdən doğan konkretlik, qətiyyət, yenilməz siyasi iradə əsaslı şəkildə yer aldı.

Müzəffər Ali Baş Komandan xarici KİV-ə verdiyi müsahibələrlə münaqişə ilə bağlı dünyanın fikrini dəyişdirməyə müvəffəq oldu. Dövlət başçısının gələcəyə ümid dolu sözləri insanları itkilər qarşısında sönməməyə, əksinə, qürurla durmağa ruhlandırdı. Hər bir azərbaycanlı müharibə dövründə özünün əvəzolunmaz Liderinin şəxsində artıq ölkəni idarə edən rəsmi şəxslə bərabər, doğma insan, xalqının yenilməz övladını gördü.

## Düşmənin kabusuna çevrilən "dəmir yumruq"

Bu qürurverici məqamı xüsusi vurğulamalıyıq ki, "Dəmir yumruq" əməliyyatının ilk saatlarından cəbhə xəttindən sevindirici xəbərlər gəlməyə başladı. 44 gün ərzində hər gün Azərbaycan Ordusu irəliləyirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın. Məhz İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə yağı düşmənin kabusuna çevrilən, kod adı "dəmir yumruq" olan, dünya hərb tarixində bənzəri olmayan əməliyyatların son dərəcə yüksək peşəkarlıqla aparılması sayəsində Azərbaycan Silahlı Qüvvələri düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi.

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması növbəti şanlı hərbi qələbəmiz oldu. Həmin üçtərəfli Bəyanata uyğun olaraq Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını döyüşsüz Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. 2022-ci il avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü.

Azərbaycan xalqının əzmi və iradəsi, dövlətimizin iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin Qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu dünyaya sübut etdi və düşmən üzərində tarixi Zəfər çaldı. Dövlət başçısı İlham Əliyevin sərəncamları ilə 44 günlük İkinci Qarabağ müharibəsinin başlandığı tarix - 27 Sentyabr Anım Günü, Qarabağın tacı Şuşanın işğaldan azad edildiyi 8 Noyabr Zəfər Günü kimi təsis edildi.

Azərbaycan dövləti hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. 27 sentyabr tarixinin Anım Günü kimi təsis edilməsi Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlamətidir. Şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunurlar. Dövlət öz əsgərin yanındadır. Qarabağ qazilərinə dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri yüksək səviyyədə həll olunur. Hər kəs əmin ola bilər ki, Azərbaycan dövləti bundan sonra da öz əsgərinin yanında olacaq. Çünki Azərbaycan əsgər və zabitləri misilsiz qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub, öz adlarını Azərbaycan tarixinə qalib hərbçi kimi yazdırıblar.

## Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası

Təbii ki, tarixi Zəfərimizdən sonra əsas məqsəd ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi idi. Bu mənada 2023-cü il müstəqillik tariximizə daha möhtəşəm uğurları yazdı. Azərbaycan-Ermənistan sərhədində, Laçın rayonu ərazisindəki Həkəri çayının üzərində 23 aprel 2023-cü il tarixində Laçın sərhəd-buraxılış məntəqəsi quruldu. Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması böyük Şuşa Zəfərindən sonra əldə edilmiş ən böyük və əhəmiyyətli hərbi-siyasi qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycanın ərazi bütövlüyü tam təmin olundu.

Azərbaycan tarixi Zəfərimizdən ötən üç il ərzində yenə də böyük səbir və təmkinlilik göstərdi. İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər olan dövrdə baş verən hadisələrin xronologiyası bir daha göstərdi ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil. Üç il ərzində nəinki Ermənistan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmayıb, hətta əlavə silah-sursat, minalar göndərib. Azərbaycana qarşı mina terroru davam edib. Ermənistan bütün dünyanı aldatmağa çalışırdı ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağda mövcud deyil. Bu, sən demə, hansısa özünümüdafiə qüvvələridir. Bu cəfəng versiyalara inananlar Ermənistan rəhbərliyi ilə birlikdə bütün məsuliyyəti daşıyırdılar. Ona görə antiterror əməliyyatı qaçılmaz idi.

Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan hərbi birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan Ordusu 19 sentyabr 2023-cü ildə lokal xarakterli antiterror tədbirlərinə başladı. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də müvafiq şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu. Antiterror tədbirlərinin nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi.

Tarixi Zəfərimizdən sonrakı dövrün əsas hədəflərindən biri azad edilmiş ərazilərimizin bərpası, yenidən qurulması, eyni zamanda regionda dayanıqlı sülhün, təhlükəsizliyin təmin edilməsi, Ermənistanla münasibətlərdə yeni səhifənin açılması üçün sülh müqaviləsinin imzalanmasıdır. Son dörd ildə Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi istiqamətində görülən işlərin təqdimatı 5 şəhərə və dörd kəndə keçmiş məcburi köçkünlərin qayıdışıdır. Bu gün Laçın, Füzuli, Xocalı, Şuşa, Cəbrayıl şəhərləri, Ağalı, Talış, Sus və Zabux kəndləri sakinlərinə qovuşaraq həyatının yeni dövrünü yaşayır. Dövlət başçısı İlham Əliyevin əminliklə qeyd etdiyi kimi, bu proses davamlıdır. Böyük qayıdış proqramının icrasının birinci mərhələsinin başa çatacağı 2026-cı ilədək 140 min sakinin doğma yurd-yuvasına qayıdışı nəzərdə tutulur. Tarixi Zəfərimizdən dərhal sonra dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən şəhərlərinə səfərləri ilə başlanan bərpa-quruculuq işlərinin miqyası ölçüyəgəlməzdir. İşğaldan azad edilmiş ərazilərin müasir tələblər səviyyəsində yenidən qurulması, bərpası xüsusi diqqətdədir. Soydaşlarımızın bu torpaqlarda yaşayışı üçün bütün zəruri imkanlar yaradılır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar.

## Güclü iradə, xalq-iqtidar birliyi, xalqımızın əyilməz ruhu olan yerdə...

Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr göstərdi ki, güclü iradə, xalq-iqtidar birliyi, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bunun qarşısında duruş gətirə bilməz. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək.

Bu gün tarixi Zəfərimizin reallıqları fonunda Azərbaycanın bütün sahələrdə uğurla inkişaf edərək daha möhtəşəm uğurlara imza atdığını görürük. Müasir müstəqil, qalib Azərbaycanın hər bir uğurunda öz payı olan, dünənin, bu günün, gələcəyin partiyası kimi mövqeyini möhkəmləndirərək ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanan Yeni Azərbaycan Partiyası şanlı Qələbəmizin reallıqlarına söykənərək VII Qurultayını keçirdi. Həmin qurultayda dövlət başçısı İlham Əliyev müasir dövrün çağırışlarına uyğun olaraq yeni proqramın hazırlanması ilə bağlı tapşırığını verdi. Artıq YAP-ın yeni proqramının təsdiqlənməsindən üç ilə yaxın vaxt keçir. Ötən üç il həm ölkəmizin, həm də Yeni Azərbaycan Partiyasının həyatında mühüm hadisələrlə yadda qaldı. "Biz birlikdə güclüyük!" devizi əsasında təsdiqlənən yeni proqramdan irəli gələn vəzifələrin uğurlu icrası birliyimizi, həmrəyliyimizi daha da möhkəmləndirdi. Bu həmrəyliyi cari ilin fevralında keçirilən prezident və sentyabrda reallaşan parlament seçkilərində növbəti dəfə nümayiş etdirdik. Xalqımız Heydər Əliyev siyasətinə dəstəyini, Yeni Azərbaycan Partiyasına inamını seçkilərdə yüksək fəallıq nümayiş etdirməklə təsdiqlədi. Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevin inamlı qələbəsi yeni dövrün hədəflərinin qısa zamanda reallığa çevriləcəyinə əminlik artırdı. Yeni dövr yeni hədəfləri ilə diqqətdədir. Dövlət başçısı İlham Əliyev 7 fevral prezident seçkilərində qələbəsindən sonra keçirilən andiçmə mərasimində, eyni zamanda VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışı zamanı bu hədəfləri açıqladı. Hazırda bütün azad edilmiş ərazilərimizdə üçrəngli bayrağımızın dalğalanması sabaha daha böyük inamla addımlamağa əsas verir.

Tarixi Zəfərimizin qürurverici məqamlarından biri kimi Prezident İlham Əliyevin Sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsini qeyd etməliyik. 44 günün hər anı belə tarixi məqamlarla zəngindir. Bu sıralamaya suverenliyimizin tam bərpasından sonra Xankəndi, Xocalı, Xocavənd, Ağdərə şəhər günləri də daxil oldu.

Şübhəsiz, tarixi Zəfərimizə qədərki, həmçinin ondan ötən dördillik dövrün reallıqlarını bir yazıda əhatə etmək qeyri-mümkündür. Uğurlarımızın miqyası geniş və davamlıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz, eyni zamanda ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırır.

Bunun bariz nümunəsi hazırda dünyanın diqqətini Azərbaycana yönəldən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-dur. 200-ə yaxın ölkənin dəstəyi ilə qəbul edilən bu qərar Azərbaycana beynəlxalq baxışın yüksək səviyyədə olduğunun göstəricisidir. Zirvələri fəth edən, Zəfərdən-zəfərə inamla addımlayan, ədalətin və beynəlxalq hüququn yanında olan, müstəqil siyasəti ilə hər bir hədəfə zamanında və yüksək səviyyədə nail olan müasir, müstəqil, qalib, bütövləşən Azərbaycanın vətəndaşı olduğumuz üçün qürurluyuq. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın ağır günlər yaşadığı 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra böyük əminliklə söyləmişdir ki, bu çətin günlər keçib gedəcək, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı belə qüdrətli, zəngin ölkənin vətəndaşı olması ilə fəxr edəcək.

*Artıq bu çağırış günümüzün hər bir reallığında öz təsdiqini tapıb. Yaşadığımız qürurlu, bu günümüz və gələcəyimiz üçün tarixi hadisələr Heydər Əliyev siyasətinin təntənəsidir. Zəfərli günlərin mübarək, Azərbaycan!*

**Vüqar RƏHİMZADƏ,**
***Milli Məclisin deputatı***

# Zəfər qürur mənbəyidir

**Sabah Vətən müharibəsindəki tarixi Zəfərimizin 4-cü ili tamam olur. 2020-ci il sentyabrında başlanan və 44 gün davam edən bu savaşda qazandığımız hərbi qələbə, torpaqlarımızın işğaldan azad edilməsi yalnız çağdaş dövrümüzə deyil, bütövlükdə dövlətçilik tariximizə işıq saldı, xalqımızın öz haqqı uğrunda mübarizəsinin təntənəsi oldu. Hər bir azərbaycanlının qüruru olan bu zəfər göstərdi ki, Ulu Öndər Heydər Əliyevin memarı olduğu, Prezident İlham Əliyevin tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəltdiyi Azərbaycan ən ağrılı problemini belə həll etməyə qadirdir.**

**4 il elə də böyük zaman kəsiyi deyil. Amma Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda elə bu qısa zaman kəsiyində cərəyan edən proseslər 44 günlük Vətən müharibəsindəki zəfərimizin miqyasının nə qədər böyük olduğunu göstərir.**






İllər bir-birini əvəz etdikcə Vətən müharibəsindəki zəfərimizin qlobal səviyyədə doğurduğu əks-səda daha dərindən hiss edilir. Çünki biz sadəcə Ermənistana və ya bir ovuc erməniyə qalib gəlməmişik. Biz XIX əsrdən bəri formalaşmağa başlamış, onilliklər boyu yaxşı təşkilatlanmış, ABŞ və Fransa kimi dövlətlərdə dərindən kök salmış dünya ermeniliyinə qalib gəlmişik, onların Azərbaycan əraziləri ilə bağlı məkrli planlarını darmadağın etmişik. Biz uzun illər vasitəçi adı altında pərdələnmiş Fransanın əsl simasını ifşa etmişik.

Bu baxımdan Vətən müharibəsinin nəticələrinin ortaya çıxardığı həqiqətlərdən biri də odur ki, 30 ilə yaxın danışıqlar prosesində vasitəçilik edənlər, əslində, öz fəaliyyətləri ilə Ermənistanın işğal siyasətinə havadarlıq ediblər. Belə bir deyim var: qaliblər mühakimə olunmurlar. Bu tezisdən çıxış edən vasitəçilər də düşünüblər ki, illər ötdükcə Azərbaycan xalqı işğal faktı ilə barışacaq və ərazilərində ikinci erməni dövlətinin yaranması ilə razılaşacaq. Amma yanılırdılar və həm də unudurdular ki, hələ indiki qədər güclü olmadığı vaxtlarında, yəni ötən əsrin 90-cı illərində ərazilərində ikinci erməni dövlətinin qurulması ilə bağlı xarici təzyiqlərin qarşısında əyilməyən Azərbaycan zamanı yetişdikdə torpaqlarını mütləq işğaldan azad edəcək. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyevin ölkə prezidenti kimi fəaliyyətində torpaqlarımızın işğaldan azad edilməsi prioritet istiqamət təşkil etdi. Bu siyasəti davam etdirən Prezident İlham Əliyev hələ 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində xüsusi vurğulamışdır ki, Azərbaycan heç vaxt torpaqlarının işğal altında qalması ilə barışmayacaq və öz doğma ərazilərinin nəyin bahasına olursa-olsun, azad edəcəkdir. Bu siyasi kurs ətrafında səfərbər olan Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad ediləcəyinə olan inamını bir gün belə itirmədi.

Beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, üstəlik, 1991-ci ilin dekabrında qəbul edilmiş Alma-Ata Bəyannaməsində respublikamızın 86,6 min kvadrat kilometrlik ərazisi təsbit edilsə də, yəni ermənilərin iddia etdiyi Qarabağ Azərbaycan torpağı kimi tanınsa da, danışıqlar prosesində vasitəçilər buna məhəl qoymadılar. Üstəlik, bütün görüşlərdə problemin güc yolu ilə həllinin qeyri-mümkünlüyü fikrini irəli sürərək, münaqişənin dondurulmasına və işğalın davam etməsinə çalışdılar.

Prezident İlham Əliyev prezidentlik fəaliyyətinə başladığı ilk gündən torpaqlarımızın işğaldan azad edilməsini prioritet hədəf olaraq müəyyən etdi. Dövlət başçısının həyata keçirdiyi həm xarici, həm daxili siyasətin mərkəzində həm də torpaqlarımızın azadlığı məsələsi dayandı. Eyni zamanda cənab İlham Əliyev danışıqlar prosesi nəticəsiz qalarsa, Azərbaycanın güc yolu ilə torpaqlarını azad edəcəyini hər zaman açıq şəkildə bəyan edirdi. Təbii ki, münaqişənin dondurulması və unudulmasına çalışan Ermənistanın və bütövlükdə dünya ermeniliyinin niyyətini Prezident İlham Əliyev yaxşı başa düşürdü. Bu mənada nəyi nə vaxt və necə etməyi hamıdan yaxşı bilən dövlət başçısı düşmənin hərəkətlərinin fərqində idi. Ona görə də Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin gücləndirilməsi istiqamətində davamlı olaraq sistemli iş aparıldı, ordumuzun arsenalı ən müasir hərbi texnikalarla zənginləşdirildi, hərbçilərimizin peşəkarlıq səviyyəsi artırıldı.

Bütövlükdə, Prezident İlham Əliyev Azərbaycanı inkişaf yoluna çıxarmaqla, dövlətimizin maliyyə imkanlarını yüksəltməklə, hücum diplomatiyası yürüdərək qlobal səviyyədə Ermənistanın təcavüzkar simasının ifşasına nail olmaqla, Silahlı Qüvvələrimizi modern döyüş imkanlarına sahib hərbi gücə çevirməklə, həm də torpaqlarımızın işğaldan azad olunması üçün tarixi şəraitin formalaşmasını təmin etdi. Ermənistanın 2020-ci il sentyabrın 27-də cəbhə xəttində törətdiyi növbəti hərbi təxribatdan sonra əks-hücum əməliyyatlarına başlayan Azərbaycan Silahlı Qüvvələri cəmi 44 gün ərzində 30 illik işğala son qoydu. Sözdən və danışıqlardan anlamayan Ermənistanın güc yolu ilə cəzalandırılması nəticəsində torpaqlarımız işğaldan azad edildi. Bu savaşda qazanılan Zəfər Azərbaycanın müasir tarixində yeni dövrün başlanğıcı oldu, respublikamızın möhtəşəm beynəlxalq təqdimatına çevrildi. Vətən müharibəsindən sonra Azərbaycan dünyada həm də qalib dövlət kimi tanındı.

Biz torpaqlarımızı cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətinin, ordumuzun gücünün, hərbçilərimizin qəhrəmanlığının, xalqımızın milli həmrəyliyinin sayəsində azad etdik. Bu yolda canından keçən şəhidlərimiz oldu, onların əziz xatirəsi daim xalqımızın qəlbində yaşayacaq. Zəfər günündə bir daha şəhidlərimizi yad edir, onlara Allahdan rəhmət diləyir, qazilərimizə şəfa arzulayırıq.

Bir məsələni də xüsusi qeyd etməliyik ki, beynəlxalq qanunvericiliklə təsbit olunmuş hüquqların güc yolu ilə təmin edilməsi ziddiyyətlər və ikili standartlarla dolu beynəlxalq münasibətlərdə, ümumiyyətlə, rast gəlinməyən nadir hadisədir. Belə ki, hazırda beynəlxalq hüquqa söykənərək, ərazi bütövlüyünü bərpa edən dövlət göstərmək çətindir, bəlkə də mümkün deyil. Bu baxımdan Azərbaycan istər BMT Nizamnaməsinin 51-ci maddəsini, istər ATƏT-in Helsinki Yekun Aktının güc yolu ilə ərazi əldə edilməsini qadağan edən prinsipini rəhbər tutaraq, ərazilərini güc yolu ilə işğaldan azad etməklə, beynəlxalq miqyasda nadir sayılan bir nümunə yaratdı. Bu kontekstdə belə bir tezis özünün təsdiqini tapdı ki, məhz qətiyyətli və təcrübəli siyasi liderlər öz dövlətlərinin beynəlxalq sənədlərlə təsbit olunmuş hüquqlarını güc yolu ilə həll edə bilərlər.

2023-cü ilin sentyabr ayında keçirilən antiterror əməliyyatlarının nəticəsində Qarabağda XIX əsrin 20-ci illərindən kök salmağa başlamış erməni separatizminə də son qoyulması və bütün ərazilərimiz üzərində milli suverenliyimizin tam bərpa edilməsi bir daha Prezident İlham Əliyevin yürütdüyü mükəmməl və qətiyyəti siyasətin təntənəsinə çevrildi. İndi bütün Qarabağ və Şərqi Zəngəzurda üçrəngli bayrağımız vüqarla dalğalanır. Fəxarətlə qeyd etməliyik ki, uzun illər erməni separatizminin yuvası olmuş Xankəndidə sonuncu dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə dalğalanmış üçrəngli bayrağımızı ötən il Müzəffər Ali Baş Komandan İlham Əliyev yenidən ucaltdı. Əlbəttə, bu, Zəfər Günündən cəmi bir gün sonra qeyd etdiyimiz Dövlət Bayrağı Gününü daha əzəmətli, daha qürurlu edir.

8 Noyabr Zəfər Günü tariximizin şərəfli səhifəsidir. Aradan onilliklər, qərinələr, əsrlər ötəcək və bu Zəfər hər zaman tariximizi şərəfləndirəcək. Bu qələbə hər zaman xalqımızın qürur və fəxr mənbəyi olacaq.

Zəfər günümüz mübarək olsun!

**Nəsib MƏHƏMMƏLİYEV,**
*Milli Məclisin deputatı*

# Tarixə qızıl hərflərlə həkk olunan gün



*Artıq 4 ildir ki, böyük fəxarət hissi ilə qeyd etdiyimiz 8 Noyabr Zəfər Günümüz təkcə İkinci Qarabağ savaşındakı möhtəşəm qələbəmizin rəsmiləşdiyi, baş tacımız olan Şuşamızın işğaldan azad olunduğu, müqəddəs torpaqlarımızı işğal etmiş ləyaqətsiz düşmənlərimizin qarşımızda diz çökdüyü gün deyil, həm də hansı genin daşıyıcısı olduğumuzun təsdiqini tapdığı, sınmış qürurumuzun dirçəldiyi, milli mənliyimizin özümüzə qayıtdığı gündür.*

İllər keçdikcə müstəqil Azərbaycanımızın tarixinə qızıl hərflərlə həkk olunan bu günün möhtəşəmliyini daha dərindən hiss edəcəyik. 44 gün ərzində döyüş meydanında geriyə bir addım belə atmayan qəhrəman oğulların şücaəti indiki və gələcək nəsillər üçün əvəzolunmaz örnək və istinad mənbəyi olacaq. Bu oğullar 30 ilə yaxın müddətdə düşmən tapdağı altında qalan torpaqlarımızı qarış-qarış işğaldan azad etməklə tarixi və ilahi ədaləti bərpa etdilər. Bu oğullar 30 illik işğal dönəmində möhkəm qurulmuş və keçilməz hesab olunan sədləri keçərək bir ay ərzində döyüş meydanından on mindən çox əsgərinin fərarilik etdiyi "erməni ordusunun məğlubedilməzliyi" haqqında uydurma mifləri də darmadağın etdilər.

Döyüş meydanında ordumuzun qarşısında duruş gətirə bilməyərək fərarilik edən düşmən müharibə zonasından çox-çox uzaqlarda olan ərazilərə, o cümlədən Gəncəyə, Bərdəyə və Tərtərə qadağan olunmuş silahlardan istifadə etməklə atəş açaraq dinc əhalini hədəfə aldı və bununla da öz vəhşiliyini və barbarlığını növbəti dəfə nümayiş etdirdi. Daha çox xalqımızın döyüş əzmini sındırmağa hesablanmış bu vəhşiliyin də nəticə verməyəcəyini başa düşən erməni rəhbərləri, nəhayət ki, müqavimət göstərməyin mümkünsüzlüyünü başa düşərək faktiki kapitulyasiya aktı olan 10 noyabr Bəyannaməsini imzalamaq məcburiyyətində qaldılar. Lakin bəyannamə ilə üzərinə götürdüyü öhdəlikləri də yerinə yetirməkdən yayınmaqla növbəti dəfə erməni xislətinə sadiq qaldıqlarını nümayiş etdirdilər. Anlamadılar ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini, bütövlükdə beynəlxalq hüququn ayaq altına atılmış norma və prinsiplərini öz gücü hesabına icra edən Azərbaycan dövləti öz ərazisində baş verənlərə seyrçi qalmaq və dözmək fikrində deyil. Nəhayət, qəhrəman ordumuz uğurlu antiterror əməliyyatları həyata keçirməklə erməni terror qruplaşmalarını sıradan çıxardı, sonuncu 23 saatlıq əməliyyatla isə tam zərərsizləşdirdi. Bununla da ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu.

Əldə etdiyimiz möhtəşəm qələbə sayəsində biz yalnız torpaqlarımızı işğaldan azad etmədik, bu qələbə ilə həm də regionda bir çox güclərin məkrli planlarının üzərindən qara xətt çəkdik və bölgədə qüvvələr nisbətini öz xeyrimizə dəyişdik.

Lakin Azərbaycanın uğurlarını, regionun söz və güc sahibi olmasını həzm etməyən, mövcud durumdan narazı qalan bəzi güclər var ki, erməniləri revanşist addımlar atmağa təhrik etmək, bölgədə qarışıqlıq salmaq siyasəti yürütməkdədirlər. Ancaq mövcud reallıq budur ki, bu gün Azərbaycan bölgənin lider dövlətidir və ölkəmizin iştirakı olmadan heç bir layihə reallaşdırıla bilməz.

Bu möhtəşəm Zəfəri bizə yaşatdıqları üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla müzəffər ordumuza, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığımız sonsuza qədərdir. Bu yolda canından və qanından keçən şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyir, qazilərimizə sağlamlıq arzulayıram.

**Arzuxan ƏLİZADƏ,**
*Milli Məclisin deputatı,*
*Azərbaycan Milli İstiqlal Partiyasının sədri*

# Qələbəyə gedən yol

*Vətən müharibəsinin hər günü, hər anı qürur mənbəyimiz, şərəf tariximizdir. Zaman keçdikcə, o təkrarsız anların mənzərəsi göz önündə canlandıqca, üçrəngli bayrağımız düşmən tapdağından azad edilmiş yurd yerlərimizdə qürurla dalğalandıqca, əsarətdən xilas olmuş torpaqlarımız çiçəkləndikcə, 44 günün yaşantılarının bəlkə də yüz illərə bərabər olduğunu hiss edirik. Bu şərəfli və çətin günlərdə hər birimizin ürəyi müzəffər ordumuzun Ali Baş Komandanı, Prezident İlham Əliyevin tvitləri, çıxışları, müraciətləri və bəyanatları ilə döyünürdü.*



Müzəffər Ali Baş Komandanın azad edilən yurd yerlərimizlə bağlı açıqladığı hər bir məlumat bizi qürurlandırır, illərdən bəri çəkdiyimiz həsrətin izini sevinc göz yaşları, qələbə hayqırtıları ilə silir, qürurumuzu bayrağımız kimi yüksəklərə qaldırırdı.

Həmin günlər sayı 50 milyondan çox olan, taleyin amansız üzünün, imperiyaların qanlı siyasətinin paramparça etdiyi böyük bir xalqın azadlıq və qəhrəmanlıq salnaməsi, özünəqayıdışı, sərhədləri, maneələri aşaraq mənən, ruhən bütövləşdiyi müqəddəs günlərdir. Təbii ki, 44 gün bizi qələbəyə doğru aparan günlərin yalnız görünən və bilinən hissəsidir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycanın dövlət başçısı seçildiyi ilk gündən bir azərbaycanlı və bir övlad olaraq atasının vəsiyyətinin yerinə yetirilməsi istiqamətində bu gün sözlə ifadə edilməyəcək qədər çətin bir vəzifəni addım-addım, səbirlə, inadla, xalqını kataklizmlərdən, məhrumiyyətlərdən qoruyaraq yerinə yetirməyi bacarıb. Geridə qalan zaman kəsiyində diplomatiya, iqtisadiyyat, ordu quruculuğu, mədəniyyət, idman və digər sahələrdə həyata keçirilən siyasətin ayrı-ayrı detallarını incələdikcə, atılan addımların Zəfər yürüşümüzün tərkib hissəsi olduğunu görə bilərik. Prezident İlham Əliyev təkcə Müzəffər Ali Baş Komandan deyil, dünya azərbaycanlılarının milli birliyini təmin edən, onları vahid Vətən ideyası altında birləşdirən, böyük hədəflərə doğru aparan, mənəvi yükü yüz illərə sığmayan tarixi bir missiyanın lideri, qələbəmizin memarıdır.

Bu gün dünyada, xüsusilə də yaşadığımız bölgədə baş verən hadisələr Azərbaycan xalqının azad və müstəqil yaşamaq istəyini, istiqlal ideallarını, dağlarına, çaylarına, bütövlükdə hər qarışına ad verdiyi, uğrunda canını, ömrünü fəda etdiyi torpaqlarına sahiblənmək kimi müstəsna haqqını qəbul edə bilməyən gizli-aşkar, yaxud gizlindən aşkara çıxan düşmənlərimizin xəyanətkar simalarını daha aydın göstərir.

Ədalət hissini itirmiş, hiyləgər, məkrli düşmənlərin bitib-tükənməyən tələlərindən sıyrılaraq dünya hərb tarixinə qızıl hərflərlə yazılan qəhrəmanlıq salnaməsini yazmaq sadəcə iti zəka, strateji düşüncə deyil, vətəninə və xalqına nəhayətsiz sevgi, ideallarına sonsuz sədaqət, milli iradəyə söykənən qətiyyət və xalqını bir yumruq kimi birləşdirmək, səfərbər etmək bacarığı tələb edir.

Bu baxımdan, Prezident İlham Əliyev böyük bir coğrafiyada zülmə məruz qalan, haqqı tapdanan, öz tarixi vətəninə, ana südü kimi halal torpağına, tarixinə, mədəniyyətinə və gələcəyinə sahiblənmək istəyən bütün xalqlar üçün liderlik nümunəsidir.

**Elçin MİRZƏBƏYLİ,**
*Milli Məclisin deputatı,*
*Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini*

# Zəfərin reallıqları

**2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsi ilə Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunması təkcə hərbi Qələbə deyil, həm də uzunmüddətli geosiyasi, iqtisadi və regional təsirlər yaradan strateji bir nailiyyətdir.**

Azərbaycan 30 illik işğaldan sonra ərazi bütövlüyünü təmin etdi. Bu, ölkəmizin mövqeyini möhkəmləndirdi və beynəlxalq arenada daha güclü bir Azərbaycan imici yaratdı. Qarabağ müharibəsindəki Qələbə Azərbaycanı Cənubi Qafqazda lider və söz sahibi dövlət olaraq bir daha təsdiqlədi. Bu, Azərbaycanın regionda öz maraqlarını müdafiə etmək gücünü göstərdi və digər ölkələrə əhəmiyyətli bir mesaj verdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə müharibədən öncəki illərdə Azərbaycan Ordusunun modernləşdirilməsi və gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirildi. Dövlət başçısı ordunun müasir hərbi texnika, silah-sursat və döyüş vasitələri ilə təchiz edilməsinə də daim xüsusi diqqət yetirdi. Bütün bu amillər Azərbaycanın döyüş meydanında üstünlük qazanmasında əsas rol oynadı. Cənab İlham Əliyevin komandanlığı ilə həyata keçirilən "Dəmir yumruq" əməliyyatı nümunəvi döyüş təcrübəsi kimi dünya hərb tarixinə yazıldı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun Vətən müharibəsi zamanı göstərdiyi böyük şücaəti, peşəkarlığı yüksək qiymətləndirərək deyib: "Biz 44 gün ərzində yalnız irəli gedirdik. Şuşaya qədər bir çox şəhər və kəndlərimiz, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Suqovuşan, 300-ə yaxın kənd, Laçının və Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edilmişdir. Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərindən xəbər verir".



Müharibə dövründə Azərbaycan Prezidentinin uğurlu diplomatik fəaliyyəti də xüsusi önəm daşıdı. Dövlət başçısı reallıqları dünya ictimaiyyətinə çatdırmaq, Azərbaycanın haqq səsini duydurmaq üçün müxtəlif beynəlxalq tribunalardan məharətlə istifadə etdi. Bunun sayəsində Azərbaycan qlobal arenada geniş siyasi dəstək qazandı və beynəlxalq ictimai rəyi lehimizə çevirdi.

Qarabağ və Şərqi Zəngəzurun azad olunması ilə Azərbaycan yeni nəqliyyat və iqtisadi layihələr həyata keçirmək imkanı qazandı. Bu kontekstdə Zəngəzur dəhlizinin açılması planı həm Azərbaycanın, həm də regionun ticarət əlaqələrində yeni perspektivlər yaradacaq, ölkənin qlobal nəqliyyat dəhlizlərinə çıxışını genişləndirəcək.

Nəticə olaraq, Zəfər Azərbaycan üçün təkcə hərbi Qələbə deyil, həm də gələcək inkişaf və təhlükəsizlik üçün möhkəm bir əsas yaradan strateji nailiyyətdir. Bu, Azərbaycanın milli maraqlarını qorumaqla yanaşı, regionda sülh, sabitlik və rifah üçün geniş imkanlar açan bir tarixi dönüş nöqtəsidir.

8 Noyabr Zəfər Günü Azərbaycan xalqının tarixi bayramıdır və ölkənin 44 günlük Vətən müharibəsində qazandığı Qələbəni simvolizə edir. Bu şanlı tarix Azərbaycan xalqının ərazi bütövlüyünü təmin etmək, 30 ilə yaxın işğalda olan torpaqlarını geri qaytarmaq və milli qürurunu yenidən bərpa etmək yolunda böyük bir mübarizə apardığını xatırladır. Şuşa şəhərinin azad olunması ilə tarixə keçən 8 noyabr xalqımızın həm milli həmrəyliyini, həm də əzm və iradəsini nümayiş etdirir.

Zəfər Günü Azərbaycan xalqının tarixi birliyi və həmrəyliyini simvolizə edir. Həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlılar bir araya gələrək öz milli kimliklərini və Vətən sevgisini bir daha təsdiqləyirlər. Bu gün Azərbaycanın güclü ordusunun, şəhid və qazilərinin qəhrəmanlığını, onların fədakarlığını əbədiləşdirir.

Zəfər yürüşündə Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıq 2020-ci il Vətən müharibəsində qazanılan Qələbənin əsas amillərindən biri oldu. Bu qəhrəmanlıq ordunun yüksək hazırlıq səviyyəsi, döyüş əzmi və Azərbaycan xalqının Vətən sevgisini özündə əks etdirdi. Azərbaycan əsgərləri və zabitləri çətin relyef şəraitində, dağlıq ərazilərdə və düşmənin möhkəmləndirilmiş müdafiə xəttində irəliləyərək torpaqlarımızı işğaldan azad etdilər.

Xalq üçün Qarabağın azadlığı milli yaddaşa həkk olunan əbədi bir qürur mənbəyidir. Torpaqlarımızın işğaldan azad olunması keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışını mümkün etdi. Zəfər Günü Böyük qayıdışın və yenidənqurmanın başlanğıcıdır.

Zəfər Günü ilə birlikdə Cənubi Qafqazda yeni siyasi nizam yarandı. Azərbaycanın Qələbəsi regionda təhlükəsizlik, sülh və sabitliyin əsasını qoymuş, beynəlxalq arenada ölkəmizin mövqeyini gücləndirmişdir. Bu gün gələcək nəsillərə milli irs olaraq ötürüləcək.

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın mahiyyəti 30 ilə yaxın davam edən Qarabağ münaqişəsinin sona çatmasından, Azərbaycan ərazilərinin işğaldan azad olunmasından və regionda sülh və sabitliyin təmin edilməsindən ibarətdir. Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış bu Bəyanat həm hərbi əməliyyatların bitməsini təmin edib, həm də gələcək əməkdaşlıq üçün siyasi və iqtisadi zəmin yaradan tarixi sənəddir.

Üçtərəfli Bəyanat Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü bərpa etməsini rəsmiləşdirdi. Ağdam, Kəlbəcər və Laçın rayonlarının dinc yolla qaytarılması ədalətin bərpasını simvolizə etdi. Bəyanatla hərbi əməliyyatlar dərhal dayandırıldı və atəşkəs elan edildi. Bu, regionda müharibənin bitməsi və uzunmüddətli sülhün qurulması üçün əsas addım oldu. Bəyanat həm də Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur. Xüsusilə Zəngəzur dəhlizi Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında birbaşa bağlantı yaradacaq, bu da regional iqtisadi əməkdaşlığı və ticari əlaqələri gücləndirəcək. Bu da iqtisadi əlaqələr bütün Cənubi Qafqazın inkişafına xidmət edəcək.

Üçtərəfli Bəyanat Cənubi Qafqazda yeni siyasi reallıq yaratdı. Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan bu bəyanat, gələcək sülh prosesləri üçün siyasi dialoqun əsasını qoydu. Bu sənəd regionda qarşılıqlı maraqlar əsasında diplomatik münasibətlərin inkişafı üçün çərçivə təklif edir. Bəyanat Azərbaycanın regionda geosiyasi mövqeyini daha da möhkəmləndirdi və ölkənin beynəlxalq nüfuzunu artırdı.

**Mahir SÜLEYMANLI,**
*Milli Məclisin deputatı*



# İnsanlığın vəhşilik üzərində qələbə çaldığı gün

**Azərbaycan torpaqlarının işğalçı Ermənistan tərəfindən 30 il ərzində əsarətdə saxlanılması ərazi bütövlüyümüzün təmin edilməsi və tarixi ədalətin bərpa olunması üçün hərbi gücdən istifadəni zəruri etdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi cəmi 44 günə dağıda bildi.**



Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. İmzalanmış Bəyanat rəsmi İrəvanın regionun inkişafına təhdid yaradan işğalçı siyasətinə son qoydu. Otuz il ərzində aparılan danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi və "böyük Ermənistan" planı fiaskoya uğradı. Keçmiş "Dağlıq Qarabağ"ın statusunun müəyyən edilməsi məsələsi tarixin arxivinə getdi. Ermənistanın və havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları darmadağın oldu. Artıq 4 ildir ki, xalqımız 30 ilə yaxın gözlədiyi qələbənin sevincini yaşayır. Milli bayramlarımızın sırasına Zəfər Günümüz də daxil olub. Bu Zəfər haqqın şər, insanlığın vəhşilik üzərində qələbə çaldığı gündür. Ölkəmizin dostları və müttəfiqləri Zəfər Gününün sevincini Azərbaycanla birgə yaşadı.

Tarixi qələbəmiz Azərbaycan xalqının milli dəyərlərə söykənən böyük potensialını üzə çıxardı. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil iki əsrdə yoluna qoyulması mümkün olmayan münaqişəni "dəmir yumruğ"un zərbəsi ilə cəmi 44 günün içində həll etdi. Xüsusi vurğulamaq lazımdır ki, BMT tarixində bu, ilk haldır ki, belə bir mötəbər beynəlxalq qurumun qətnamələrini işğala məruz qalan tərəf öz gücünə icra etdi.

İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, birliyi daha da gücləndirdi. Düşmənə qan udduran igid hərbçilərimiz Ermənistan rəhbərliyinə Azərbaycanın qüdrətini qəbul etdirdilər. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və Azərbaycan işğalçı dövləti öz iradəsi qarşısında diz çökdürdü. Məğlub edilən sadəcə Ermənistan ordusu deyil, həm də dünya erməniliyinin mənfur ideologiyası idi.

Vətən müharibəsindən ötən dövrdə Zəfər yürüşünün gözlənilən davamı gəldi, Azərbaycanın dövlət suverenliyi tam bərpa olundu. Bu baxımdan son dörd il bir çox tarixi hadisələrlə zəngin dövrdür. Qarabağın bəzi ərazilərində Ermənistan tərəfindən qanunsuz yerləşdirilən silahlı birləşmələr, diversiya qrupları vaxtaşırı olaraq təxribatlar və terror aktları törətməkdə davam edir, təhlükə mənbəyi olaraq qalırdı. 2023-cü il sentyabrın 18-də erməni silahlı birləşmələrinin basdırdığı minanın partlaması nəticəsində 6 nəfər, o cümlədən, polis əməkdaşları şəhid oldu. Buna cavab olaraq Silahlı Qüvvələrimiz tərəfindən antiterror tədbirlərinə başlanıldı. Sentyabrın 19-da başladılan lokal xarakterli antiterror tədbirləri uğurla nəticələndi. Azərbaycan ərazisindəki qanunsuz silahlı birləşmələrin ön xətdə və dərinlikdə olan mövqeləri, atəş nöqtələri, döyüş vasitələri və bazaları yüksək dəqiqlikli silahlarla vurularaq sıradan çıxarıldı. Cəmi bir sutka davam edən antiterror əməliyyatı Ali Baş Komandanın qətiyyətini, ordumuzun gücünü bir daha nümayiş etdirdi. Düşmən üç il əvvəl olduğu kimi, yenə ağ bayraq qaldıraraq təslim olmağa məcbur edildi. Bununla da Qarabağda terrorçuların və separatçı rejimin mövcudluğuna son qoyuldu, Qarabağ mövzusu birdəfəlik qapandı.

Ötən il oktyabrın 15-də növbəti tarixi hadisənin şahidi olduq. İlham Əliyev prezident seçilməsinin iyirminci ildönümü günündə Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda Dövlət bayrağımızı ucaldaraq daha bir şanlı tarix yazdı, xalqımıza böyük sevinc və qürur yaşatdı. "Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün, nə üçün biz o vaxt - noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da - noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax burada dalğalanan Azərbaycan bayrağıdır... Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" - Müzəffər Ali Baş Komandanın Xankəndidə qürurla dediyi bu sözlər dünyada əks-səda verdi.

Azərbaycan xalqına qarşı müharibə cinayətləri, terror aktları törətmiş şəxslərin, soyqırımı qatillərinin, separatçı rejimin başçılarının yaxalanaraq qandallanması, ədalət məhkəməsi qarşısına çıxarılması hər bir soydaşımızın ürəyindən xəbər verir. Ərazi bütövlüyümüzün bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Bugünkü Azərbaycan, məhz Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Müharibə başa çatdıqdan sonra qarşıda heç də asan olmayan daha bir hədəf - düşmənin darmadağın etdiyi Qarabağı yenidən qurmaq, keçmiş məcburi köçkünləri doğma yurda mümkün qədər tez qaytarmaq vəzifəsi dayanırdı. Çox keçmədən Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi inkişafın bir çox ölkələr üçün nümunə ola biləcək yeni mərhələsinə - Böyük qayıdış proqramına start verildi. Qarabağın və Şərqi Zəngəzurun yüksək inkişaf etmiş regiona çevrilməsi məqsədilə bənzərsiz layihələrin icrasına başlanıldı. Hazırda işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Burada xüsusi vurğulanmalı məqam ondan ibarətdir ki, bu işi Azərbaycan dövləti öz resursları hesabına həyata keçirir. Dövlət başçısı Qarabağa səfərlər zamanı əsas diqqəti həm də erməni vandalizminə məruz qalmış tarixi mədəniyyət abidələrimizin bərpasına yönəldir. Azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir. Azad edilmiş bütün şəhərlərdə İşğal və Zəfər muzeyləri inşa ediləcək. Hərtərəfli iş görülür - infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər...

Xalqımız dörd ildir ki, Azərbaycan Prezidentinin qurub yaratmaq əzminin, müharibədə olduğu kimi, quruculuq işlərində də sonsuz qətiyyət və əzmkarlığının şahididir. Şanlı Zəfərdən Böyük qayıdışa doğru inamlı addımlar atılır, doğma Qarabağımıza yenidən həyat qayıdır. Artıq minlərlə ailənin azad edilmiş şəhər və kəndlərə qayıdışı təmin olunub, onlara yeni evlərin açarları təqdim edilib.

Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Biz 44 günlük Vətən müharibəsində yalnız torpaqlarımızı işğaldan azad etmədik, eyni zamanda, mədəniyyət beşiyimiz Şuşamıza qayıtdıq, "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri kimi ənənələr bərpa edildi. Muğamlarımız yenidən Qarabağın səmalarında qanadlandı. Eyni zamanda Qarabağın tacı Şuşa Azərbaycan və Türkiyə birliyinin, həmrəyliyinin zirvəsi olan Şuşa Müttəfiqlik Bəyannaməsinin imzalanmasına şahidlik etdi. Şuşa Bəyannaməsi dünyaya bir sıra mesajlarını çatdırdı. 28 il Şuşanı erməniləşdirməyə çalışanlar atılan bu addımların fonunda bir daha bu reallığın şahidi oldular ki, tarixi inkar etmək qeyri-mümkündür.

Bu gün Azərbaycan dövləti işğalçı Ermənistana sülh razılaşmasını imzalamağı təklif etməklə humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirir. Ancaq Ermənistan yenə də xislətinə uyğun olaraq müxtəlif bəhanələrlə sülh razılaşmasını imzalamaqdan yayınır. Amma Ali Baş Komandanımızın da dediyi kimi, Azərbaycanın tələbi də ortadadır - sülh təklifi masa üzərində daimi saxlanıla bilməz.

Bu gün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Çünki onun illər öncə arzuladığı azad Qarabağ məntiqi sonluğuna çatıb, müharibə şanlı Zəfərlə yekunlaşıb. Azərbaycan xalqı əmindir ki, bu zəfərlərin davamı gələcək, Prezident İlham Əliyevin liderliyi ilə bundan sonra da yeni-yeni qələbələrə imza atılacaq.

***Kamran BAYRAMOV,***
***Milli Məclisin deputatı***

# Xilaskar Komandan

**"Tarixin hansı qatlarına ensək, hansı qaynaqları araşdırsaq, orada yalnız Azərbaycan xalqının yaratdığı mədəniyyətdən, ədəbiyyatdan, qurduğu dövlətlərin qüdrətindən, həmin dövlətlərin ədalətli mövqeyindən, sülhsevər siyasətindən bəhs olunur. Bu gün hər birimiz qədim dünyaya qədər gedib çıxan şanlı tariximizlə həm də ona görə öyünürük ki, keçmişimiz aydın və təmizdir, xalqımızın təbiətindən işğal, təcavüzkarlıq kimi anlayışlar tamamilə uzaqdır. Xalqımızın taleyində keşməkeşli yollar da olub, yadellilərin hücumlarına da məruz qalmışıq, xain işğalla da üzləşmişik. Lakin düşmənlə rəşadətlə döyüşərək azadlıq və torpaq yolunda yorulmadan mübarizə aparmışıq".**



Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri Sahib Məmmədov mətbuata açıqlamasında deyib.

S.Məmmədov qeyd edib ki, milli kimliyimizi əlimizdən almaq, torpaqlarımızı mənimsəmək, hətta tariximizi unutdurmaq istəyənlərin planları, sözsüz ki, axırda iflasa uğrayıb. Əhəmiyyətinə görə tariximizin ən şanlı səhifəsi olan Şərqi Zəngəzurun və Qarabağın Ermənistan işğalından azad edilməsi bunun əyani sübutudur. Cəmi 44 gün davam etməsinə baxmayaraq, özündə ikiəsrlik münaqişəni, 30 illik müharibəni birləşdirir. Müharibənin sonralar özünü göstərən yeni nəticələri də haqq savaşımızın mahiyyətini, fəlsəfəsini bir daha dərindən dərk etməyə imkan verir. Ermənistan və havadarları hesab edirdilər ki, Azərbaycan hayların müxtəlif vaxtlarda apardıqları etnik təmizləməni, törətdikləri soyqırımları unudacaq, torpaqlarının işğalı ilə barışacaq. Amma, görünür, onlar xalqımızın xarakterinə və keçmişinə dərindən bələd deyilmişlər.

Onun sözlərinə görə, Azərbaycan yetkin və məsuliyyətli dövlət olaraq hər zaman beynəlxalq hüquqa hörmətlə yanaşıb, fəaliyyətində bu prinsipləri əsas götürüb: "Artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin sülh yolu ilə həllində də Azərbaycan beynəlxalq hüquqa əsaslanırdı. Lakin uzun illər aparılmış danışıqlar heç bir nəticə vermədi. Münaqişənin nizamlanması məqsədilə yaradılan ATƏT-in Minsk qrupu isə, ümumiyyətlə, üzərinə düşən məsuliyyəti dərk etmir və qərəzli mövqe sərgiləyirdi. Aydın görünürdü ki, burada məqsəd faktları görməzdən gəlmək və mövcud vəziyyəti olduğu kimi saxlamaq idi. Hətta diqqəti münaqişənin ədalətli həllindən yayındırmaq üçün başqa mənasız problemlər də qabardılırdı, nəzərlər digər istiqamətlərə yönəldilirdi, ikili standartlar da öz yerində idi. Bir az da uzağa gedərək utanmadan Azərbaycandan güzəşt istəyir, münaqişənin həllində hərb variantını istisna edirdilər. Cənab Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ana xəttini, mütləq prioritetini Azərbaycanın ərazi bütövlüyünün təmin olunması təşkil etməsi şübhəsiz idi. Görülən bütün işlərin, atılan addımların mərkəzində də bu ali missiya dayanırdı. Cənab İlham Əliyev qarşı tərəfin bütün çirkin planlarının, işğal mahiyyətli siyasətinin qarşısında möhkəm dayandı, diplomatik bacarığı, düşünülmüş addımları və tutarlı arqumentləri ilə təcavüzkar siyasəti ifşa etdi, danışıqlar masasında dövlətimizin maraqlarını, xalqımızın mənafeyini ləyaqətlə qorudu".

"Dərin siyasi zəkası ilə prosesləri düzgün qiymətləndirən, hadisələrin hansı məcrada davam edəcəyini öncədən bilən uzaqgörən siyasətçi cənab Prezident İlham Əliyev münaqişənin həllində alternativ variantı da diqqətdən qaçırmırdı. Paralel olaraq ordu quruculuğu işi də davam etdirilir, silahlı qüvvələrimizin döyüş qabiliyyəti durmadan artırılır, müasir silah-sursat, texnika ilə təchiz olunurdu. Eləcə də ölkəmizdə hərbi sənaye kompleksinin yaradılması Azərbaycanın gücünü dəfələrlə yüksəltdi, müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunmağa başlandı. Pis vərdişlərdən və düşüncələrdən uzaq, sağlam ruhda, yalnız Vətənini, dövlətini və xalqını düşünən, torpaqlarını azad etməyi özünün həyat amalına çevirən yeni nəsil gənclər ordusu yetişdi. Azərbaycan gəncləri hərbi xidmətə böyük həvəslə can atır, Ali Baş Komandan cənab İlham Əliyevin "İrəli" əmrini səbirsizliklə gözləyirdilər. Bütün sahələr üzrə dinamik inkişaf edən Azərbaycan, demək olar ki, işğalçı dövlət üzərində tam üstünlüyü təmin etmişdi", - AHİK sədri bildirib.

"İşğal dövründə, danışıqların aparıldığı vaxtlarda təcavüzkar dövlət hərbi təxribatlara tez-tez əl atır, cəbhəboyu kəndləri atəşə tutur, həmişə də layiqli cavabını alırdı. 2020-ci il sentyabrın 27-də baş verən hərbi təxribat isə yenilməz Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə nəticələndi. Proseslər göstərdi ki, cənab Prezident İlham Əliyev Ali Baş Komandan kimi hansı işi nə vaxt və haradan başlamağı, necə idarə etməyi və uğuru necə qazanmağı dərindən bilir. Vətən müharibəsində bütün məqamlar zərgər dəqiqliyi ilə hesablanmışdı. Düşmən və onu müdafiə edən qüvvələr heç gözlərini aça bilmədilər, aciz durumda qaldılar. Xalqımızda Qarabağ eşqi o qədər yüksək idi ki, "İrəli" əmrini alan kimi bir anda səfərbər oldu, hamı müharibəyə kökləndi və ürəklər ordumuzla bir döyündü. Demək olar ki, hər kəs Qələbə əhvali-ruhiyyəsində idi, gənclərimiz isə tam ayaqda. Həmin vaxt xalqımızın nümayiş etdirdiyi həmrəylik, vətənpərvərlik duyğusu bu gün də beynəlxalq ictimaiyyət tərəfindən müzakirə və təqdir olunur. "Dəmir yumruq" əməliyyatının isə dünya tarixində bənzəri yoxdur. Hər bir rayon, qəsəbə, kənd özünəməxsus hərbi taktika ilə azad olunurdu və ordumuz düşmənin gözləmədiyi yerdən irəliləyirdi. Düşmən tərəfinin ilk gündən dəqiq hesabladığı yalnız bir şey var idi: məğlubiyyət qaçılmazdır. Odur ki, nəinki əsgərləri, hətta zabitləri belə döyüşə girməkdən çəkinir, silahı atıb qaçırdılar. Heç də təsadüfi deyil ki, özlərinin də etiraf etdiyi kimi, 10 mindən artıq fərariləri olub. Bax budur, "Dəmir yumruq" əməliyyatının mahiyyəti", - deyə Sahib Məmmədov vurğulayıb.

Konfederasiya sədri qeyd edib ki, "Dəmir yumruq" əməliyyatı cəmi 44 gün çəkdi və az itki ilə 30 ilə yaxın müddət ərzində işğal altında olan böyük bir ərazi düşməndən təmizləndi: "Amma nəticələr bununla kifayətlənmir. Birincisi, 200 il idi bu münaqişə öz həllini tapmırdı, təcavüzkar ermənilər fürsət düşən kimi ərazilərimizi özününküləşdirməyə çalışır, toponimləri dəyişir, etnik təmizləmə aparır və soyqırımı törədirdilər. Vətən müharibəsində düşmənə elə zərbə vuruldu ki, hətta bir də xain xislətlə Azərbaycanla üz-üzə gəlməyəcək tərzdə. Eyni zamanda döyüş meydanında törədilən soyqırımların qisası misli ilə alındı. İkincisi, Azərbaycan işğalçıların Şərqi Zəngəzurda və Qarabağda törətdiyi vəhşilikləri, barbarlığı dünya ictimaiyyətinə faktlarla təqdim etməklə onların əsl simasını və niyyətini göstərdi. Üçüncüsü, öz evində, sakini olduğu torpaqlarda yaşamaq hüququ əlindən alınmış bir milyondan artıq məcburi köçkünün hüquqları bərpa olundu. Təəssüf ki, insan hüquqlarından ağızdolusu danışan, yalançı və qərəz dolu hesabatlar hazırlayan təşkilatlar, özünü böyük kimi dünyaya sırıyan dövlətlər nədənsə 30 il bu məsələdən yan keçdilər, bu problemi bir dəfə də olsun dillərinə gətirmədilər. Dördüncüsü, bütün dünya ölkəmizin hərbi qüdrətinə, döyüş taktikasına yaxından bələd oldu. Azərbaycan Ermənistandan fərqli olaraq elə müharibə apardı ki, bir nəfər də dinc sakin öldürülmədi, mülki obyektlər zərər görmədi. Eyni zamanda keçirilən hər bir əməliyyat uğurla nəticələndi. Heç də təsadüfi deyil ki, "Dəmir yumruq" əməliyyatı, o cümlədən Azərbaycanın döyüş təcrübəsi və tətbiq etdiyi taktika dünyanın nüfuzlu hərbi məktəblərində bu gün hərtərəfli öyrənilir. Bundan başqa, xalqımızın həmrəyliyi, cəmiyyətimizin yetkinliyi, gənclərimizin Vətənə məhəbbəti, dövlətə sədaqəti dünyaya məlum oldu. Həmçinin 30 il beynəlxalq hüququn pozulmuş müddəalarının Azərbaycan tərəfindən təkbaşına bərpa edilməsi, bununla ikili standartlara, qərəzli yanaşmalara layiqli cavab verilməsi müharibənin nəticələri sırasındadır".

AHİK sədri əlavə edib ki, Qarabağda hərbi təxribatlara cavab olaraq 2023-cü ildə yüksək peşəkarlıqla hazırlanan və həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ordumuzun artan gücünü göstərməklə yanaşı, bilavasitə Vətən müharibəsində qazanılan uğurların davamı idi: "Azərbaycan Qarabağda kök salmış separatizm yuvasını birdəfəlik məhv etməklə dünyanın müxtəlif ərazilərində daim sülh və təhlükəsizliyi təhdid edən, günahsız insanların ölümünə səbəb olan separatçılara böyük dərs verdi. Məhv edilmiş separatizmin nümayəndələri, vaxtı ilə özünü qondarma dövlətin rəhbərliyi hesab edən, əli günahsız insanların qanına bulaşmış qatillər bu gün Azərbaycan məhkəməsi qarşısında cavab verirlər. Ölkəmiz regiona sülh və təhlükəsizlik, yeni inkişaf reallıqları gətirdi və yerləşdiyi coğrafiyanın lideri olduğunu sübut etdi. Aydın görünür ki, bu, haqqın, ədalətin qələbəsidir və dünyanın tərəqqipərvər qüvvələri tərəfindən təqdir olunur. Lakin, təəssüflər olsun ki, bu gün dünyada Azərbaycanın haqq işinə kölgə salanlar, yalan və qərəzli ittiham səsləndirənlər də var. Amma unutmasınlar, 30 illik çirkin planları kimi, bu niyyətləri də mütləq puç olacaq".

"Azərbaycanın qazandığı uğurların, yaratdığı reallıqların bilavasitə müəllifi tariximizin ən böyük strateqi cənab İlham Əliyevdir. Dövlət başçısı dərin zəkası, siyasi bacarığı, qətiyyətli mövqeyi və yüksək sərkərdəlik məharəti ilə 200 illik münaqişəni xalqımızın qələbəsi ilə həll etməyi bacardı və bizi daha böyük nailiyyətlərə istiqamətləndirdi. Şərqi Zəngəzurun və Qarabağın Baş Memarı həmin ərazilərdə şəhərlər, qəsəbələr, kəndlər inşa edir. Əminik ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin və xalqının daha böyük nailiyyətləri hələ qarşıdadır", - deyən Sahib Məmmədov bununla fikrini tamamlayıb.

***"Azərbaycan"***

# ZƏFƏR gündəliyi
## 7 noyabr 2020-ci il

### Erməni əsgəri döyüşməkdən imtina edib

Noyabrın 7-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub. Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Cəbhənin Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində döyüş mövqelərinin artilleriya atəşinə tutulması nəticəsində şəxsi heyət arasında ölən və yaralananlar olub. Düşmənin bir neçə avtomobil texnikası və minaatan qurğusu sıradan çıxarılıb.

Azərbaycan Ordusu bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının 1-ci taboru bölmələrinin şəxsi heyəti arasında itkilər var. Düşmənin D-30 artilleriya diviziyonunun 3-cü batareyasının topları da sıradan çıxarılıb.

### Prezident İlham Əliyevdən xalqa müjdəli xəbər

Prezident İlham Əliyev rəsmi "Tvitter" (indiki "X") hesabında müjdəli xəbər paylaşıb: "Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"



### Tərtər və Ağdamın kəndləri artilleriya atəşinə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Şıxarx qəsəbəsini, Qazyan və Hüsənli kəndlərini, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini və Ağdamin Çullu və Çıraqlı kəndlərini artilleriya atəşinə tutub.

### Ermənistanın daha bir yalanı ifşa edilib

Ermənistan daha bir dezinformasiya yayıb. Guya Qubadlı rayonu ərazisindən Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi bölmələrimiz tərəfindən atəşə tutulub. Müdafiə Nazirliyi bildirib ki, bu, Ermənistan tərəfinin yaydığı təxribat xarakterli növbəti dezinformasiyadır. Əksinə, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan ərazisindən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusu bölmələrinin mövqelərini gün ərzində intensiv atəşə tutub. Ordumuz yalnız sərhədlərimiz çərçivəsində düşmənin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görüb.

### Bərdə atəşə tutulub, bir nəfər həlak olub

Ermənistan silahlı qüvvələrinin bölmələri Bərdə rayonunun Əyricə kəndini atəşə tutub. Nəticədə bir nəfər kənd sakini həlak olub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

### Bu gün Neft Daşlarının 75 yaşı tamam olur



Foto Ağəli MƏMMƏDOVUNDUR

**"Neft Daşlarında işləyən hər kəs ən böyük hörmətə layiq bir insandır. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz". Bu sözlər Ulu Öndər Heydər Əliyevə məxsusdur. Bəli, Neft Daşlarını gərək gözlərinlə görəsən. Onu təsəvvürdə canlandırmaq, təxəyyüldə yaratmaq çətindir.**

# "Neft Daşları əsl qəhrəmanlıq məktəbidir"

## Bunu ömrünün 40 ilini "möcüzələr adası"nda keçirmiş veteran neftçi deyir

Neft Daşlarının bənzəri, analoqu yoxdur. Dünya dəniz nefti erasının başlandığı bu məkana bir jurnalist kimi çoxsaylı səfərlərimizdən sonra gəldiyimiz başlıca qənaət də budur. Elə həmin səbəbdən də bu gün 75 yaşını qeyd edən Neft Daşlarının inkişaf tarixini onun veteranlarından biri ilə vərəqləmək qərarına gəldik.

Ömrünün 40 ili Neft Daşlarında keçmiş Zeynal Abdullayev vaxtilə çiyin-çiyinə çalışdığı neçə-neçə fədakar neftçini xatırladı. Müxtəlif illərdə "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinə rəhbərlik etmiş, az qala əfsanəyə dönmüş Bəxtiyar Məmmədovu, Bəhmən Hacıyevi, Neftçi Qurbanı (Qurban Abbasov) yada saldı. Onların Xəzərin qoynunda göstərdikləri hünərlərə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldüklərindən bəhs etdi.

- Neft Daşları dünyada dəniz neftçıxarmasının beşiyidir, - deyir həmsöhbətimiz. - Buradan neft süni ada yaradılmaqla əldə olunub. Belə ki, əraziyə köhnə gəmilər gətirilərək suda batırılıb və bununla da iş üçün meydan təşkil olunub. 1949-cu il noyabrın 7-də əvvəllər "Qara daşlar" adlanan həmin ərazidə 100 ton neft debiti ilə 1 nömrəli quyu fontan vurub. Həmin quyu bugünədək xatirə kimi qorunur. Sonrakı illərdə Neft Daşlarında estakada və meydançalar tikilib, geniş tikinti və qazma işləri aparılıb, nəhəng infrastruktur qurulub. Daha sonra bu işlər əvvəlkindən də böyük vüsət alıb, üstəlik, 5 və 9 mərtəbəli binalardan ibarət yaşayış kompleksi yaradılıb.

Zeynal Abdullayev 40 il bu işlərin bilavasitə iştirakçısı olduğundan qürur duyur. Öz ömürnaməsini də vərəqləyərək onu Neft Daşlarına gətirən yola yenidən nəzər salır.

1979-cu ildə İnşaat Mühəndisləri İnstitutunu (indi Memarlıq və İnşaat Universiteti) mühəndis-hidrotexnik ixtisası ilə bitirən gənc mütəxəssis və daha iki tələbə yoldaşı gələcək işləri üçün neft sənayesini seçirlər. Bu seçimə əsasən, onlara "Xəzərdənizneftqaz" İstehsalat Birliyinə təyinat verilir.

- İstehsalat Birliyində bildirdilər ki, bizi Neft Daşlarına göndərirlər. Çünki Neft Daşları başdan-başa qurğulardan ibarət olduğuna görə orada hidrotexnikə də həmişə ehtiyac var. Demə, həmin vaxt orada rəis olan məşhur Neftçi Qurban dəniz şəhərinə gənc mütəxəssislərin göndərilməsi tələbi ilə çıxış edibmiş. Doğrusu, Neft Daşlarının adını eşidəndə həyəcanlandıq. Belə məsuliyyətli bir sahəyə göndəriləcəyimizi güman etməmişdik. Bununla belə, dəniz vağzalında "Baba Babazadə" gəmisinə minib mənzil başına yollandıq. Məkan bizə çox maraqlı göründü və elə ilk andan da qərara gəldik ki, qalıb burada işləyək.

1979-cu il avqustun 19-da olmuşdu bunlar. Zeynal Abdullayevi tikinti-quraşdırma sahəsinə 5-ci dərəcəli quraşdırıcı çilingər kimi işə qəbul etmişdilər. Bir il belə keçmədən isə o, əsgəri xidmətə çağırılır. Lakin sonra yenə də düşünmədən Neft Daşlarına qayıdır. 1981-ci ilin noyabrından əvvəlki işində çalışır. Beləcə, iki ilə yaxın çilingər işləyən, necə deyərlər, bərkdən-boşdan çıxan gənc mütəxəssis hidrotexniki qurğular istehsalat şöbəsinə mühəndis-geodezist təyin olunur.

Həmsöhbətimiz 1983-cü ilin avqustundan 1984-cü ilin sentyabrınadək Mənzil-Kommunal İdarəsinin baş mühəndisi, sonra 1989-cu ilədək Mənzil-Kommunal İdarəsinin rəisi, bundan sonra isə 2006-cı ilədək hidrotexniki qurğular istehsalat şöbəsinin rəisi, həmin ilin mart ayından 2021-ci ilin iyul ayına kimi "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin ümumi işlər üzrə rəis müavini vəzifələrində çalışıb. İki il "Abşeronneft"də rəis müavini olub. Hazırda pensiyaçıdır.

Tutduğu bütün vəzifələrin hər birində fərqlənib. 2012-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə təltif olunduğu "Tərəqqi" medalı, 2019-cu ildə layiq görüldüyü "Fəxri neftçi" adı, respublikanın "Əmək veteranı" olması, daha neçə-neçə mükafat və fəxri fərman bunun təsdiqidir.

- Neft Daşları mənə çox şey verib, - deyir Zeynal müəllim. - O vaxt gənc mütəxəssis kimi mənə verilən ikiotaqlı mənzilin sevincini hələ də unutmamışam. Amma söhbət təkcə maddiyyatdan getmir. Bilirsinizmi, Neft Daşlarında qorxmaz insanlar çalışır. Mən orada cəsarətli, odun-alovun içindən çıxmış insanlar gördüm. Bunlar eyni zamanda mehriban, dostluğa sadiq insanlardır. Burada neftçıxaranlar, qazmaçılar, tibb və iaşə sahələrinin işçiləri bir-birilə səmimi, mehriban dolanırdılar. Söz yox ki, yenə də belədir.

Zeynal Abdullayevin fikrincə, Neft Daşları bir qəhrəmanlıq məktəbi, bu məktəbi keçənlər isə qəhrəmanlardır.

Elə müsahibimizin özü də burada az sınaqdan keçməyib. İndi arxaya baxıb Şərurun Oğlanqala kəndindən başlayan 68 illik ömür yollarına nəzər salanda Neft Daşlarından keçən "məsafə"də də duyğusuz, həyəcansız qala bilmir. Axı dəli-dolu Xəzərin qoynunda, ekstremal iş şəraitində "sürpriz"lər də az olmayıb. Bir dəfə dəniz narahat olanda mindiyi gəminin sərnişin körpüsü, bir dəfə də fırtına zamanı gözü qarşısında estakada və meydança uçub. Deyir ki, nə yaxşı uşaqlıqda Arpa çayında üzməyi öyrənmişdim... Sualtı borular və kabellər çəkilən vaxtı "Şirvan" və "Şirvan-2" gəmilərində keçirdiyi günləri də həyəcansız xatırlaya bilmir.

Bu, bir neftçi ömrüdür. Minlərlə fədakar Xəzər neftçisindən birinin ömrü. Bu gün birinin timsalında adlarını sadalaya bilmədiyimiz hamısını yad etdik. O neftçilərin ki, günlərlə evlərindən, ailələrindən uzaqda, üstəlik də, ekstremal şəraitdə yaşayıb işləyirlər. Soyuğa, sazağa, küləyə dözürlər. Təbii ki, bu, səhhətlərinə də təsirsiz ötüşmür. Nə deyəsən? Onlar da əsgərlərdir, neft cəbhəsinin əsgərləri. Vətənə xidmətin bu növünü seçiblər.

Neft Daşlarından xeyli vaxtdır ayrılsa da, bu unudulmaz məkan hər gün qəhrəmanımızın qəlbindədir, gözündədir. Neft Daşları elə həmin Neft Daşlarıdır. Bu barədə mətbuatdan, eləcə də indi SOCAR-ın müxtəlif strukturlarında çalışan yetirmələrindən xəbər tutur. Onlar ağsaqqalı yaddan çıxarmırlar, elə bir bayram olmaz ki, zəng vurmasınlar. Yeri gəlmişkən, elə Zeynal müəllimin öz oğlu Samir Abdullayev də yetirmələrindən biridir. Hazırda "Azəriqaz" İstehsalat Birliyində mühəndis işləyir.

- Deyirlər, Neft Daşları nə vaxtsa muzey olacaq...

Zeynal müəllim bu fikirlə barışmaq istəmir:

- O vaxta hələ çox qalıb. Düşünürəm ki, bəlkə də ən azı 50 il... Doğrudur, indi "yaşıl enerji"yə keçid edirik. Bununla belə, neftə, qaza həmişə ehtiyac var. Möhtərəm Prezidentimiz İlham Əliyev qarşıya ölkədə neft hasilatının sabit olması tələbini qoyub. Yeni yataqlar kəşf etməklə yanaşı, köhnə yataqları da bərpa etməliyik. Bir də ki, Neft Daşları çox zəngin infrastruktura malikdir. Xəzərin Azərbaycan sektorundakı bir sıra digər yataqlardan hasil olunan karbohidrogenlərin sahilə nəqli üçün bu infrastrukturdan səmərəli şəkildə istifadə edilir.

Bu da bir həqiqətdir ki, vaxtilə Neft Daşları kəşf edilməsə, kim bilir, sonrakı yataqların "tale"yi necə olardı. Ulu Öndər Heydər Əliyevin təbirincə desək, Neft Daşları olmasaydı, nə "Azəri-Çıraq-Günəşli" olardı, nə Bakı-Tbilisi-Ceyhan...

- Odur ki, əgər Neft Daşları nə vaxtsa muzey olarsa, bu, Azərbaycan neftinin, qazının və neftçilərinin keçdiyi şanlı yolu göstərən ən əyani vasitə olar, - bu da Neft Daşlarının timsalında həyatını Azərbaycanın neft sənayesinin inkişafına həsr etmiş Zeynal Abdullayevin fikridir.

*Flora SADIQLI, "Azərbaycan"*

# Son bir ayda 300-dən çox şəhid ailəsi üzvü və müharibə veteranı üçün təsərrüfatlar qurulub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq proqramı iştirakçılarına aktivlərin paylanması prosesini davam etdirir.**

Proqram çərçivəsində, həmçinin nazirlik tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" üzrə oktyabr ayında daha 305 şəhid ailəsi üzvü və müharibə veteranı mal və materiallar formasında aktivlərlə təmin olunub. Biznes planlarına uyğun olaraq həmin vətəndaşlara "Avtoelektrik xidməti", "Kombi ustası və təmiri xidməti", "Kiçik foto atelye", "Maldarlıq təsərrüfatı", "Keçiçilik təsərrüfatı" və s. istiqamətlər üzrə aktivlər verilərək onlar üçün təsərrüfatlar qurulub.

# DOST-un növbəti beynəlxalq uğuru

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyi növbəti dəfə Avropa Sosial Şəbəkəsinin "European Social Services Awards - 2024" (ESSA 2024) müsabiqəsinin qalibi olub.**




Müsabiqə sosial xidmətlər sahəsində təşəbbüsləri, insanların qayğı ilə əhatə olunması üçün kreativ həllərin tətbiqini, yeni texnologiya alətlərinin işə salınması və s. üzrə əldə olunan nəticələri dəyərləndirmək məqsədi daşıyıb.

DOST Agentliyi "Rəqəmsal transformasiya" kateqoriyasında əlilliyi olan şəxslər və digər risk qrupu nümayəndələri üçün veb-əlçatanlığın təmin olunmasına görə Avropa Sosial Xidmətlər Mükafatına layiq görülüb.

Təltifetmə mərasimi Portuqaliyanın Lissabon şəhərində baş tutub. Müsabiqənin qalibləri münsiflər heyətinin səsləri (85 faiz) və ictimai səsvermənin (15 faiz) nəticəsinin cəmi əsasında müəyyən olunub. DOST Agentliyi "Digital Transformation" nominasiyası üzrə Böyük Britaniya, İspaniya və Ukrayna kimi ölkələr tərəfindən təqdim edilən və finala çıxmış ümumilikdə 5 layihə arasından maksimum nəticə ilə qalib elan edilib.

DOST Agentliyinin müsabiqəyə təqdim etdiyi layihənin məqsədi əlilliyi olan şəxslərin informasiya resurslarına çıxışını təmin etmək üçün davamlı icra mexanizmini işləyib hazırlamaq, işlək vəziyyətə gətirmək və qanunvericiliklə əlilliyi olan şəxslər üçün xidmət mühitindən istifadə arasında fərqi aradan qaldırmaq olub. Nəticədə əlilliyi olan şəxslərin vətəndaş məmnunluğu səviyyəsi ardıcıl olaraq yüksək (98 faiz) səviyyədə saxlanılıb.

# Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi imzalanıb

**İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) təşəbbüsü ilə hazırlanan Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi (DEPA) imzalanıb.**

Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatının XI Zirvə görüşü çərçivəsində üzv dövlətlər arasında Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi (DEPA) imzalanıb. İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) təşəbbüsü ilə hazırlanan sənədin icrası TDT üzv dövlətləri arasında elektron ticarətin inkişafı, qanunvericiliyin uyğunlaşdırılması, gömrük tənzimləmələri, maliyyə texnologiyaları (FinTech) kimi mühüm istiqamətlərdə əməkdaşlığımızı dərinləşdirəcək.

Bununla yanaşı, təşkilata üzv dövlətlər arasında rəqəmsal ticarətdə istehlakçı hüquqlarının müdafiəsi və kibertəhlükəsizlik sahələrində imkanlarımızı birləşdirməyə töhfə verəcəkdir.

# Dövlət-sahibkar tərəfdaşlığı sağlam rəqabətin qarantıdır

**Azərbaycanda iqtisadi islahatların uğurla aparılmasında dövlətin sahibkarlara verdiyi dəstək mexanizmləri mühüm rol oynayır. Özəl sektorun inkişafı üçün dövlət tərəfindən atılmış addımlar - sahibkarlara güzəştli kreditlərin, stimullaşdırma məqsədilə investisiya təşviqi sənədlərinin verilməsi ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin sayının artmasına, mühüm investisiya layihələrinin icrasına yol açır.**



Sahibkarlığın inkişafına nail olmaq üçün təbii ki, ölkədə əlverişli mühitin yaradılması mühüm şərtdir. Həmin mühit azad biznes və özəl sektora dövlət dəstəyidir. Bu, o deməkdir ki, dövlət tərəfindən təmin edilən azad bazar institutu ölkədə sahibkarlığın inkişafına şərait yaratmaqla bərabər, həm də biznes sahəsində fəaliyyət göstərənlərə geniş imkanlar verir. Bəllidir ki, bu gün iqtisadiyyatın genişləndirilməsi, kiçik və orta biznesin dayanıqlı inkişafının təmin edilməsi və nəticə etibarı ilə özəl sektorda gəlirliliyin və istehlak mallarının istehsalının artırılması Azərbaycanda prioritet istiqamətlərdən biri hesab olunur. Prezident İlham Əliyevin 2021-ci ilin fevralında imzaladığı "2030: sosial iqtisadi inkişafa dair milli prioritetlər" həm iqtisadiyyatın şaxələndirilməsi, həm də sahibkarlığın inkişafı üçün bir bazadır.

Əldə olunan hər bir uğurun kökündə rəqabətli mühitin yaradılması və bu əlverişli şəraitdən doğru istifadə etmək dayanır. Bəs əlverişli mühit nədir? Rəqabət mühiti dedikdə inhisarçılıq olmadan mümkün şəraitdən, imkanlardan bərabər şəkildə istifadə nəzərdə tutulur. Əlverişli mühitin olmadığı, yaxud bu və ya digər səbəblərdən məhdudlaşdırıldığı halda bazar iqtisadiyyatından söhbət gedə bilməz. Ona görə də hökumətlər belə bir mühitin yaranması, onun təşviq edilməsi üçün fərqli yanaşmalar ortaya qoyurlar. Bu baxımdan Azərbaycan da istisna deyil.

Ölkəmizdə şəffaf rəqabət mühiti mövcuddur. Bundan ilk növbədə sahibkarlar yararlanırlar. Məsələn, sənaye parklarının rezidentlərinin qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak və torpaq, gəlir və mənfəət vergilərindən, istehsal məqsədilə aldıqları texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunması məhz şəffaf mühitdən xəbər verir. Bu mühitin təkmilləşdirilməsi və genişləndirilməsi isə dövlət dəstəyi sayəsində mümkün olur. Bunlar Azərbaycanda həyata keçirilən iqtisadi inkişaf strategiyasının, sahibkarlığa verilən dəstəyin göstəriciləridir. Çünki iqtisadiyyatın davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir.

Bu vəzifələri özündə ehtiva edən əsas şərtlərdən biri də dövlətlə sahibkarlar arasında tərəfdaşlığın institusional formada həyata keçirilməsidir. Sahibkarlığın İnkişafı Fondu (SİF), İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (İİTF), İpoteka və Kredit Zəmanət Fondu (İKZF), Biznes Tədris mərkəzləri dövlət-sahibkar münasibətlərinin sivil müstəvidə inkişafında əhəmiyyətli rol oynayır. Bu təsisatların hər biri sahibkarlarla birgə işləyir, iş adamlarının qarşılarına çıxan çətinliklərin həll olunmasında dəstəklərini əsirgəmirlər. SİF tərəfindən sahibkarlara verilən güzəştli kreditlər isə onlara öz layihələrini vaxtında həyata keçirməyə təkan verir. Məsələn, 2024-cü ilin 9 ayı ərzində sahibkarların 4116 layihəsinə SİF tərəfindən 167,6 milyon manat güzəştli kredit verilib. Fondun məlumatına görə, bu dövr ərzində SİF-in güzəştli kreditlərdən 327 qadın sahibkar da yararlanıb və onların layihələrinə ümumilikdə 9,9 milyon manat güzəştli kredit verilib. 123 gənc sahibkar isə təqdim etdikləri layihələr üzrə ümumilikdə 4,6 milyon manat güzəştli kredit əldə edib.

Bu məsələdə İKZF-nin da iştirakını qeyd etməliyik. Fondun məlumatına görə, indiyədək müvəkkil banklar tərəfindən fondun zəmanəti ilə sahibkarlara güzəştli şərtlərlə 500 milyon manatdan artıq kredit verilib ki, bunun da 65 milyon 155 min manatı cari ilin yanvar-sentyabr aylarının payına düşür. Mexanizm çərçivəsində bu günədək zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, İKZF tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki faiz dərəcəsi 6 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək olub. Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişafı ilə bağlı sahələrə, maşın və avadanlıq istehsalına, ticarət və xidmət sektoruna yönəldilib.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*




AZERBAIJAN COP29

Yaşıl dünya naminə həmrəylik ili 2024





# Bakı COP29-a hazırdır

## Dünyanın "yaşıl enerji"yə transformasiya nəbzi Azərbaycanda döyünəcək

**BMT Təhlükəsizlik Şurasına, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlara uğurlu sədrlik edən, Avropa Oyunlarının standartlarını müəyyənləşdirən, İslam Həmrəyliyi Oyunlarına, siyasi-iqtisadi beynəlxalq forumlara, konfranslara ən layiqli şəkildə evsahibliyi ilə nüfuzunu artıran Azərbaycan indi müstəqillik tarixinin ən böyük tədbirinə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu qlobal konfransına (COP29) hazırlaşır.**




Gələn həftə dünyanın nəzəri Azərbaycana yönələcək.

Əlbəttə ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi ölkəmizin üzərinə böyük məsuliyyət qoyur. Ancaq bu sahədəki təcrübə yetərlidir ki, bu beynəlxalq konfransı da ən yüksək səviyyədə keçirə bilək.

Ölkəmizin evsahibliyi edəcəyi bu beynəlxalq sammit öncəsi Bakıda və işğaldan azad edilmiş şəhərlərimizdə mühüm konfranslar, forumlar təşkil edilib. Bu toplantılar, görülən hazırlıq işləri onu deməyə əsas verir ki, gələn həftə Azərbaycanın COP29-a evsahibliyi etməsi fonunda dünyanın təmiz enerjiyə transformasiya nəbzi ölkəmizdə döyünəcək. Azərbaycanın isə tədbirə yüksəksəviyyəli təşkilatçılıq edəcəyi heç kimdə şübhə doğurmur.






Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, ölkəmizdə, xüsusən Bakıda COP29-a yüksək səviyyədə hazırlıq işləri görülüb. Bu istiqamətdə müxtəlif layihələr həyata keçirilib.




Noyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olarkən bəlli olub ki, COP29-un keçiriləcəyi tarixlərdə tədbir məkanı yük və sərnişindaşıma, eləcə də tibbi və yanğınsöndürmə üçün elektrikli minimobilləri, sammit zamanı yüksəksəviyyəli qonaqların ərazidə hərəkətini təmin etmək üçün elektrikli qolf-mobillər və elektrikli avtobuslar, həmçinin tədbir günlərində şəhər ərazisində hərəkət edəcək digər elektrikli nəqliyyat vasitələri tam hazırlıqlı vəziyyətdədir.



COP29-un rəsmi "mavi zona"sında açılış mərasimində milli bəyanatların səsləndiriləcəyi "Nizami" plenar iclas zalı, İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti üçün hazırlanan məkanlar, eləcə də rəsmi danışıqların aparılacağı sahələrdə təşkil edilən çoxfunksiyalı müxtəlif görüş otaqları yaradılıb. Burada Azərbaycanın mədəniyyəti və təbiətini təbliğ edən müxtəlif ekspozisiya və sərgilər var.

Bakı küçələri də bu mötəbər sammitə hazırdır. COP29 tədbirlərinin davam edəcəyi günlərdə avtomobillərin maneəsiz və rahat gediş-gəlişinin təmin olunması məqsədilə yollarda xüsusi zolaqlar salınmışdır. COP29 Azərbaycan Əməliyyat Şirkətinin məlumatına əsasən, 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək konfransla bağlı paytaxtın bir sıra mərkəzi küçələrində xüsusi COP29 nəqliyyat zolaqları yaradılıb. COP29 loqosunu əks etdirməklə işarələnən bu zolaqlar sürətli və fasiləsiz hərəkətin təmin edilməsi məqsədilə tədbir iştirakçılarını daşıyan nəqliyyat vasitələri üçün ayrılıb. Konfrans zamanı həmin zolaqlardan yalnız ictimai nəqliyyat vasitələri və tədbirlə əlaqədar xüsusi icazələrə sahib olan nəqliyyat vasitələri istifadə edəcəklər. Konfransa qədər müvafiq yol nişanları quraşdırılmayan zolaqlardan bütün nəqliyyat vasitələri istifadə edə bilər. Bundan əlavə, konfrans zamanı şəhərin müxtəlif əsas hissələrində ümumilikdə 14 nəqliyyat qovşağının təşkil edilməsi planlaşdırılıb.

Göründüyü kimi, Azərbaycan bu beynəlxalq sammitə yüksək səviyyədə evsahibliyi etmək üçün bütün imkanlarını səfərbər edib. Buna beynəlxalq birlik də şahidlik edir və atılan bütün addımlar təqdir olunur.

Bu sammit Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü dünyaya bir daha sübut edəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*





# Qarabağ Universiteti "yaşıl inkişaf" çağırışlarına cavab verir

## Ali məktəb Çində beynəlxalq forumda təmsil olunub

**Qarabağ Universiteti Çinin Lanzhou Universitetinin evsahibliyi ilə keçirilən Kəmər və Yol Universitetləri Alyansının (University Alliance of the Belt and Road - UAB&R) 2024-cü il forumunda iştirak edib. Bu məqsədlə universitetin rektoru Şahin Bayramov Çində səfərdə olub.**




Kəmər və Yol Təşəbbüsünün yeni onilliyinin başlanılması ərəfəsində keçirilən forum "Rəqəmsal gücləndirmə, "yaşıl innovasiya" və birgə inkişaf şəraitində beynəlxalq təhsil əməkdaşlığı" (International Education Collaboration Under the Circumstances of Digital Empowerment, Green Innovation and Shared Development) mövzusuna həsr edilib.

Dünyanın bir sıra ölkələrinin ali təhsil müəssisələri, tədqiqat institutları və mərkəzlərinin rəhbərləri, eləcə də beynəlxalq təşkilatların nümayəndələrinin qatıldığı forum çərçivəsində "Kəmər və Yolun yaşıl inkişafı" (Green Development of the Belt and Road), "Rəqəmsal təhsil üzrə əməkdaşlıq perspektivləri" (The Prospects on Digital Education Collaboration) və "Əməkdaşlıq mexanizminin inkişafı" (The Development of Collaboration Mechanism) mövzularında panel sessiyalar keçirilib.

Forumda əsas məruzəçi qismində çıxış edən Şahin Bayramov "Yaşıl inkişaf çağırışlarını cavablandırmaqda universitetlərin rolu: Bir Kəmər, Bir Yol regionunda imkanlar" mövzusunda geniş təqdimat edib. Belə bir beynəlxalq nüfuzlu ali təhsil platformasında Qarabağ Universitetini təmsil etməkdən qürur duyduğunu bildirən Ş.Bayramov dəvətə görə təşkilatçılara təşəkkürünü bildirib. Eyni zamanda rektor foruma evsahibliyi edən Lanzhou Universitetinin 115 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

Böyük coğrafiyanı əhatə edən, nəhəng infrastruktur və investisiya layihələrinin həyata keçirildiyi Kəmər və Yol Təşəbbüsü regionunda sürətli sənayeləşmə və urbanizasiyanın ciddi ekoloji problemlərlə müşayiət olunduğunu qeyd edən rektor "yaşıl inkişaf" çağırışlarının həllində universitetlərin əhəmiyyətli rolundan bəhs edib. Ali təhsil müəssisələrinin tədqiqat və innovasiya habı, təhsil və potensialın inkişafı məkanı, siyasət maarifləndiricisi və beyin mərkəzi, əməkdaşlıq və tərəfdaşlıqları təşviq edən platforma kimi unikal mövqeyindən danışan Ş.Bayramov davamlı inkişaf təfəkkürlü gələcək liderləri və mütəxəssisləri yetişdirən universitetləri "yaşıl inkişaf"ın katalizatorları adlandırıb.

Azərbaycanın "yaşıl inkişaf" siyasətinə sadiqliyindən bəhs edən rektor ölkəmizdə davamlı inkişafla bağlı müəyyən edilmiş milli prioritetlərdən və həyata keçirilmiş ardıcıl və sistemli işlərdən danışıb. Vurğulayıb ki, 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi nüfuzlu bir tədbirin keçirilməsi ilə bağlı qərar ölkəmizin milli, regional və qlobal səviyyələrdə ətraf mühitin qorunmasına və iqlim dəyişikliyinin qarşısının alınmasına verdiyi töhfənin bariz nümunəsidir.

Daha sonra Azərbaycanın işğaldan azad edilmiş regionunda yeni yaradılmış Qarabağ Universitetinin missiyası, vizyonu və strateji məqsədləri barədə məlumat verən Ş.Bayramov təmsil etdiyi ali təhsil müəssisəsinin tələbə mərkəzli və tədqiqat əsaslı universitet kimi regional ekosistemin drayverinə, "yaşıl transformasiya" hədəfli layihələrin reallaşdırılacağı məkana və davamlı inkişafı dəstəkləyən innovativ həllərin təşəbbüskarına çevriləcəyini hədəflədiyini diqqətə çatdırıb. Böyük maraqla qarşılanan təqdimatdan sonra forum iştirakçılarının sualları cavablandırılıb.

Bununla yanaşı, forum çərçivəsində rektor Ş.Bayramov Çinin Lanzhou Universiteti, Şimal-Qərb Normal Universiteti və Lanzhou Maliyyə və İqtisadiyyat Universitetini ziyarət edib və həmin universitetlərin rektorları ilə görüşüb. Görüşlərdə universitetlər arasında potensial əməkdaşlıq imkanları müzakirə edilib.

Qeyd edək ki, Kəmər və Yol Universitetləri Alyansı 2015-ci ilin 17 oktyabr tarixində Çinin Qansu əyalətinin Dunhuanq şəhərində yaradılıb və "Dunhuanq konsensusu" adlı razılıq əsasında fəaliyyətə başlayıb. "Əlaqəlilik, açıqlıq, inklüzivlik, innovasiya və əməkdaşlıq" vizyonunu rəhbər tutaraq, Dunhuanq Konsensusu ali təhsil üçün ümumi icma yaratmağı hədəfləyir, təhsil, texnologiya və mədəniyyət sahəsində "Kəmər və Yol" boyu ölkələr və universitetlər arasında hərtərəfli kommunikasiya və əməkdaşlığı təşviq edir, ölkələr və regionların ekoloji və sosial inkişafına xidmət edir. Hazırda Lanzhou Universiteti tərəfindən evsahibliyi edilən alyansın 170-dən çox üzv universiteti var. Gələcək kommunikasiya və əməkdaşlığı daha da genişləndirmək və inkişaf etdirmək məqsədilə 2016-cı ildən başlayaraq hər il tematik forumlar keçirilir. Beynəlxalq əməkdaşlığın inkişafına xüsusi önəm verən Qarabağ Universitetinin bu forumda təmsil olunması yeni qarşılıqlı faydalı tərəfdaşlıqların qurulmasına hədəflənib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# "Yaşıl düşüncə"nin təbliğində gənclərin rolu

**Bu gün ölkəmizin ən əsas siyasi parametrlərindən birinə çevrilən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində hər bir vətəndaşımızın şüurunda, amalında, fikrində bir "yaşıl düşüncə" formalaşıb. Bəs "yaşıl düşüncə" necə inkişaf etdi və nə oldu ki, əsasən gənclərin bu sahəyə olan marağı getdikcə artır?**



"Yaşıl düşüncəyə" maraq Prezident İlham Əliyevin 25 dekabr 2023-cü ildə imzaladığı sərəncam ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə başlamışdır. Sərəncamda "ağıllı şəhər", "ağıllı kənd" innovativ yanaşmaları, ekosistemlərin perspektivləri, "yaşıl enerji" və iqtisadiyyatın prioritet amilə çevrilməsi, ekoloji problemlərin müzakirəsi və həlli, təmiz mühitin formalaşması, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyası - COP29 kimi mötəbər tədbirin təqdirəlayiq şəkildə keçirilməsi kimi ölkə əhəmiyyətli məsələlərə toxunulmuşdur.

Sərəncamdan dərhal sonra yaşıllıq zolaqlarının genişləndirilməsi, ağacəkmə aksiyalarının daha davamlı keçirilməsi, iməciliklərin təşkili, gənclərin bu tədbirlərə cəlbi və könüllülük proqramlarına qoşulması, ali təhsil müəssisələrində konfrans, konqres və simpoziumların, habelə dövlət əhəmiyyətli maarifləndirmə tədbirlərinin keçirilməsi sübut etdi ki, ölkəmiz bu sahədə "yaşıl düşüncə"nin mərhələli formalaşmasına maraq göstərir.

Azərbaycanda COP29 kimi mötəbər tədbirin keçirilməsi mühüm tarixi əhəmiyyət kəsb edir. Çünki COP29 zamanı minlərlə xarici qonağın ölkəmizə gələrək buradakı əmin-amanlığı, rifahı, mühiti və şanlı qələbəmizin nəticələri ilə tanış olması nüfuzumuzu daha da artıracaq. COP29, sadəcə, ekoloji problemlərin müzakirəsi üçün tədbir deyil, ekoloji problemlərin həlli yolunda mühüm addımların atılacağı böyük qlobal forumdur. Azərbaycanın aktual ekoloji problemləri həll etmək və davamlı həll yolları tapmağa dair digər ölkələrlə işləmək üçün böyük imkanları var. Cənab İlham Əliyev demişdir: "Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni burada yekdil mövqe bir daha özünü göstərdi".

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərində də ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Biz də Gənclər Mərkəzi İctimai Birliyi olaraq öz növbəmizdə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş və Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə "Gənc fotoovçu yaşıl kənddə" adlı layihəni həyata keçirmiş və "yaşıl düşüncə"nin inkişafına öz töhfəmizi vermişik. Layihənin keçirilməsində məqsəd gəncləri ekoturizmin inkişafı sahəsində maarifləndirmək və onları yaşadıqları "yaşıl kənd"lərin fotoovçusuna çevirməklə minlərlə insanı təbiətin gözəlliklərindən zövq almağa və təbiət canlılarını silahla yox, fotoaparatla ovlamağı təbliğ və gənclərin prosesdə aktiv iştirakını təmin etmək, eyni zamanda yerli və xarici ekoturistlərin marağına səbəb olmaq idi.

Şübhəsizdir ki, Azərbaycan COP29-u da yüksək səviyyədə keçirəcək və bu, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji"dir. "Yaşıl enerji" növlərinin istehsalı və onun dünya bazarlarına nəqli hazırda ölkəmizin enerji siyasətinin prioritetidir.

*Kənan QUBADZADƏ,*
*Gənclər Mərkəzi İctimai Birliyinin sədri*

# Azərbaycan türk dünyasının birləşdirici gücüdür

## Ölkəmizin təşəbbüsləri TDT-nin həm regional, həm də qlobal səviyyədə rolunu artırır

**Soy kökümüzlə, tariximizlə, mədəniyyətimizlə, milli dəyərlərimizlə sıx bağlı olduğumuz türk xalqlarının, dövlətlərinin həmrəyliyinin hazırda tarixindəki ən yüksək zirvəyə yüksəlməsində Azərbaycanın xüsusi xidmətinin olduğu danılmaz həqiqətdir. Eyni zamanda əsası 15 il əvvəl ölkəmizin qədim diyarı Naxçıvanda qoyulan Türk Şurasının (indi Türk Dövlətləri Təşkilatı (TDT)) qlobal güc kimi müəyyənləşdirilməsində Prezident İlham Əliyevin şəxsi təşəbbüsləri əsas rol oynayır.**




Hər zaman çıxışlarında - XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır, - deyə vurğulayan dövlət başçısı "türk dünyası ailəsi"nin həmrəyliyinin daha da gücləndirilməsi istiqamətində əməli fəaliyyət göstərir.

Bu ilin yayında TDT-nin Şuşadakı qeyri-rəsmi Zirvə görüşündə ölkəmizin başçısı məhz bu məqama toxunaraq bildirmişdi: "Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir".

### Azərbaycanın töhfələri

2009-cu ildən - yarandığı dövrdən ötən müddət ərzində TDT-nin güclənməsi, qarşısına qoyduğu məqsəd və hədəflərə çatması üçün ölkəmiz xüsusi səylər göstərib. Təşkilata sədrliyi dövründə Azərbaycan türk dövlətləri arasında əlaqələrin daha da genişlənməsi üçün yeni təşəbbüslərlə çıxış edib.

Ölkəmiz Vətən müharibəsində və antiterror tədbirlərində qazandığı möhtəşəm zəfərlərlə türk birliyinin güclənməsinə misilsiz töhfələr verdi. Ümumilikdə türk dünyası adına çalınan qələbə kimi tarixə həkk olunan Qarabağ Zəfəri türkdilli xalqların qürur mənbəyinə çevrildi. Təsadüfi deyildi ki, TDT-nin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən VIII Zirvə Görüşü zamanı Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeninə layiq görüldü.

TDT-nin Şuşada qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi, həmin zaman Qarabağ Bəyannaməsinin imzalanmasının isə xüsusi rəmzi mənası oldu.

Ötən gün Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı Şuşada imzalanmış Qarabağ Bəyannaməsinin əməkdaşlığın daha da dərinləşməsinə töhfə verdiyini bildirən Prezident İlham Əliyev dedi ki, Azərbaycan Türk Dövlətləri Təşkilatının möhkəmlənməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Azərbaycan lideri onu da söylədi ki, Türk Dövlətləri Təşkilatının mövcud büdcəsi qarşıya qoyulan hədəflərin həyata keçirilməsi üçün yetərli deyil: "Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək".

Azərbaycanın Türk Dövlətləri Təşkilatı ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar və təşəbbüslər təşkilatın gələcək inkişafı üçün yol xəritəsinin nədən ibarət olacağını da aydın şəkildə ortaya qoyur. Sözün əsl mənasında TDT-nin lokomotivi - aparıcı gücü rolunu oynayan Azərbaycanın təşəbbüsü - Orta dəhliz layihəsi türk dünyası ölkələrinin birliyinə əvəzolunmaz töhfədir. Respublikamız dəhlizin inkişafı və səmərəliliyi məqsədilə öz ərazisində zəruri infrastrukturu təmin edir. Orta dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb. Azərbaycan eyni zamanda Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona çatdırmaq niyyətindədir. Ölkəmiz hazırda dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyir, zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq.

"Hazırda Orta dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur", - deyə Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı Prezident İlham Əliyev bildirdi ki, bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək.

Dövlətimizin başçısı onu da qeyd etdi ki, son dövrlər "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Belə ki, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, 2024-cü ilin yanvar-sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edilir.

### Qardaş həmrəyliyi

Vətən müharibəsi zamanı ölkəmizə siyasi, mənəvi dəstək duran türkdilli ölkələrin Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərinə töhfə vermələri də ölkələrimiz, xalqlarımız arasındakı qardaşlığa bariz nümunədir.

Məlumat üçün bildirək ki, Füzuli rayonunda Özbəkistan və Qazaxıstan tərəfindən məktəb və yaradıcılıq mərkəzi inşa edilərək istifadəyə verilib. Eyni zamanda Qırğızıstan tərəfindən Ağdamda bir məktəbin inşasına başlanılıb. Cəbrayıl rayonundakı bir məntəqədə isə Macarıstanın maliyyə dəstəyi ilə bir məktəb inşa ediləcək. Bunlar dost ölkələrin Azərbaycan xalqına hədiyyələridir.

TDT-nin Bişkekdə keçirilən Dövlət Başçıları Şurasının iclasında Azərbaycanın öz suverenliyini tam bərpa etməsi, Ermənistanın 30 il davam edən işğal dövründə ərazilərimizdə 9 şəhərimizi və yüzlərlə kəndimizi tamamilə məhv etməsini iştirakçıların diqqətinə çatdıran Prezident İlham Əliyev söylədi ki, azad olunan ərazilərdə indi genişmiqyaslı yenidənqurma və bərpa layihələri həyata keçirilir, eyni zamanda, Böyük qayıdış proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər öz doğma yurdlarına geri dönürlər: "Fürsətdən istifadə edərək Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim".

Bir neçə gündən sonra Azərbaycan COP29 kimi beynəlxalq nüfuzlu tədbirə evsahibliyi edəcək. On gündən çox müddət ərzində Bakıda bəşəriyyəti narahat edən iqlim dəyişmələrinin aradan qaldırılması istiqamətində müzakirələr aparılacaq, çıxış yolları aranacaq, yeni çağırışlar ediləcək. Qırğızıstanda keçirilən sözügedən iclasda dövlətimizin başçısı xüsusi əminliklə vurğuladı ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər.

Göründüyü kimi, dünyanın qütbləşdiyi, yeni geosiyasi bölgülər uğrunda savaşların başladığı hazırkı dövrdə türkdilli dövlətlərin birgəliyi, həmrəyliyi olduqca vacibdir. TDT-nin Bişkekdə keçirilən Dövlət Başçıları Şurasının iclasında Prezident İlham Əliyev də məhz bu məqama vurğu etdi: "Hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Avropa Komissiyası Qərb imperializminin əlində alətə çevrilib

## Ursula fon der Lyayenin qərarı göstərdi ki, bu təşkilatı da iqlim dəyişiklikləri, qlobal təhlükəsizlik və insan amili maraqlandırmır

**"Avropa Komissiyasının keçid dövründə olması və buna görə də komissiyanın sədrinin öz institusional öhdəliklərinə daha çox diqqət yetirəcəyi ilə bağlı pərdələnərək BMT-nin İqlim Dəyişmələri üzrə COP29 Sammitində iştirak etməmək barədə qərarı təəssüf doğurur və Avropa İttifaqı və strukturlarının əsl mahiyyətini bir daha ifşa edir. Aydındır ki, qlobal iqlim dəyişiklikləri ilə mübarizə istiqamətində Çərçivə Konvensiyasının iştirakçılarının əsas məqsədi iqlim dəyişiklikləri ilə mübarizə qismində bəşəri niyyətlər naminə səyləri birləşdirmək, bu sahədə mümkün töhfələrin verilməsi üçün bərabərsizliklər, qarşılıqlı anlaşılmazlıqlar başda olmaqla, çoxsaylı maneələri aradan qaldırmaqdır".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Brüsseldə baş verən siyasi hadisələr səbəbilə pərdələnərək Bakıda keçiriləcək COP29 sammitinə qatılmayacağı barədə qərar verməsi və gətirdiyi bəhanələrin ümumbəşəri niyyətlər qarşısında cılızlığı onu deməyə əsas verir ki, əslində, Avropa Komissiyasını iqlim dəyişiklikləri də daxil olmaqla, qlobal təhlükəsizlik və insan amili maraqlandırmır. Daha doğrusu, Avropa İttifaqının digər strukturları kimi Avropa Komissiyası da Qərb imperializminin əlində alətə çevrilib. "Azərbaycan hələ bu ilin aprel ayında Ursula fon der Lyayenə COP29-da iştirakla bağlı dəvəti rəsmən təqdim etmiş və qurum tərəfindən də bu dəvət məmnunluqla qarşılanmışdı. Lakin tədbirə sayılı günlər qaldığı bir zamanda Avropa Komissiyanın Mətbuat xidməti məlumat yayaraq Ursula fon der Lyayenin noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT İqlim Sammitinə gəlməyəcəyini bəyan etməsi çoxsaylı qaranlıq məqamlara işıq salır. İlk növbədə görünən odur ki, Avropa Komissiyası Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirləri ilə beynəlxalq hüququn aliliyini təmin edərək özünün suverenliyini və ərazi bütövlüyünü bərqərar etməsini Qərb imperializmin rakursundan qiymətləndirərək heç cür həzm etmək istəmir. Ani şəkildə verilən bu qərar da onu göstərir ki, xanım Ursula fon der Lyayen də ölkəmiz əleyhinə başlanan qarayaxma kampaniyasının dolayısı ilə iştirakçısına çevrilməkdədir. Baxmayaraq ki, iqlim dəyişiklikləri ilə mübarizə ayrıca heç bir dövlətin, xüsusən də Azərbaycanın daxili məsələsi deyil", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, ümumbəşəri məsələ olan iqlim dəyişiklikləri ilə mübarizədə Avropa İttifaqının bu cür davranışı qurumun əsas orqanlarından biri olan Avropa Komissiyasının rəhbərinin belə bir tədbirdə iştirakdan imtina etməsi Qərb imperializmi üçün ümumbəşəri məsələlərdən daha öndə təcavüzkar niyyətlərin və qeyri-proporsional maraqların dayandığını göstərir. Əslində, bu, Aİ strukturlarının Azərbaycana münasibətdə ilk ikili standartlar və qərəzli yanaşma ehtiva edən mövqeyi deyil. Xanım Ursula fon der Lyayenin hələ 2022-ci ilin iyul ayında Azərbaycana səfəri zamanı ölkəmizi Avropanın təchizat təhlükəsizliyi və iqlim neytrallığına gedən yolda həlledici tərəfdaş adlandırması nə ittifaqda, nə də Azərbaycanda unudulub. Lakin üzərindən 2 il keçməmiş, xüsusən Azərbaycanın antiterror tədbirlərində uğurla öz ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərqərar etməsinin ardınca Avropa İttifaqının rəsmiləri, o cümlədən Avropa Komissiyasının ayrı-ayrı üzvləri tərəfindən Azərbaycana yönəlik əsassız ittihamlar səslənməyə başlamışdır. Avropa Komissiyasının rəhbəri Bakıda keçirdiyi mətbuat konfransında Azərbaycan qazına olan tələbatından danışmış və bildirmişdi ki, Avropa İttifaqının məqsədi yaxın bir neçə il ərzində Azərbaycandan qaz nəqlini ən azı iki dəfə artırmaqdır. Yəni bu mənada hazırda Avropa Komissiyasının rəhbərinin COP29 tədbirində iştirak etməməsi və bunu müxtəlif amillərlə ört-basdır etməyə çalışması, guya qanunvericilərin növbəti 5 il ərzində Avropa İttifaqının siyasətinin rəhbərlik edəcək yeni Avropa Komissiyası üzvlərini yoxlaması ilə əlaqələndirərək tədbirdən yayınması, əslində, bizi təəccübləndirmir. Məsələnin digər, həm də ən vacib aspekti Avropa İttifaqının, Avropa Komissiyasının rəhbərinin qərarının timsalında özünün bəşəri məsuliyyətdən yayınması ilə bağlıdır.

Deputat qeyd edib ki, Azərbaycanın qlobal statistikada karbon emissiyalarının atmosferə buraxılması istiqamətində rolu çox cüzidir: "Avropa İttifaqı isə sənaye və istehsalat fəaliyyəti, nəqliyyat sahəsində yaranan durum fonunda təbiətə və atmosferə zərərli təsirlər, habelə geniş miqyasda karbon emissiya miqdarının ölçüsünün daha da artması, bütövlükdə planetdə ekoloji problemlərin mövcudluğu və daha da genişlənməsi, həmçinin iqlim dəyişikliyinin mənfi mənada sürətlənməsinə səbəb olan əsas faktor kimi çıxış etməkdədir. Məsələn, Azərbaycanın "yaşıl enerji"yə üz tutduğu və cari ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsinə baxmayaraq, Avropa İttifaqına üzv olan aparıcı subyektlər hələ də faktiki olaraq bütün sənayesini təbii qaz və kömürə əsaslanan enerji mənbələrindən asılı şəkildə davam etdirməkdə və bununla atmosferə karbon emissiyalarının səviyyəsinin daha da çoxalmasına yol açmaqdadır. Bu mənada Avropa Komissiyasının sədrinin COP29-da iştirakından cılız bəhanələrlə imtina etməsi planetin əsas çirkləndirici subyekti rolunda çıxış edən strukturun öz məsuliyyətindən yayınması bəşəri dəyərləri cılız məqsədlərə qurban verməsidir".

B.Məhərrəmov bildirib ki, Avropa Komissiyasının sədrinin COP29-da iştirakdan imtina ilə bağlı qərarının digər diqqətçəkən aspekti iqlim dəyişiklikləri ilə mübarizə çərçivəsində Avropa İttifaqının yeni iqlim maliyyəsi formatından məsuliyyətsizliklə boyun qaçırması ilə bağlıdır. Öz sərhədlərindən min kilometrlərlə kənarda münaqişə ocaqlarının qızışdırılması və ya yeni münaqişələrin formalaşdırılması, bu məqsədlə revanşist kəsimə dəstək verilməsi, separatizmin təşviq olunması üçün milyonlarla vəsait xərcləyən Avropa İttifaqı, o cümlədən Avropa Komissiyası ümumbəşəri təhdid olan qlobal istiləşməyə qarşı maliyyə dəstəyi ayırmaq əvəzinə, yaxud bu istiqamətdə ən azı öz üzvlərinin vurduğu zərərin təsirlərinin azaldılması istiqamətində sosial məsuliyyət nümunəsi ortaya qoymaqdansa, müxtəlif bəhanələrlə qlobal iqlim dəyişiklikləri ilə mübarizə sahəsində əsas olan və dünyanın nəbzinin döyündüyü tədbirdən yayınmaqla həm də Avropa İttifaqı, Avropa Parlamentinin, eləcə də Avropa Komissiyasının kürsülərindən bu istiqamətdə səslənən bəlağətli nitqlərin bir puç olduğunu, bu qurumların iqlim dəyişikliyinə töhfə vermək iradə və niyyətində olmadığını nümayiş etdirir. Təbii ki, Ursula fon der Lyayenin, bütövlükdə Avropa İttifaqının COP29-la bağlı mövqeyi Azərbaycanın liderliyində bu istiqamətdə həyata keçiriləcək tədbirlərin realizəsi qarşısında əngəl deyil, əksinə, siyasi məqsədlərin alətinə, təcavüzkar niyyətlər üçün vasitəyə çevrilən bu təsisat dünyaya ağın qaradan seçilməsi imkanı yaratmış oldu.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanı "yaşıl enerji" sahəsində də etibarlı tərəfdaş adlandıran Ursula fon der Lyayen COP29-a niyə gəlmir

## Sözsüz ki, planeti ən çox çirkləndirən Aİ məsuliyyətdən yayınmaq istəyir

**Avropa Komissiyasının sədri Ursula fon der Lyayen COP29-a qatılmayacağını bəyan edib. Qəribədir. Çünki o, təxminən iki il yarım bundan əvvəl Bakıya gəlişindən çox razı qalmışdı. Əvvəla səmimi qəbul edildiyindən məmnun olduğunu bildirmişdi. Söyləmişdi ki, Avropa İttifaqı qaz üçün etibarlı və etimad doğuran tərəfdaşlara üz tutmaq qərarına gəlib və o, xanım Lyayen Azərbaycanı həmin tərəfdaşların sırasında hesab edir.**




"Həqiqətən, siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz." Bu sözləri o, 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandıqdan sonra mətbuata bəyanatında demişdi. Anlaşma memorandumunun üç məqamını vurğulamışdı: "Birincisi, biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur".

İkinci mühüm məqam isə məhz bərpaolunan enerji ilə bağlı idi. Ursula fon der Lyayen Azərbaycanın bu sahədə nəhəng potensiala malik olduğunu vurğulamışdı və demişdi: "Biz həmin sahədə əməkdaşlığımızın möhkəm təməlini qoyuruq. Azərbaycan yanacaq növlərinin təchizatçısı olmaqla yanaşı, tədricən Avropa İttifaqı üçün bərpaolunan enerji növlərini təchiz edən mühüm və etibarlı tərəfdaşa çevriləcək." Həmçinin qeyd etmişdi ki, qaz sahəsindəki əməkdaşlığımız iqlimlə bağlı məsuliyyətimizlə uzlaşmalıdır. Buraya metan qazının tullantıları da daxildir və imzalanan memorandum bütün qaz təchizatı zənciri boyu metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəlik nəzərdə tutur: "Mən Azərbaycanı qlobal metan öhdəliyinə qoşulmağa dəvət edirəm. Bu günə qədər bu öhdəlik 119 ölkə tərəfindən dəstəklənib. Azərbaycan böyük tərəqqiyə nail olub, nümayiş və təqdim etməyə bir çox nailiyyəti var".

Azərbaycanın enerji keçidindəki potensialını və nailiyyətlərini qeyd edən, metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəliklərini dəstəkləyən Ursula fon der Lyayen nə baş verdi ki, indi Bakının evsahibliyi etdiyi COP29-a qatılmayacağını bildirir.

Məsələ aydındır. Deməli, bu mötəbər tədbirdə müzakirə olunacaq problemlər onu narahat etmir. Təkcə onu yox, həm də rəhbərlik etdiyi qurumu. İqlim dəyişikliyi kimi bütün bəşəriyyətə fəlakət gətirə biləcək bir məsələyə qarşı laqeyddirlər. Beynəlxalq ictimai rəy, o cümlədən COP29 keçirilən zaman söyləniləcək fikirlər, ediləcək təkliflər onları əsla maraqlandırmır.

Planeti ən çox çirkləndirən isə Avropa İttifaqıdır. Təbii ki, dünya ondan yeni iqlim maliyyəsi gözləyir. Aİ isə COP-a gəlmir. Səbəb aydındır. Aİ faktiki olaraq yayınmaq, yəni məsuliyyətdən qaçmaq istəyir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Tarix yazan oğullar

## "Bu gün elə döyüşək ki, sabah peşman olmayaq"

**"Yəqin qismətimiz beləymiş. Ata gedən yoldan oğul da keçməliymiş. Şəhriyarla həyatımızda oxşarlıqlar olsa da, fərqliliklər də çoxdur. Hər ikimiz kəşfiyyatçı olmuşuq. Fərq ondadır ki, biz döyüşsək də, problemi həll edə bilmədik. Oğlum isə "gəlin, bu gün elə döyüşək ki, sabah yaxşı döyüşmədiyimiz üçün peşman olmayaq", - deyərək qorxmadan ölümün üstünə yeridi və şəhid oldu. Oğlumla qürur duyuram", - deyir şəhid atası.**






Şəhid Şəhriyar Şahlar oğlu Hacıyev 1999-cu il avqustun 2-də Gədəbəy rayonu, Novoivanovka kəndində anadan olub. Atası Birinci Qarabağ savaşı qazisi Şahlar Hacıyev deyir ki, Şəhriyar gözünü açandan evdə Qarabağ mövzusunda gedən söhbətləri eşidib: "Həmişə bizim dağları göstərib soruşardı ki, ata, əsirlikdə olan dağlar da bizim dağlara oxşayır? Hə cavabını alanda şəstlə, qoy bir böyüyüm, o torpaqları işğaldan azad edəcəyəm, deyirdi. Balaca bir uşağın içində nə boyda vətən sevgisi var imiş?! Bunu düşünəndə mənə təsəlli olur ki, oğlum sevgisi yolunda şəhid oldu".

Atası hərbçi olduğu üçün Şəhriyar uşaqlıq illərini kənddə babasının yanında keçirirdi. O, altıncı sinifdə oxuyanda atası iş yerini dəyişir. Şəhriyar da Bakıya köçüb valideynləri ilə birgə yaşayır və təhsilini Xırdalandakı 6 nömrəli məktəbdə davam etdirir. Dərslərini əla oxyan Şəhriyar həm də idmana böyük maraq göstərir. Kikboksinq və karate üzrə respublika birincisi olur. Orta məktəbi bitirdikdən sonra Kazan Texnologiya Universitetinin Avtomatika fakültəsinə qəbul olunsa da, maddi problemlər üzündən təhsilini yarımçıq saxlayır. 2017-2019-cu illərdə Şəhriyar Tərtər rayonunun ərazisində XTQ tərkibində həqiqi hərbi xidmət keçir. Vətən müharibəsi başlayanda isə Məmmədoğulları mebel fabrikində işləyirdi.

Keçmiş kəşfiyyatçı Şahlar Hacıyev o günləri xatırlayaraq deyir:

- Sentyabrın 27-si Şəhriyar Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətini eşidib tələsik evdən çıxdı. Qapıdan çıxanda bircə onu dedi ki, indi qeyrət zamanıdır. Sən demə, oğlum müharibəyə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə tələsirmiş...

Sentyabrın 28-də Vətənin çağırışına hay verən igid oğulların sırasında Şəhriyar Hacıyev də var idi. Kəşfiyyat bölüyündə xidmət edən Şəhriyar Suqovuşanın azadlığı uğrunda gedən qanlı döyüşlərdə iştirak edir. Oktyabrın 9-da evə zəng edib atasına şad xəbər verir: "Ata, uğrunda qanını axıdıb qazi olduğun Suqovuşanı azad edib, dağlarla irəliyə doğru hərəkət edirik".

- Suqovuşan uğrunda döyüşlərdə 1993-cü il iyunun 11-də yaralanmışdım. O zaman Suqovuşan işğal olundu. 30 il idi ki, ürəyimdə bir ağrı var idi. Həmişə qazi kimi tədbirlərə dəvət alanda utanırdım. Çıxışlarımda deyirdim ki, biz işimizi görə bilməyib yeni nəslə saxladıq. Oğlum zamanında mənim görə bilmədiyim , yarımçıq qalmış işimi şərəflə başa vurdu. Şəhriyar çox mehriban, ləyaqətli gənc idi. Sən demə, Allah da gözəllik aşiqiymiş. Say-seçmə oğullarımızı öz dərgahına aldı. Oğlum şəhid olduğu an mən bunu hiss etdim. Sanki havam çatışmırdı, boğulurdum. Hərbi qulluqda xidmət edən xeyli hərbçi dost-tanışım var idi. Onlara zəng vurub vəziyyəti öyrənmək istədim. Dedilər ki, axşam ağır döyüşlərimiz olub, itkilərimiz var. Araşdırıb məlumat verəcəyik... Bu qeyri-müəyyənlik 15 gün uzandı. Sonra dedilər ki, oğlum oktyabrın 10-da Drınbon uğrunda gedən döyüşlərdə şəhid olmuş, cəsədi döyüş zonasında qalıbmış. O torpaqlar azad olduqdan sonra oğlumun cəsədi götürüldü. DNK analizi verdik... Oktyabrın 26-da Şəhriyarı doğulduğu Gədəbəy rayonunun Novoivanovka kəndində dəfn etdik.

Dərdli ata göz yaşı içində, amma qürurla, iftixarla oğlundan danışırdı. Gah qara bulud kimi dolur, gah da sanki üzündə günəş parıldayırdı.




"Şəhriyar gedəcəyi yolu özü çəkmişdi. 2020-ci ildə Polad Həşimov şəhid olanda Şəhriyar yerə-göyə sığmırdı. Deyirdi ki, generalımız şəhid olub, biz müharibə etmirik". Şəhid atası deyir ki, atalar əbəs deməyib: "Oğul düşmən çəpəridir. Xalqımız torpaqsevər, mərd xalqdır. Şəhidlərinə də yüksək qiymət verib xatirəsini həmişə əziz tutur. Müqayisə üçün bircə fakt deyəcəyəm. Fəxri xiyabana gedəndə diqqət etsəniz görərsiniz ki, vəzifəsindən asılı olmayaraq dünyasını dəyişənlərin məzarı başında cəmi 10-15 dəqiqəlik toplantı olur. Amma şəhidlərin məzarı həmişə qələbəlik olur. Yoldan keçən az da olsa, ayaq saxlayıb dua verir".



Şahlar Hacıyev deyir ki, insan əbədi deyil: "Şərəfli sonluq hamıya nəsib olmur. Şəhriyarın yas məclisində onun döyüş yoldaşları da iştirak edirdi. Danışırdılar ki, Şəhriyar istəsəydi, şəhid olmazdı. O, geridə qalmağı bacarmırdı. Növbəti döyüş tapşırığı veriləndə komandir kimlərin könüllü getmək istədiyini soruşdu. Şəhriyar önə çıxaraq "mən", - dedi. Sonra üzünü döyüş yoldaşlarına tutaraq "bu gün elə döyüşək ki, sabah peşman olmayaq" söylədi.

Yeganə oğlu şəhid olan ata göz yaşı içində sözünə davam etdi:

- Mənim üçün çox ağırdı. Oğlumu itirmişəm. Təsəllim isə qələbəmizdir. Torpaqlarımızın düşmən işğalından azad olunmasıdır... Bir məsələni tam səmimi qeyd etmək istəyirəm. İnanın, mən toy, şənlik görəndə sevinirəm. Bəzən qohum-qonşu övladına toy etmək istəyəndə gəlib bizdən xeyir-dua alanlar da olur, icazə istəyənlər də. Cavabım belə olur ki, övladlarımız xalqımızın xoşbəxt həyatı, torpaqlarımızın azad edilməsi üçün canlarını fəda ediblər. Biz 30 il məğlub xalq kimi yaşamışıq, çox böyük faciələr görmüşük. Daşaltı, Xocalı, Ağdaban faciələrini yaşamışıq. Əsl matəm onda idi. İndi qalibik! Torpaqlarımız azad olub. Şəhidlərimizin arzusu gerçəkləşib. Dünyanın harasına gediriksə, üzümüz ağdır. Xalqımıza bu, üzüağ həyatı bəxş edən başda Müzəffər Ali Baş Komandan olmaqla canını vətən uğrunda qurban verən şəhidlərimizdir. Sevinmək şanlı zəfər yaşayan bir xalqın haqqıdır. Mən inanclı insanam. İnanıram ki, oğlumun ruhu xalqımızın xoşbəxt günlərini görəndə şad olur. Həsrətin, ayrılığın acısı ağır da olsa dözməliyik.

Anası Zəminə Hacıyeva Şəhriyardan bəhs edərək göz yaşını saxlaya bilmir. Dərdli ananın bütün vücudu titrəyir. Özünü toplayıb deyir:

- Şəhriyar dünyaya gəlişi ilə dünyamızı işıqlandırdı. Həyatımız tamam dəyişmişdi. Amma balamı heç doyunca görmədim. Atası hərbçi idi. Uşaqlıq illərini doğulduğu Gədəbəy rayonunda nənə-babasının yanında keçirib. Beşinci sinifi bitirdikdən sonra Bakıya köçdük. İdmana çox böyük həvəsi var idi. O, çox sakit, tərbiyəli, ağıllı övlad idi. Hər zaman hər yerdə həmyaşıdlarından seçilərdi. Dünyaya gəldiyi gündən Şəhriyarla, onun gələcəyi ilə bağlı xəyallar qururdum. Uşaqlıqda yanımızda olmadığı üçün çalışırdım ki, vaxtımı onunla keçirim. Şəhriyar bir iş görməzdən əvvəl mənimlə məsləhətləşirdi. Elə bir sözü yox idi ki, mənə deməsin... Müharibəyə yola düşənda yolunu kəsdim. Mane olmaq istədim. Dedi ki, ana, Tovuz döyüşlərində general Polad Həşimov və neçə gəncimizin həyatı yarıda qaldı, şəhid oldular. Mənim kimi oğullar onların qisasını almalıdır". İnanın ki, onun sözləri məni qürurlandırdı. Dedim ki, oğul belə olar. Amma düzünü deyim, anayam, fikirləşirdim ki, müharibədir, ayrılıq var, ölüm var... Oğul toyu arzu edirdim. Ağlımdan belə keçirə bilməzdim ki, mənə bəy paltarı geyinmiş oğul boynunu qucaqlamaq nəsib olmayacaqmış. Qismətimdə bayrağa bükülmüş tabut qucaqlamaq varmış... Şəhriyar müharibəyə getdiyi vaxtdan hər gün bizimlə əlaqə saxlayırdı. Hər şeyin yaxşı olduğunu deyirdi. Hər dəfə də məni arxayın edirdi ki, sağ-salamat gələcək. Oktyabrın 9-da son dəfə zəng edəndə sanki şəhid olacağını hiss edibmiş. Danışdığı adamlarla vidalaşıb. Bibisinə deyib ki, oktyabrın 10-da zəng eləməsəm, bilin ki, şəhid olmuşam. O gündən sonra heç zəngi gəlmədi... Bir neçə gün sonra evdə oturmuşdum, gözümün önünə üstündə bayraq çəkilmiş tabut şəkli göründü. Həmin gündən bir neçə gün sonra isə Şəhriyarı yuxuda gördüm. Sarı rəngdə palçığın içində yatırdı. Oktyabrın 25-i gözümün önünə xəyalən gələn bayraqlı tabut qapımdan içəri girdi. Anaların yarası sağalmır. O günün acısını hər gün ilk gün kimi yaşayıram... Arzum balamın ayaq basdığı, canını tapşırdığı torpaqlara getməkdir. Bilirəm ki, o torpaqlarımızı indi Prezidentimiz cənnətə döndərir... Düşünəndə təsəlli tapıram, fərəhlənirəm ki, bu torpaqları azad edən oğullardan biri də mənim Şəhriyarımdır. Balamla hər zaman qürur duymuşam. Onunla birgə qurduğum planları həyata keçirə bilmədim. İndi tək arzum cənnətdə balama qovuşmaqdır.

Bacısı Şəlalə də qardaşı barədə qürurla danışır: "Mən qardaşımı göz yaşı



içində xatırlamaq istəmirəm. O, özü də bunu heç istəməz. Vətən uğrunda şəhid olan bir igidin bacısına ağlamaq yaraşmaz. Mən qəhrəman bacısıyam. O, qəhrəmanın ki, çörəyini yediyi, suyunu içdiyi, ayaq basıb, sinəsiüstə gəzdiyi vətənini ailəsindən üstün tutdu... Qardaşımla bağlı xatirələrimi danışmağa bir ömür yetməz. Ayrı yaşadığımız üçün uşaqlıqda yay tətillərində, bayramlarda görüşürdük. Mən şəhərdə, o rayonda oxuyurdu. Vaxtımız az olduğu üçün planlarımızdan danışar, xəyallar qurardıq. Mən onun toyunda bir bacı kimi nə edəcəyimi danışırdım. Bizdən ayrılıb kəndə getmək istəmirdi. Böyüdükcə ona daha çox ehtiyacım olduğunu deyirdim. Onsuz hər şey mənə çox çətindir. Qurduğumuz xəyallar puç oldu... Müharibəyə gedəndə küsdüm, danışmadım onunla. Oktyabrın 9-da zəng edib israrla mənimlə danışmaq istədiyini dedi. Özümü birtəhər toplayıb danışdım. Səsi hələ də qulağımdadır... O gündən həsrət qalmışam o səsə. Heç bir şeyə qulaq asa bilmirəm. Elə zənn edirəm ki, bir gözəl musiqi, ya nə isə gözəl bir şey dinləsəm, Şəhriyarın səsi qulağımdan gedəcək. O mənim qəhrəman qardaşımdır! Onunla hər zaman qürur duymuşam. Nə qədər yaşayacağamsa, ömür sürəcəyəmsə, hər zaman qürur duyacağam... Bu il Şuşaya, Laçına ziyarət etdim. O torpaqlara ayaq basdıqca mənə elə gəlirdi ki, həmin əraziləri azad edən igidlərin ayaq izləri ilə gedirəm. Bir yandan qəhər məni boğurdusa, bir yandan da o zirvədə olmaq mənim üçün qürurlu idi... Arzum qardaşımın ayaq basdığı yerlərə getmək, orada onun izlərini axtarmaq, ürəyinin döyüntüsünü hiss etməkdir. Onun ruhu sanki mənim canımdadır. Azad etdiyi torpaqlara qardaşımın ruhu ilə birgə gedəcəyəm. Mən bu Zəfərin baş qəhrəmanı Müzəffər Ali Baş Komandanımıza, Prezidentimiz İlham Əliyevə igidlərimizin qanı ilə alınmış o torpaqları cənnətə çevirdiyi üçün minnətdaram. Bizi yaşadan Prezidentimizin gördüyü işlərdir.

Şəhid Şəhriyar Hacıyev torpaqlarımızın azad olunmasında göstərdiyi qəhrəmanlıqlara görə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Milli Kitabxanada Zəfər Günü münasibətilə virtual sərgilər təqdim olunub

**Milli Kitabxanada, "8 Noyabr - Zəfər Günü" və "8 Noyabr - Şuşa Şəhəri Günü" adlı virtual sərgilər onlayn rejimdə istifadəçilərə təqdim olunub.**

Kitabxanadan bildirilib ki, "8 Noyabr - Zəfər Günü" adlı virtual sərgidə fotolar, 44 günlük Vətən müharibəsi və şanlı Qələbədən, hərb tarixində misli-bərabəri olmayan, görünməmiş hərbi taktikadan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən hərbi və siyasi strategiyasından, Vətən oğullarının şərəfli döyüş yollarından bəhs edən məqalələr, Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar nümayiş olunur.

"8 Noyabr - Şuşa Şəhəri Günü" adlı virtual sərgidə isə rəsmi sənədlər, fotolar, Şuşanın böyük dirçəliş və qayıdış dövründən, maddi-mədəniyyət abidələrin bərpasına dövlət qayğısından, quruculuq işlərindən bəhs edən məqalələr, Vətən müharibəsi, Böyük Zəfər və əməlləri ilə bir ömür boyu unudulmayacaq dərin izlər qoyan qəhrəmanlardan bəhs edən Azərbaycan və xarici dillərdə kitablar nümayiş olunur.




## Zəfər Günü ərəfəsində şəhidin ailəsi evlə təmin olundu

**Qazax rayonunda fəaliyyət göstərən "Arkoz Qazax Sement Zavodu" MMC xeyirxah əməlləri ilə həmişə fərqlənir. Bu işdə öz ənənəsinə sadiq qalan zavodun kollektivi şəhid ailələrinə, qazilərə daim qayğı göstərir, onların sosial problemlərinin həllində yaxından iştirak edir.**



Zavod kollektivi Zəfər Günü ərəfəsində daha bir xeyirxah işə imza atmışdır. MMC bu dəfə 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olan, ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilən Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin giziri Abdullayev Sərxan Elxan oğlunun ailəsinə ev tikib vermişdir. Evin bütün otaqları mebellə təmin olunmuşdur.

Bununla bağlı keçirilən mərasimdə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatları Səməd Seyidov və Ülviyyə Ağayeva, "Arkoz Qazax Sement Zavodu" MMC-nin rəhbərliyi, idarə, müəssisə və təşkilatların nümayəndələri, şəhid ailələrinin üzvləri iştirak etmişlər.

Əvvəlcə yeni inşa edilmiş evin açılışını bildirən qırmızı lent kəsilmişdir. Sonra qonaqlar igid Vətən oğlunun ailəsi üçün yaradılan şəraitlə tanış olmuşlar.

Qeyd edək ki, gizir Abdullayev Sərxan Elxan oğlu 2 noyabr 1988-ci ildə Qazax şəhərində anadan olmuşdur. 2006-cı ildə Qazax şəhər Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseyi bitirən Sərxan elə həmin il həqiqi hərbi xidmətə çağırılmışdır. O, 2008-ci ildə hərbi xidməti başa vurduqdan sonra Daxili Qoşunlarda gizir rütbəsində xidmətə başlamışdır. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Xüsusi Təyinatlı Dəstəsinin giziri, xüsusi təyinatlı dəstənin 2-ci xüsusi həmlə qrupunda 2-ci yarımqrup komandiri kimi xidmət edən S.Abdullayev 2020-ci il sentyabrın 28-də Göygöl rayonunun Toğanalı kəndi ərazisində gedən hərbi əməliyyatlar zamanı şəhid olmuşdur. Onun Orxan və Turan adlı iki övladı yadigar qalmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəhidin anım günü ehtiramla qeyd edilib

**44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Mahsun Zahir oğlu Bağırzadə 1998-ci il mayın 30-da Lənkəranın Xanbulan qəsəbəsində anadan olub. Qəsəbə tam orta məktəbini bitirəndən sonra - 2016-2018-ci illərdə Ağdam bölgəsində həqiqi hərbi xidmətdə olan Mahsun pulemyotçu ixtisasına yiyələnib.**



Azərbaycan Milli Elmlər Akademiyasının Lənkəran Regional Elmi Mərkəzində fəhlə işləyən M.Bağırzadə Vətən müharibəsi başlayanda könüllü olaraq silaha sarılıb, ata-baba torpaqlarımızın işğalçılardan təmizlənməsində fədakarlıq, igidlik nümunəsi göstərib. Heyf ki, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında şərəfli döyüş yolu keçən Mahsuna Zəfər Gününü, rəşadətli Milll Ordumuzun şanlı qələbəsini görmək qismət olmadı. O, oktyabrın 22-də Qubadlı rayonunun Yazı düzü adlanan ərazisində gedən döyüşlərdə əbədiyyətə qovuşdu. Yalnız noyabr ayının 4-də Qubadlı rayonu erməni vandallarından tam təmizləndikdən sonra şəhidlərimizin nəşi götürüldü və Mahsun həmin gün doğulub boya-başa çatdığı Xanbulan qəsəbəsində müharibədən əvvəl özünün də arzuladığı yerdə - Pir Yaqub ziyarətgahında torpağa tapşırıldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə şəhid Mahsun Bağırzadə Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Mahsun Bağırzadənin şəhadətə ucalmasının 4-cü ildönümündə AMEA Lənkəran Regional Elmi Mərkəzində şəhidin xatirə guşəsinin önünə təzə-tər qərənfillər düzüldü. Sonra onun Xanbulan qəsəbəsindəki ata ocağında anım tədbiri keçirildi. Elmi mərkəzin kollektivinin, Mahsunun döyüş yoldaşlarının, şəhid ailələri üzvlərinin, Xanbulan qəsəbə ictimaiyyəti nümayəndələrinin, ziyalıların qatıldığı anım tədbirində şəhidin qəsəbə qəbiristanlığındakı məzarı ziyarət edildi, üzərinə gül-çiçək dəstələri qoyuldu, ruhuna dualar oxundu.

Mərasimdə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənin say-seçmə oğullarının 44 günlük savaşda göstərdikləri qəhrəmanlıqlardan, qüdrətli Milli Ordumuzun qazandığı tarixi qələbədən söz açıldı, bütün şəhid ailələrinin, o cümlədən Mahsun Bağırzadənin doğmalarının hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə edildiyi vurğulandı, şəhidlərə Allahdan rəhmət, qazilərə şəfa və cansağlığı diləndi.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

# Misirin Baş müftisi Aİİ-ni ziyarət edib

Prezident İlham Əliyevin təşəbbüsü və himayədarlığı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Müsəlman Ağsaqqallar Şurası, Qafqaz Müsəlmanları İdarəsi və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında keçirilən Dünya dini liderlərinin qlobal Bakı Sammitində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Misirin Baş müftisi Nəzir Məhəmməd Ayad və Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin xarici əlaqələr üzrə müşaviri, Misirdə Azərbaycan diasporunun sədri Seymur Nəsirov Azərbaycan İlahiyyat İnstitutunu (Aİİ) ziyarət ediblər.





Aİİ rektoru Aqil Şirinov qonaqları salamlayaraq onları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. İnstitut rəhbəri Aİİ-nin fəaliyyəti, hədəfləri haqqında geniş məlumat verib, mövcud ixtisaslar barədə danışıb. Görüşdə Misir-Azərbaycan əlaqələrinin inkişafı, "əl-Əhzər" Universiteti ilə gələcəkdə əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı fikir mübadiləsi aparılıb.

Daha sonra qonaqların Azərbaycan İlahiyyat İnstitutu və Bakı İlahiyyat Kollecinin tələbələri ilə görüşü təşkil olunub.

Rektor çıxış edərək "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında keçirilən dini liderlərin qlobal Bakı Sammitinin ölkəmizdə təşkil olunmasının əhəmiyyətini diqqətə çatdırıb. Sammit çərçivəsində dini liderlərin İlahiyyat İnstitutunda tələbələrlə görüşünün təqdirəlayiq hadisə olduğunu vurğulayıb.

Misirin Baş müftisi Nəzir Məhəmməd Ayad çıxışında islamın insan haqqında toxunduğu mövzular barədə söhbət açıb, Allahın hər bir şəxsə ən böyük ərməğanının elm olduğunu diqqətə çatdırıb. İnsanın yaradılanların ən üstünü (əşraful-məxluqat) olduğunu və kainatın bütünlüklə insana xidmət etdiyini vurğulayan müfti dini hökmlərdən və onların məqsədindən (məqasidüş-şəriə) də ətraflı bəhs edib.

Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin xarici əlaqələr üzrə müşaviri, Misirdə Azərbaycan diasporunun sədri Seymur Nəsirov çıxışında elmin əhəmiyyəti, ümumilikdə Qurani-Kərimdə biliyə təşviq edən ayələr haqqında ətraflı danışıb. S.Nəsirov cahilliyin törətdiyi fəsadlara toxunub, tələbələrə əsl ziyalı kimi yetişmələri üçün səylə bilik qazanmağı tövsiyə edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Bilik yarışması Zəfər Gününə həsr olunmuşdur





**Tovuzda Zəfər Gününə həsr olunmuş intellektual bilik yarışması keçirilmişdir.**

Yeddi komandanın iştirak etdiyi və gərgin bilik mübarizəsi şəraitində keçən yarışda 35 gənc iştirak etmişdir. Yarış zamanı I yerə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Tovuz rayon bölməsinin "Turan", II yerə "Flaqman", III yerə Tovuz Dövlət Sosial-İqtisad Kollecinin "Gənc Müəllimlər" komandaları layiq görülmüşlər.

Qalib komandalar Qazax-Tovuz Regional Gənclər və İdman İdarəsinin Fəxri fərmanları ilə təltif olunmuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Mormon kilsəsinin və Stirlinq Fondunun rəsmiləri Dövlət Komitəsində olublar

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova noyabrın 6-da İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin (Mormon kilsəsi) yüksəkrütbəli nümayəndəsi Cek Gerard və Stirlinq Fondunun prezidenti Mayls Hansenlə görüşüb.**






Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bütün dünya üçün vacib olan qlobal sammit çərçivəsində qonaqları ölkəmizdə görməkdən məmnunluğunu bildirən Bahar Muradova dünyamızı təhdid edən bir sıra məsələlərə, o cümlədən iqlim dəyişikliyi ilə mübarizəyə din xadimlərinin verə biləcəyi rolu yüksək qiymətləndirib, xüsusilə "yaşıl planet" naminə çalışmağı və bu məqsəd üçün dini liderləri bir araya gətirərək dünyaya çağırış etməyi müqəddəs bir iş adlandırıb.

B.Muradova fondun və onun fəallarının bütün dünyada, eləcə də Azərbaycanda gördüyü işləri təqdir edərək, xüsusilə də işğaldan azad olunmuş ərazilərdə fəalların minatəmizləmə işinə cəlb olunmasını bu ərazilərdə həyatın və ədalətin bərpasına töhfə verən addım kimi qiymətləndirib.

Ölkəmizdə ailə institutunun əhəmiyyətinə diqqət çəkən komitə sədri qayıdış prosesi çərçivəsində işğaldan azad olunan ərazilərə köçürülən əhalinin adaptasiya və məşğulluğunun təmin edilməsi məqsədilə genişmiqyaslı işlərin və layihələrin həyata keçirildiyi barədə məlumat verib.

Mormon kilsəsinin yüksəkrütbəli nümayəndəsi Cek Gerard kilsənin uşaq, qadın və ailə məsələləri ilə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlığına diqqət çəkib, müvafiq sahədə komitə ilə birgə fəaliyyətə maraqlı olduğunu diqqətə çatdırıb.

C.Gerard kilsənin işğaldan azad olunmuş ərazilərin minalardan təmizləməsi prosesində, eləcə də sülh quruculuğu işində yaxından iştirak etdiklərini vurğulayıb.

Sonra çıxış edən Stirlinq Fondunun prezidenti Mayls Hansen fondun müxtəlif təşkilatlarla əməkdaşlıq çərçivəsində 42 ölkədə fəaliyyət göstərərək həyata keçirdiyi işlərdən danışıb, Dövlət Komitəsi ilə müvafiq sahədə əməkdaşlığın inkişaf perspektivlərinə toxunub.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb, mümkün əməkdaşlıq imkanları müzakirə edilib.

# COP29 iştirakçıları üçün taksi xidməti tətbiqlərində "COP29" menyusu yaradılıb

**COP29 konfransında iştirak etmək üçün ölkəmizə səfər edən nümayəndə heyətləri, eləcə də yerli iştirakçılar üçün sərnişindaşıma xidmətlərinin əlçatanlığının təmin edilməsi məqsədilə "Bolt" və "Yango" taksi şirkətlərinin mobil tətbiqlərində "COP29" kateqoriyası yaradılıb.**




Bu barədə AZƏRTAC-a COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, COP29 Azərbaycan Əməliyyat Şirkəti və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən bu ilin noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək COP29-a qatılacaq on minlərlə iştirakçının tədbir məkanları arasında rahat gediş-gəlişini təmin etmək istiqamətində fəaliyyətini davam etdirir. Bu çərçivədə tədbir iştirakçıları xüsusi marşrut üzrə hərəkət edəcək avtobuslarla yanaşı, "Bolt" və "Yango" kimi şirkətlərin mobil tətbiqlərindən də rahatlıqla istifadə edə biləcəklər. Bunun üçün həmin taksi şirkətlərinin mobil tətbiqlərinin sifariş menyularına "COP29" kateqoriyası daxil edilib. Bu funksiya, sadəcə, sifariş prosesini asanlaşdırmır, eyni zamanda sifarişçiləri ən yaxın taksi dayanacağına yönləndirir. Prosesin təhlükəsizliyini nəzərə alaraq, sözügedən taksi şirkətləri tərəfindən bu kateqoriya üzrə xüsusi avtomobillər ayrılıb və müvafiq stikerlərlə fərqləndirilib.

Bununla yanaşı, rəsmi COP29 tərəfdaşı olan "Baku Taxi" şirkəti də konfrans iştirakçılarına öz xidmətlərini təklif edir. Bu şirkətə məxsus taksilər Heydər Əliyev Beynəlxalq Aeroportundakı "Terminal-1" və Bakı Olimpiya Stadionunun müvafiq ərazilərində xidmət göstərəcəklər. Qeyd edək ki, "Baku Taxi"nin xidmətləri konfransda iştirak üçün akkreditasiyadan keçən və ya iştiraka dair təsdiq məktubu almış təkərli oturacaq istifadəçiləri üçün ödənişsiz olacaq.

# Hava əsasən yağmursuz keçəcək

**Sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, havanın temperaturu gecə 5-8° isti, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi 772 millimetr civə sütunundan 775 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 12-17° isti, dağlarda gecə 2-5° şaxta, yüksək dağlıq ərazilərdə 5-10° şaxta, gündüz 3-7° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° isti, dağlıq ərazilərdə 3° şaxta, gündüz 15-20° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, bəzi yerlərdə 3° isti, gündüz 7-12° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6° şaxta, bəzi yerlərdə 3° isti, gündüz 6-11° isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 13-18° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 10-15° isti, dağlarda gecə 2-5° şaxta, yüksək dağlıq ərazilərdə 5-10° şaxta, gündüz 5-10° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 12-17° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq, şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-7°, gündüz 10-15° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 6-9° isti olacağı proqnozlaşdırılır.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi tərəfindən Azərbaycan Psixiatriya Assosiasiyasına verilmiş reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.**


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4218
Sifariş 2560

Qiyməti 60 qəpik